**HİKMƏT BABAOĞLU**

# İNFOİMPERİALİZM VƏ MEDİA

*Monoqrafiya Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasının 02 iyun 2013-cü il tarixli (08 saylı protokol) qərarı ilə çapa tövsiyə edilmişdir.*

**«MSA»**

BAKI – 2013

Elmi redaktor: **Ə.M.Həsənov**
*tarix elmləri doktoru, prof.*

Rəyçilər: **R.M.Əliquliyev**
*AMEA-nın müxbir üzvü, tex.e.d., prof.*

**E.T.Vəlizadə**
*Rabitə və İnformasiya Texnologiyaları nazirinin müavini*

Redaktor: **N.V.Qələndərov**
*AMEA-nın doktorantı*

**HİKMƏT BABA OĞLU MƏMMƏDOV**
|B13 **«İNFOİMPERİALİZM VƏ MEDİA»**
Bakı, **«MSA»**, 2013, 192 səh.

Monoqrafiyada müasir dünya siyasətində baş verən ən yeni keyfiyyət dəyişiklikləri beynəlxalq münasibətlər sisteminin modern konsepsiyaları əsasında elmi-analitik təhlilə cəlb edilmiş, qloballaşma, netokratiya, neoimperializm və s. kimi məsələlərin məzmun və mahiyyətinin alt qatlarına işıq tutulmuşdur. XXI əsrin beynəlxalq münasibətlər sistemində milli dövlətlərin aktor kimi fəaliyyət perspektivləri təhlil edilmiş, istismarçı imperializmin informasiya imperializmi mərhələsinə daxil olması sosial şəbəkələrin və medianın isə infoimperializmin əsas silahı kimi institusional vasitəyə çevrilməsi məsələləri öz əksini tapmışdır.

Monoqrafiyada, eyni zamanda, infoimperializmdən müdafiə vasitəsi və metodlarının nələrdən ibarət ola biləcəyi məsələlərinə toxunulmuş, bu prosesləri izah etmək üçün müəllif tərəfindən politoloji leksikona, infoimperializm, infokratiya, infoelita, infokultroloji piramida, infogen təsir, infoidentiklik və s. kimi yeni terminlər gətirilmişdi.

Monoqrafiya politoloqlar, sosioloqlar, media nümayəndələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İSBN 987-9952-440-48-5

**© "HİKMƏT BABAOĞLU" 2013**

Bizə qarşı mübarizə bundan sonra da aparılacaqdır və bu mübarizənin müxtəlif mərkəzləri vardır...

*Birincisi*, erməni lobbisi bizim əsas düşmənimizdir.

*İkincisi,* antiazərbaycançı mərkəzlər, islamofobiya xəstəliyinə düçar olmuş qurumlardır, dairələrdir.

*Üçüncüsü,* ...müstəmləkə, metropoliya təfəkkürü ilə yaşayanlardır.

**Prezident İlham Əliyev**

* * *

Qanunların deyil, prinsiplərin müqəddəs olması şərtdir.

**F.Ruzvelt**

* * *

Məsum olmayan bir dünyada məsumluq rolu oynaya bilmərik.

**R.Reyqan**

* * *

Demokratiya bizim uzaqvuran silahımızdır. Biz onunla Avropadan kənarda istənilən hədəfimizi dəqiq vura bilərik.

**U.Çörçil**

## Mündəricat

**Giriş**……................................................................ 7

**I FƏSİL**

**İnfoimperializm ən yeni imperializm növü kimi**

1.1. İnfoimperializm: mahiyyəti və əsasları ....................... 10
1.2. İnfoimperializmin dünyanın siyasi sisteminə daxil olması: ilkin təcrübələr, reallıqlar və perspektivlər ...... 13

**II FƏSİL**

**Qlobal informasiya cəmiyyəti və yeni tipli mədəniyyət növü-infokultura**

2.1. İnformasiya cəmiyyəti yeni sosium növü kimi ............ 28
2.2. İnfoidentiklik milli-etnik identikliyi neytrallaşdıran faktordur. Milli-etnik sosial piramidadan homogen infokulturoloji sosial piramidaya doğru ...................... 32

**III FƏSİL**

**Media institutu qlobal infoimperializm kontekstində: mediakratiya, transmilli media strukturlarının fəaliyyət mexanizmi və qlobal media imperatorluğu**

3.1. Media institutu: mahiyyəti, spesifikası və institusional funksionallıq məsələsi …………………………….. 38
3.2. Modern informasiya cəmiyyətində media təsisatı və milli maraqlar ……………………………………. 42

3.3. Transmilli media institutları infoimperializmin məqsəd və niyyətlərinin həyata keçirilməsində strateji resurs qismində ........................................... 50
3.4. Beynəlxalq informasiya savaşında yeni kibertexnologiyalar və texnoloji innovasiyalar spesifik strateji vasitə kimi ................................. 54

## IV FƏSİL

## İnfoimperializmin konseptual əsasları və ideoloji vasitələri

4.1. "Geosiyasi demokratiya" prinsipi; infoimperializm çərçivəsində "demokratiya" və "insan haqları" məsələsi xüsusi institusional vasitədir ............................. 60
4.2. Beynəlxalq münasibətlər nəzəriyyələri informasiya imperializmi kontekstində ideoloji vasitə kimi ............ 73

## V FƏSİL

## Beynəlxalq şəbəkə hakimiyyəti qlobal prosesləri yönləndirən infoelita kimi

5.1. Netokratiya yeni növ hakimiyyət forması kimi ............ 80
5.2. Qlobal dövlət və qloballaşma prosesi infoimperializm kontekstində; xüsusi analitik təhlil .................................... 85
5.3. Mədəni imperializm-infoimperializmin strateji substratı ........................................................ 103

## VI FƏSİL

**İnfoimperializmə qarşı mübarizə mexanizmləri: ideoloji və institusional vasitələr**

6.1. Ailə institutu infoimperializmə qarşı mübarizə prosesində başlıca strateji vasitə kimi ........................ 113
6.2. İnfoimperializmə qarşı mübarizədə milli ideologiya faktoru ..................................................... 115
6.3. Milli ideologiya vətəndaş həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən vasitədir .............................. 125

## VII FƏSİL

**Azərbaycan və beynəlxalq informasiya şəbəkələri: milli maraqlar və onların müdafiəsi mexanizmləri**

7.1. Milli enerji, milli güc və milli dövlət: milli enerji pozitiv və neqativ platformada .................................. 132
7.2. Milli vətənpərvərlik məsələsi: təmayüllər və istiqamətlər; intellektual patriotizm milli maraqların etibarlı müdafiə vasitəsi kimi .................................... 139
7.3. Modern informasiya cəmiyyətində milli maraqlar və onların müdafiəsi: Azərbaycan təcrübəsi ................... 163

# GİRİŞ

XXI yüzillik informasiya əsri kimi səciyyələndirilir. Müasir dövrdə modern və postmodern cəmiyyətlərdə informasiya başlıca idarəetmə vasitəsi kimi təsbit edildiyindən informasiya subyektləri kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirir ki, bu da mütəmadi surətdə informasiya resurslarının artırılmasını və təkmilləşdirilməsini şərtləndirən faktor qismində çıxış edir. Xüsusi mübadilə və idarəetmə vasitəsi səciyyəsi daşıyan informasiya resurslarından səmərəli surətdə istifadə edilməsi üçün daim yeni mexanizmlər və texnologiyalara istinad edilir. Eyni zamanda, informasiya resurslarının idarə edilməsi və informasiya siyasətinin həyata keçirilməsi üçün klassik vasitələrdən istifadə olunması ilə yanaşı, yeni metod və mexanizmlərə də istinad edilir. Beləliklə, ortaya yeni bir idarəetmə forması – informasiya menecmenti, yaxud informasiya vasitəsi ilə idarəetmə çıxır.

Bütün bunları nəzərə alan müəllif yeni sosium növü olan informasiya cəmiyyəti, transmilli media institutlarının və sosial şəbəkələrin fəaliyyəti, beynəlxalq informasiya savaşında yeni kibertexnologiyalar və texnoloji innovasiyalardan spesifik strateji vasitə kimi istifadə olunması kimi məsələlərə toxunub və analitik tədqiqatının nəticəsi kimi ən yeni imperializm növünün – infoimperializmin əsasları və mahiyyətini xüsusi tədqiqata cəlb etmişdir. Beləliklə, xüsusi kateqoriya və mövzu olmaq etibarilə infoimperializm ilk dəfə müəllif tərəfindən politoloji leksikona və elmi dövriyyəyə gətirilmişdir. Müəllif infoimperializmi “informasiya resursları və idarəetməsi üzərində qurulan idarəetmə və istismarın ənənəvi hərbi, iqtisadi, mədəni vasitələrlə deyil, məhz informasiya vasitəsilə həyata keçirildiyi siyasət növü” kimi səciyyələndirir. Bu siya-

sət növü modern kibertexnologiyaların yaratdığı imkanlardan maksimum istifadə edilməsi ilə xarakterizə olunur. Qeyd edilir ki, infoimperializmin silahı qismində sosial media, "facebook", "twitter" kimi sosial şəbəkələr, transmilli medianın digər resursları və bütün növ manipulyativ internet mənbələri çıxış edir.

Qeyd etmək lazımdır ki, infoimperializmin və infoimperialist siyasətin mahiyyətini daha dəqiq anlatmaq üçün müəllif beynəlxalq münasibətlər nəzəriyyələrini informasiya imperializmi kontekstində ideoloji vasitə kimi nəzərdən keçirir, ən yeni imperializmin fonunda qloballaşma prosesini xüsusi analitik tədqiqat obyektinə çevirir, mədəni imperializmə informasiya imperializminin bir öncəki mərhələsi kimi yanaşır. Həmçinin, tədqiqat çərçivəsində informasiya imperializminin dünyanın siyasi sisteminə daxil olması, ilkin təcrübələr, reallıqlar və perspektivlərə nəzər salınır, infoidentiklik milli – etnik identikliyi neytrallaşdıran faktor kimi səciyyələndirilir, milli-etnik sosial piramidadan homogen infokulturoloji sosial piramidaya doğru dəyişən sosial stratifikasiya diqqətə təqdim olunur. Müəllif, eyni zamanda, yeni növ hakimiyyət formasından – "şəbəkə hakimiyyəti"ndən (netokratiya) bəhs edir, onun infoimperializm çərçivəsindəki funksionallığına toxunur.

Vurğulamaq gərəkdir ki, kitabda infoimperializmə qarşı mübarizə mexanizmləri, ideoloji və institusional vasitələr də oxucuların diqqətinə çatdırılır. Ailə institutu infoimperializmə qarşı mübarizə prosesində başlıca strateji vasitə kimi səciyyələndirilir, bu prosesdə ictimai ahəngdarlığı təmin edən milli ideologiya faktorunun xüsusi əhəmiyyət kəsb etdiyi bildirilir. Eyni zamanda, informasiya imperializmi kontekstində Azərbaycanın milli maraqlarının etibarlı müdafiəsi mexanizminə toxunulur, milli vətənpərvərlik, ailə institutu, milli-mə-

nəvi dəyərlər sistemi və intellektual patriotizm infoimperializmə qarşı müdafiə vasitəsi kimi müəyyən edilir.

Bir məqama xüsusilə toxunmaq lazımdır ki, kitabda istifadə edilmiş “infoimperializm”, “infoidentiklik”, “infokratiya” “infokulturoloji piramida”, “infoelita”, “infogen təsir” terminləri ilk dəfə politoloji leksikona müəllif tərəfindən gətirilmişdir.

Ümidvarıq ki, kitab yuxarıda qeyd edilmiş məsələlər kontekstində baş verən hadisə və proseslərin araşdırılması, öyrənilməsi baxımından tədqiqat xarakterli xüsusi elmi-nəzəri və empirik-analitik informasiya mənbəyi kimi oxucular üçün maraqlı olacaqdır.

Kitab ali məktəb tələbələri, magistr və doktorantlar, araşdırmaçılar, media nümayəndələri və ümumilikdə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## I FƏSİL

# İnfoimperializm ən yeni imperializm növü kimi

### 1.1. İnfoimperializm: mahiyyəti və əsasları

İmperializmdən bəhs edərkən, ilk növbədə, fərqli keyfiyyətlərin daşıyıcısı qismində çıxış edən müxtəlif imperializm və ya imperialist siyasət növlərini səciyyələndirmək lazımdır. Nəzərə alsaq ki, bəşəriyyət dinamik inkişaf tempinə malik olan sistem və ya platformadır, onda qeyd edə bilərik ki, müasir kibertexnologiyaların və yaxud texnoloji innovasiyaların gətirdikləri xüsusiyyətlər və keyfiyyətlər cəmiyyət daxilində, eləcə də, müasir beynəlxalq münasibətlər sistemində əhəmiyyətli dəyişikliklər etmək gücündədir. Eyni zamanda, fərqli xüsusiyyət və keyfiyyətlərin daşıyıcısı qismində çıxış edən hərbi, siyasi və mədəni imperializm yuxarıda sadalanan dəyişikliklərin fonunda öz funksiya və missiyalarını yerinə yetiriblər. Amma bununla belə, kapital mahiyyət etibarilə irticaçı olduğu üçün daim yeni bazarlar axtarır. Həmçinin, kapital bu bazarların münbit, əlverişli, idarəolunan və sabit olmasını tələb edir. Belə olan halda, imperialist güclər imperializmin substratı olan kapitalizmin inkişafı üçün, heç şübhəsiz ki, yeni metod və vasitələr axtarışına çıxıblar. Bunun fonunda isə əqli və idraki inkişafın son mərhələsində kapital, demək olar ki, klassik kapitalizmin hüdud və sərhədlərini zorlayaraq, ən müasir dövrdə özünə məqbul qəlib və forma tapmağı bacarmışdır. Biz imperializmi qidalandıran kapitalizmi bütün növ

qəlib və formalara uyğun gələn su ilə müqayisə edə bilərik. Başqa sözlə, kapital elastik, çoxşaxəli və istənilən konfiqurasiyaya uyğun gəlmək xüsusiyyətinə malikdir. Amma təyinat etibarilə vahiddir. Kapitalın əsas funksiyası gəlir əldə etmək və istismara yönəlməkdir.

Məlum olduğu kimi, Marksizm nəzəriyyəsində kapitalizm istismarçı quruluş və irtica kimi səciyyələndirilirdi. Amma sonrakı dövrdə kapitalizmə qarşı ümumi loyal münasibət formalaşdırıldı. Buna baxmayaraq, hazırki nəzəriyyəçilər və araşdırmaçılar belə bir qənaət ifadə edirlər ki, Karl Marksın kapitalizmlə bağlı səsləndirdiyi fikirlər bu quruluşun əsaslarını, hətta iç üzünü olduqca adekvat surətdə əks etdirmişdir. Eyni zamanda, qeyd edə bilərik, Marksizm nəzəriyyəsində ifadə olunan tezis və fikirlər ənənəvi və modern beynəlxalq münasibətlər sisteminin əsaslarını dəqiq şəkildə ifadə etmişdir. Nəzərə alsaq ki, müasir beynəlxalq siyasi münasibətlər və proseslər realizmə söykənir və güc nəzəriyyəsinə əsaslanır, məhz bu zaman kapitalın nə qədər böyük güc olduğu qənaətinə gələ bilərik. Bu baxımdan, kapital varsa, deməli, kapitalizmlə yanaşı imperialist siyasət də var. Ümumiyyətlə, kapitalizmlə imperializm eyni mənbədən qidalanır. Bəzi araşdırmaçılar iddia edirlər ki, imperializm kapitalizmin məhsuludur və yaxud son mərhələsidir. Hətta bir sıra nəzəriyyəçilər kapitalizmlə imperializmi eyniləşdirirlər. Amma qeyd etmək lazımdır ki, kapitalizm və imperializm vəhdətdədirlər, biri digərini qidalandırır, yaxud biri digərinin mövcudluğunu şərtləndirir. Beləliklə, bir-birilə vəhdətdə olan bu iki siyasi-iqtisadi faktor intellektual amillə birləşərək, beynəlxalq münasibətlər sistemində spesifik iyerarxiya formalaşdırmağı bacarır və diktə edən tərəf kimi çıxış edir. Buradan da yeni siyasət növünü səciyyələndirən modern bir anlayış meydana çıxır: ən

yeni imperializm. Əlbəttə ki, bunu neoimperializmdən fərqləndirmək lazımdır. Belə ki, ən yeni imperializm daha çox informasiya resursları və idarəetməsi üzərində qurulduğu üçün onu infoimperializm kimi səciyyələndirmək doğru olardı. Çünki infoimperializm çərçivəsində idarəetmə və istismar ənənəvi hərbi, iqtisadi, mədəni vasitələrlə deyil, məhz informasiya vasitəsilə həyata keçirilir. Bunun üçünsə modern kibertexnologiyaların yaratdığı imkanlardan maksimum istifadə edilir.

İnfoimperializm adlandırdığımız (H.B.) yeni beynəlxalq siyasi sistem inkişaf prosesində olduqca maraqlı, ancaq eyni zamanda, proqnozlaşdırılması xeyli çətin olan problemlər də əmələ gətirir. Bu problemlər cəmiyyətin ən ağlagəlməz sahələrinə nüfuz etməklə bir sıra hallarda yeni keyfiyyət dəyişikliklərinə, əksər hallarda isə dəhşətli aşınmalara gətirib çıxarır. Aşınma əsas etibarilə mənəvi sferada baş verir və bu o dərəcədə güclü təsirə malik olur ki, millət və xalq anlayışlarının ifadə etdiyi məzmuna belə, köklü şəkildə təsir göstərir. Yeni qlobal sosial piramida yaradır. Bu piramida isə klassik milli-etnik piramida deyil, infokulturoloji (H.B.) piramida şəklində ortaya çıxır.

İnfokulturoloji piramidanın formalaşması isə milli dövlətləri beynəlxalq münasibətlərin aktoru kimi ilkin mərhələdə zəiflədir, sonrakı mərhələdə isə tamamilə sıradan çıxarıla bilmə ehtimalını gücləndirir. Milli aktorların zəifləməsi isə infoimperializmə xidmət edən qloballaşmanı gücləndirir. Beləliklə, infoimperializm yeni qlobal infokratiyanı (H.B.) infokratiya isə yeni infoelitanı (H.B.) şərtləndirir. Nəticə etibarilə bəşər tarixində bu vaxtadək müşahidə edilməmiş yeni və dəhşətli bir indentiklik formalaşır. Bu milli-etnik və dini identiklikdən köklü şəkildə fərqlənən, eyni zamanda, bu identikliyi

rədd edən infoidentiklikdir (H.B.). İnfoidentiklik qloballaşmanın sosial bazasını formalaşdıran yeni növ, infoidentik insan (şəxsiyyəti və dünyagörüşü milli-mənəvi dəyərlər əsasında deyil, qəbul etdiyi informasiya əsasında formalaşan yeni insan) yaratmaqla infoimperializmi təmin edən intellektual resurs rolunu oynayır.

İnfoimperializmin sürətlə təşəkkül etməsi üçün media (bütün növ, əsas etibarilə isə sosial media) əvəzsiz rol oynayır.

### 1.2. İnfoimperializmin dünyanın siyasi sisteminə daxil olması: ilkin təcrübələr, reallıqlar və perspektivlər

İnfoimperializmin yaranması və yaxud onun əsaslarının qoyulması XX əsrin ikinci yarısına təsadüf edir. Belə ki, həmin dövrdə bir sıra Qərb nəzəriyyəçiləri, ideoloqları və strateqləri ənənəvi, klassik əsaslar üzərində bərqərar olunmuş mədəni imperializmin lazımi dividendlər gətirmədiyini və kifayət qədər səmərəli olmadığını, həmçinin, həmin dövrdə geniş vüsət almış milli özünüdərk prosesinin mədəni imperializmin üfüqlərini məhdudlaşdırdığını anlayırdılar və özləri də mədəni imperializmin sonunun yaxınlaşdığını etiraf edirdilər. Məhz buna görə də, həmin dövrdə bəhs olunan ideoloqlar və strateqlərin qarşısında iki əsas məsələ var idi: birincisi, imperializmi yeni keyfiyyət ünsürləri əsasında təşkil etmək və onun davamlılığının təmin olunmasına nail olmaq; ikincisi, imperializmə mane olan ünsürlərə, xüsusilə də milli dövlətlərə qarşı mübarizə aparmaq.

Əlbəttə ki, bu məsələlər dünya siyasətinin əsas meyil və istiqamətlərini müəyyənləşdirən Avroatlantik dairələrin beyin mərkəzlərində xüsusi müzakirə predmetinə çevrilmiş və bu istiqamətdə məxsusi strateji kurs işlənib, hazırlanmışdır. Tə-

əssüf ki, bəhs olunan strateji kursun mahiyyəti və təfərrüatları dünya ictimaiyyətinə məlum olmamış və həyata keçirilən imperialist siyasətin fonunda ortaya çıxan real mənzərə müasir beynəlxalq münasibətlər sisteminin tərəddüdsüz qəbul edilən aktorları olan milli dövlətləri ciddi fakt və seçim qarşısında qoymuşdur. Buna görə də, informasiya imperializmi öz məqsəd və hədəflərini diktə etməyə başlayanda, mövcud beynəlxalq şəraitin fonunda milli dövlətlər onun qarşısında aciz duruma düşdülər.

Beləliklə, bir neçə ilkin uğurlu əməliyyatdan sonra yeni ümumbəşəri-infokulturoloji piramidanın qurulması məsələsi aktuallaşmağa başladı. Və XX əsrin 80-ci illərindən başlayaraq beynəlxalq münasibətlər sisteminin keyfiyyətcə yeni mərhələyə daxil olması özü ilə bərabər spesifik və yeni ideyaların meydana çıxmasını şərtləndirdi. Bu məqamda onu da mütləq mənada qeyd etmək lazımdır ki, gözlənilməyən və proqnozlaşdırılmayan bir şəkildə dünya siyasətinin nəhəng güc mərkəzi qismində çıxış edən SSRİ iflasa uğradı. Bundan sonra "Mondializm" və "Yeni dünya düzəni" konsepsiyasına əsaslanan "qlobal dövlət" ideyası meydana çıxdı. Məhz bu kontekstdə baş verən hadisələrin mahiyyətini daha dəqiq izah etmək üçün imperializmi yaradan və şərtləndirən əsas faktorlardan biri olan müharibə məsələsinə toxunmaq məqsədə müvafiqdir. Bilindiyi kimi, hərbi, iqtisadi və mədəni imperializmin əsas vasitəsi qismində məhz müharibələr çıxış edir. Və yaxud hərbi, iqtisadi və mədəni imperializmi qurmaq müharibələr nəticəsində mümkün olmuşdur. Belə olan halda, əlbəttə ki, informasiya imperializmini formalaşdırmaq da müharibələr nəticəsində mümkün olmalı idi. Amma bu kontekstdə maraqlı bir hadisə baş verdi. Belə ki, informasiya imperializmi hərbi, iqtisadi və mədəni imperializmdən nə qədər fərqlənirdisə, ən

yeni imperializmin yaranmasını şərtləndirən müharibə də keyfiyyətcə klassik müharibələrdən bir o qədər fərqlənmiş oldu. Dolayısıyla, müharibə klassik vasitələrlə-artilleriya, top, tüfəng vasitəsilə cəbhələrdə deyil, məhz insanların beyinlərində, təfəkküründə, eyni zamanda, ideya və ideologiyalarda aparılmağa başlandı. Təbii ki, burada da müəyyən hərbi və iqtisadi resurslardan istifadə olunmağa başlandı və bu, müəyyən dərəcədə kataklizmləri, lokal qarşıdurmaları şərtləndirmiş oldu. Düşünürük ki, 4 aprel 1987-ci il tarixində Sovet İttifaqı Mərkəzi Komitəsinin Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Mixail Qorbaçovun "4 aprel plenumu"nda səsləndirdiyi "perestroyka" və "qlastnost" məhfumları bəhs olunan xarakterli müharibənin başlanması demək idi. Əlbəttə, olduqca paradoksaldır ki, dövlət rəhbəri öz dövlətinə qarşı müharibə elan etmişdi. Ona görə də, hesab edirik ki, bu tarix, əslində, üçüncü dünya müharibəsinin başlanğıcı idi.

Qeyd etmək lazımdır ki, məlum müharibənin elan olunmasından sonra baş verən hərbi, siyasi, iqtisadi və ideoloji proseslərin fonunda əhəmiyyətli dəyişikliklər qeydə alındı və nəticə etibarilə, ikiqütblü sistem sıradan çıxmış oldu. Əlbəttə ki, bipolyar sistem dünya siyasəti və beynəlxalq münasibətlər sistemində rəqabəti şərtləndirir, eyni zamanda, elmin, iqtisadiyyatın inkişafını stimullaşdırırdı. Həmçinin, həmin dövrdə dünya dini-etnik identikliyə görə fərqli cəbhələrə bölünməmişdi. Məlum olduğu kimi, o dövrdə dünyada siyasi-ideoloji identikliyə görə cəbhələşmə və yaxud bölgü var idi. Buna görə də, multimədəni sərhədlər daxilində rəqabət, inkişaf və uzlaşma prosesi baş verirdi. Düşünürük ki, bu, bəşəriyyətin ümumi inkişafının lehinə idi.

Amma sonrakı mərhələdə, yəni SSRİ-nin dağılması və yeni dünya düzəninin formalaşması ilə dünya siyasəti və bey-

nəlxalq münasibətlər sistemində kardinal dəyişikliklər baş verdi. Bunun fonunda isə nəzəriyyəçilər və ideoloqlar müasir beynəlxalq münasibətlər sisteminin təməl xüsusiyyətlərinə müvafiq surətdə infoimperializmin məqsəd və hədəflərinə xidmət edən ideya və konsepsiyalarla çıxış etdilər. Bu, əslində, mədəni imperializmdən infoimperializmə transformasiya prosesinin sistemləşdirilməsi idi. Bu istiqamətdə Samuel Hantinqton 1993-cü ildə Amerika Birləşmiş Ştatlarının xarici siyasət jurnalı olan “Foreign affairs”də “Sivilizasiyaların toqquşması” adlı məqalə dərc etdirdi və sonralar bu yazı daha ciddi diskussiyalar yaratdı.

Əslində, bu məqalədə əks olunmuş tezis və ideyaların fonunda üçüncü dünya müharibəsində yeni cəbhə açılmış oldu. “Sivilizasiyaların toqquşması” adlı məqalə çox ciddi effekt yaratdı və onun ortaya çıxardığı tezislər infoimperializmin beyin mərkəzlərinin əsas silahlarından birinə çevrildi.

Ümumiyyətlə, S.Hantinqtonun “Sivilizasiyaların toqquşması” adlı məqaləsində əks olunmuş tezislərin xarakterini və mahiyyətini anlamaq üçün orada yer almış bir sıra məsələlərə diqqət yetirmək lazımdır.

Beləliklə, S.Hantinqtonun konsepsiyasının ümumi cizgiləri bir növ gələcəklə üzləşmə idi. Beynəlxalq münasibətlər tarixinin müxtəlif mərhələlərində dünya siyasətinin dinamikası münaqişələrin müxtəlif tipini müəyyənləşdirdi. Əvvəlcə, bu, monarxlararası münaqişələr idi. Böyük fransız inqilabından sonra millət və dövlətlərarası münaqişələr erası başlandı. 1917-ci il rus inqilabından sonra dünya ideoloji, sosial-siyasi prinsiplər üzrə parçalandı. Bu parçalanma soyuq müharibənin başa çatması dövrünə qədər ixtilafların əsas mənbəyi oldu. Lakin S.Hantinqtonun fikrincə, bu tip münaqişələr Qərb sivilizasiyası daxilindəki münaqişələr idi. Politoloq göstərir: «so-

yuq müharibənin başa çatması ilə beynəlxalq siyasətin inkişafının Qərb fazası başa çatır. Qərblə qeyri-Qərb sivilizasiyası arasında qarşılıqı fəaliyyət mərkəzə doğru irəliləyir».

S.Hantinqton sivilizasiyanı sosial-mədəni birliyin ən yüksək dərəcəsi və insanların mədəniyyət identikliliyinin ən yüksək səviyyəsi kimi müəyyənləşdirir. Hər sivilizasiya üçün bəzi obyektiv təzahürlərin mövcudluğu xarakterikdir: tarix, din, dil, adət birliyi, sosial institutların fəaliyyətinin özünəməxsusluğu, habelə insanın subyektiv özünüeyniləşdirməsi. A.Toynbi və digər tədqiqatçıların işlərinə arxalanan S.Hantinqton 8 sivilizasiya müəyyənləşdirir: – Qərb-xristian – Pravoslav-xristian – İslam Konfutsi – Latın Amerika – İnduist – Yapon – Afrika. Onun nöqteyi-nəzərincə, beynəlxalq münasibətlərdə sivilizasiya amili daim güclənəcək. Bu qənaət aşağıdakı tərzdə əsaslandırılır.

Birincisi, əsasını dinin təşkil etdiyi sivilizasiyaların arasındakı müxtəliflik daha mühümdür, bu müxtəliflik əsrlərlə yığılır, siyasi ideologiya və siyasi rejim arasındakı müxtəliflikdən olduqca güclüdür;

İkincisi, müxtəlif sivilizasiyalara mənsubluğu olan xalqların qarşılıqlı fəaliyyəti güclənir, bu isə sivilizasiya özünüdərkinin artmasına və sivilizasiyalar və birliklər çərçivəsində öz sivilizasiyasının müxtəlifliyinin başa düşülməsinə aparır;

Üçüncüsü, dinin rolu artır, üstəlik, sonuncu daha fundamental hərəkatlar formasında təzahür edir;

Dördüncüsü, Qərbə aid olmayan ölkələrdə Qərbin təsiri zəifləyir, bu isə yerli elitanın qərbsizləşdirmə prosesində özünüifadəsinə gətirir və öz sivilizasiya köklərini axtarmağı gücləndirir;

Beşincisi, iqtisadi və siyasi fərqliliyə nisbətən mədəni fərqlilik daha az dəyişikliyə uğrayır və buna uyğun olaraq da-

ha az güzəştli qərarlara gətirib çıxarır. S.Hantinqton yazır: "Keçmiş Sovet İttifaqında kommunistlər demokrata, varlılar kasıba çevrilə bilərlər, amma bütün arzulara baxmayaraq, ruslar estonlara, azərbaycanlılar erməniyə çevrilə bilməzlər".

Altıncısı, politoloq mədəni-dini eyniliyin bir çox iqtisadi təşkilat və inteqrasiya qruplaşmalarına əsaslandığından, sivilizasiya amili ilə bağlı olan iqtisadi regionçuluğun güclənməsini qeyd edir.

S.Hantinqton soyuq müharibədən sonra sivilizasiya amilinin dünya siyasətinə təsirini «qardaş ölkələr sindromu»nun təzahüründə görür. Bu sindrom dövlətlərin qarşılıqlı münasibətlərdə ideoloji birlik və siyasi sistemə görə istiqamətlənməsini deyil, sivilizasiya yaxınlığını əsas götürür. Bununla belə, sivilizasiya fərqinin reallığı üçün nümunə qismində son illərdəki əsas münaqişələrin sivilizasiyalararası parçalanma xəttində baş verdiyini göstərir. Bu sərhəd sivilizasiya meydanlarının kəsişməsindən keçir (Balkanlar, Qafqaz, Yaxın Şərq və digərləri).

Gələcəyi proqnozlaşdırarkən S.Hantinqton belə bir qənaətə gəlir ki, Qərb və qeyri-Qərb sivilizasiyası arasında münaqişə qaçılmazdır, üstəlik, Qərb üçün əsas təhlükəni konfutsi-islam bloku – Çin, İran, bir sıra ərəb və digər müsəlman dövlətlərinin hipotetik (fərziyyəvi) koalisiyası təşkil edir. Öz ehtimallarının təsdiqi üçün Amerika politoloqu 1990-cı illərin siyasi həyatından faktlar gətirir.

Onun fikrincə, Qərb yeni təhlükənin qarşısında möhkəmlənməlidir və S.Hantinqton bunun üçün tədbirlər təklif edir. Bundan başqa, Amerika politoloqu hökumətin Qərbyönümlü olduğu, lakin adət-ənənə, mədəniyyət, tarix baxımından Qərblə ümumi heç nəyi olmayan «parçalanmış dövlətlər» adlanan ölkələrə diqqət yetirməyə çağırır. Belə ölkələrə

S.Hantinqton Türkiyəni, Meksikanı və Rusiyanı aid edir. Sonuncunun xarici siyasi istiqaməti müəyyən qədər beynəlxalq münasibətlərin gələcəyinin təhlil edilməsindən asılıdır. Buna görə də, S.Hantinqton xüsusi qeyd edir ki, Qərbin maraqları Rusiya ilə əməkdaşlığı genişləndirmək və davam etdirməyi tələb edir. S.Hantinqton XX əsrin 90-cı illərində də öz ideyalarını müdafiə və inkişaf etdirirdi. 1996-cı ildə o, «Sivilizasiyaların toqquşması və dünya düzəninin dəyişdirilməsi» kitabını nəşr etdirdi. Bu işdə amerikalı politoloq Qərb-xristian və islam sivilizasiyasının qarşılıqlı münasibətlərinə xüsusi diqqət verir. S.Hantinqtonun fikrincə, onların arasındakı münaqişənin mənbəyi çoxəsrlik tarixə malikdir.

Xristianlıqla İslam arasında qarşılıqlı ixtilaflı münasibətlər Şimali Afrikada, İberiya yarımadasında (İspaniya), Yaxın Şərq və digər regionlarda ərəb istilalarından başlayır. Xristian-ərəb qarşıdurması Rekonsistə – İspaniyanın ərəb və barbarlardan azad edilməsi müharibələrinə, 150 il ərzində Qərbi Avropa hökmdarlarının Fələstin torpaqları və onların ətraf bölgələrində möhkəmlənmək üçün təşkil etdikləri Xaç yürüşlərinə qədər davam edir. Bu qarşıdurmada ən əlamətdar hadisə kimi 1453-cü ildə türklər tərəfindən Konstantinopolun ələ keçirilməsi və 1529-cu ildə Vyananın mühasirəyə alınmasını göstərir. Bizans imperiyasının süqutundan sonra əvvəllər ona məxsus olan Kiçik Asiya, Balkanlar və Şimali Afrika ərazilərində İslam dünyasının ən iri hərbi və siyasi mərkəzinə çevrilən Osmanlı imperiyası meydana çıxdı. Uzun müddət bir çox xristian ölkələri və xalqlarına bilavasitə bu imperiya tərəfindən təhlükə mövcud idi.

Böyük coğrafi kəşflər və Qərb-xristian dünyasının İslamla qarşıdurmasında qüvvələr nisbəti Qərbin lehinə dəyişdi. Avropa dövlətləri Avropa ərazilərindən kənarda – Asiya

və Afrika qitələrində olan geniş ərazilərdə nəzarəti ələ aldılar. Bu ərazilərin bir çox hissəsində ənənəvi olaraq İslama inanan xalqlar məskunlaşmışdılar. S.Hantinqtonun istinad etdiyi mənbələrin məlumatına əsasən, 1757-ci ildən 1919-cu ilə qədər 92 müsəlman bölgəsinin qeyri-müsəlman dövlətləri tərəfindən işğalı qeydə alınıb. Avropa müstəmləkəçiliyi və istilaları ona qarşı qeyri-Qərb əhalisinin, əksərən müsəlman əhalinin müqaviməti, silahlı münaqişələrilə müşayiət olunurdu. S.Hantinqtonun qənaətinə görə, 1820-ci ildən 1929-cu ilə qədər dövlətlər arasında müharibələrin yarısı başqa dinə mənsub olan, o cümlədən, xristian və İslam dövlətləri arasında baş verib.

Hantinqtonun fikrincə, onların arasındakı münaqişə bir tərəfdən İslamın həyat tərzinə çevrilmiş müsəlman konsepsiyası ilə din və siyasətdən kənara çıxan Qərb xristianlığı konsepsiyası arasındakı fərqdən qaynaqlanır. Digər tərəfdən, bu münaqişə oxşar cizgilərlə şərtlənir. Həm xristian, həm də İslam monoteist (təkallahlı) dinlərdir və politeist (çoxallahlı) dinlərdəki kimi başqalarının allahlarını assimilyasiya etmir və dünyaya «biz və onlar» prizmasından baxırlar. Hər iki din universal xarakter daşıyır və Yer kürəsindəki bütün insanların arxasınca gedə biləcəkləri vahid, həqiqi inanc roluna iddia edirlər. Hər ikisi öz ruhları etibarilə missioner xarakterlidir və öz tərəfdarlarının öhdəsinə prozelitzm (sadiqlik) qoyur. İslam ekspansiyası ilk illərində istila yolu ilə həyata keçirilirdi, amma xristianlıq da belə imkanları əldən vermirdi. S.Hantinqton qeyd edir ki, „cihad” və „xaç yürüşü” təkcə bir-birilərinə oxşar deyillər, həm də bu təzahür bu dinləri başqa dünya dinlərinin içərisindən seçib ayırır.

Hantinqtonun fikrincə, XX əsrin sonunda müsəlman və xristian sivilizasiyası arasında köhnə münaqişələrin gərginləşməsi beş amillə şərtlənir.

– müsəlman əhalisinin sayının artması ilə yaranan işsizlər dalğasının və Qərbə miqrasiya edən, İslam hərəkatına qarşı gənclərdə narazılığın yaranması;

– İslamın dirçəlməsinin müsəlmanlara öz sivilizasiyalarının və dəyərlərinin xüsusi missiyası və xüsusi xarakterinə inanmaq imkanı verməsi;

– Qərbin öz təsisat və dəyərlərini universallaşdırmağı təmin etməsi, müsəlman dünyasındakı münaqişələrə müdaxilə etmək cəhdləri üçün hərbi və iqtisadi üstünlüyü saxlamağı bacarması;

– kommunizmin dağılmasının həm Qərb, həm də İslam üçün ümumi düşmənin aradan qalxmasına gətirib çıxarması, nəticədə onların əsas təhdid kimi bir-birilərini görməyə başlaması;

– müsəlmanların və Qərbin nümayəndələri arasında sıx əlaqələrin onların bir-birindən fərqli olduqlarını və başqa sivilizasiyaya aid olmalarını üzə çıxarması, mənsub olduğu ölkələrdə milli azlıqların nümayəndələrinin hüquqlarının məhdudlaşdırılması məsələsini qəbul edə bilməmələri.

Hantinqton qeyd edir ki, elə buna görə də, 1980-1990-cı illərdə həm müsəlman, həm də xristian sivilizasiyası çərçivəsində dözümlülük azalmağa doğru getdi.

Hantinqtonun fikrincə, Qərb və müsəlman sivilizasiyası arasındakı münaqişənin ənənəvi geosiyasi ölçüsü tarixə qovuşmuşdur. Qərbin məhəlli imperializmi haqda faktiki məlumatın olmaması, müsəlmanların ərazi ekspansiyalarının dayanması coğrafi ayırmaya gətirib çıxardı. Nəticədə Qərb və müsəlman icmaları yalnız Balkanlardakı bir neçə məntəqədə

bilavasitə bir-biriləri ilə sərhədə malik oldular. Qərb və İslam arasında ərazi aspektindən daha çox, daha geniş problemlər dayanır: silahların yayılması, insan hüquqları və demokratiya, neft istismarına nəzarət, miqrasiya, İslam terrorizmi və Qərbin müdaxiləsi.

XXI əsrin əvvəllərində İslam terrorizminin fəallaşmasının əks-sədası "sivilizasiyalar toqquşması" konsepsiyasına yenidən maraq yaratdı. Buna baxmayaraq, 11 sentyabr 2001-ci ildən sonra Hantinqton Qərb-xristian və İslam sivilizasiyasının qarşıdurması barədə öz tezislərini etibarsız saymağa cəhd etdi. Hər şeydən öncə, o, bunu siyasi əxlaq düşüncəsi ilə edirdi. Nyu-York və Vaşinqtona qarşı terrorçuların hücumundan sonra ABŞ-da antimüsəlman əhval-ruhiyyəsi birdən-birə güclənmişdi, buna görə də, sivilizasiyalararası münaqişəni xatırlatmaq oxşar əhval-ruhiyyəni alovlandıra və arzuolunmaz xaosa gətirib çıxara bilərdi.

S.Hantinqtonun ideyası ətrafında artıq 10 ildən çoxdur ki, diskussiyalar gedir. Bütün alimlər və siyasətçilər bu ideyalara əsaslanaraq, dünya siyasətində baş verən bir çox prosesləri izah edirlər. Digərləri, əksinə, beynəlxalq münasibətlərin real praktikasının "sivilizasiyaların toqquşması" konsepsiyasının müddəalarına uyğun olmadığını hesab edirlər. Məsələn, Rusiya sivilizasiya kökləri ilə pravoslav olan Gürcüstanla münasibətlərini postsovet dövründə daha çətin qurur, nəinki mahiyyət etibarilə İslam sivilizasiyasına məxsus Azərbaycanla. Rusiya Federasiyası kimi çoxmillətli və çoxdinli dövlətlərdə dini fərqlilik məsələsinin şişirdilməsi, habelə sivilizasiyalararası münaqişələrin qaçılmazlığını iddia etmək stabillik və təhlükəsizlik üçün mənfi nəticələr verə bilər. Amma qloballaşan dünyada müxtəlif mədəniyyət və din nümayəndələrinin bilavasitə qarşılıqlı fəaliyyəti şəraitində mürəkkəb münaqişə

vəziyyətlərinin yaranacağını nəzərə almamaq olmaz. Bütün bunlar Hantinqtonun ideyalarını başa düşməyi və real beynəlxalq münasibətlərin analizində onun rolunu qiymətləndirməyi şərtləndirir.

Beləliklə, Samuel Hantinqtonun "Sivilizasiyaların toqquşması" adlı məqaləsi beynəlxalq siyasi və ictimai dairələrin, o cümlədən siyasət elminin nəzəriyyəsi ilə məşğul olan alimlərin ciddi diskussiyasına səbəb oldu. Bəs S.Hantinqtonun dedikləri doğrudan da yeni fikir idimi? Bu nöqteyi-nəzərdən yanaşsaq, əlbəttə ki, bəşər sivilizasiyasının tarixi inkişaf mərhələlərinə nəzər saldıqda görəcəyik ki, S.Hantinqton yeni bir fikir və ideya irəli sürmürdü. Bu, sadəcə, mövcud olan siyasi, iqtisadi və milli – etnik gerçəkliyin yeni keyfiyyətdə təsviri idi. Və bu siyasi-coğrafi gerçəkliyi Hantinqton öz məqaləsində yeni adlar və yeni politoloji terminlərlə təsvir etdiyinə görə, bu qədər maraq doğurmuşdu. Samuel Hantinqtonun məqaləsində iddia olunur ki, "soyuq müharibə"nin başa çatması ilə beynəlxalq siyasətin inkişafının qərb fazası da tamamlanıb. Tam bu nöqtədə S.Hantinqton sivilizasiyaları Qərb və qeyri-Qərb olmaqla iki cəbhədə qruplaşdırır. O gündən bu vaxta qədər də S.Hantinqtonun bu nəzəri fikirlərinə söykənən diskussiyalar davam edir. Amma hər nə qədər artıq 20 ilə yaxın bir müddətdir ki, bu diskussiyalar davam etsə də, heç kəs Qərblə qeyri-Qərbin sərhədlərini müəyyənləşdirə bilmir.

Beləliklə, yeni mərhələdə rəqabət, qarşıdurma və uzlaşma siyasi-ideoloji müstəvidən dini-etnik münasibətlər sferasına transfer olundu. Hadisələr o qədər sürətlə cərəyan etdi ki, sonrakı mərhələdə infoimperializmin ideoloqları və ideya generatorları bunu vahid imperialist siyasət növü kimi səciyyələndirməyə başladılar. Əlbəttə ki, bu siyasət növünün adını infoimperializm qoymaqla dünyaya hökm etmək olmazdı.

Ona görə də, imperialist güclər burada da əqlin və idrakın üfüqlərini bir daha zorlayaraq yeni institusional ideyaları, xüsusilə də "qlobal dövlət" ideyalarını aktuallaşdırmağa başladılar. Əslində, "qlobal dövlət" ideyası hegemoniya fəlsəfəsinin fonunda tarixin bir çox dövrlərində müxtəlif adlar altında mövcud olmuşdur. Amma tarixin müxtəlif dövrlərində mövcud olmasına baxmayaraq, bu ideya indiki qədər aktual və real olmamışdır. Belə ki, bu gün dünya siyasəti və beynəlxalq münasibətlər sisteminin başlıca meyil və istiqamətlərini müəyyənləşdirən imperialist güc mərkəzləri bu ideyanın gerçəkləşdirilməsi istiqamətində sistematik və kompleks xarakter daşıyan addımlar atırlar və tədrici surətdə müəyyən nailiyyətlər əldə edirlər. Nəticə etibarilə, bəşəriyyətin üzləşdiyi durumun mahiyyəti ondan ibarətdir ki, dünyada vahid imperialist şəbəkə və yaxud şəbəkə hakimiyyəti (netokratiya) formalaşdırılıb ki, bu da "qlobal dövlət" konsepsiyasının tərkib hissəsi kimi səciyyələndirilməlidir.

Bütün bunlarla yanaşı, ən yeni imperializmin və "qlobal dövlət" konsepsiyasının fonunda bu proseslərin substratlarına, institusional əsaslarına və funksionallıq məsələsinə toxunmaq məqsədəmüvafiqdir. Əslində, infoimperializm çərçivəsində idarəetmə aparatı kimi istifadə olunan institusional qurum məhz milli dövlətlərdir. Çünki milli dövlət real sosial-siyasi təsisat olmaq etibarilə başlıca idarəetmə aparatıdır. Elə ilkin idarəetmə institutları deyəndə də milli dövlətlər nəzərdə tutulmuşdur. Nəticə etibarilə, "Mondializm" və "Qlobal dövlət" konsepsiyasında da milli dövlətlər "qlobal dövlət"in dayağı və yaxud institusional substratı kimi səciyyələndirilir. Bunun üçün milli dövlətlərin gücünün və səlahiyyətlərinin məhdudlaşdırılması nəzərdə tutulur. Beləliklə, milli dövlətlərin maraqlarına və əsaslarına transmilli korporativ mənafelər

əsasında müdaxilə edilir ki, bu da dövlətin “millilik” xüsusiyyətinin sıradan çıxmasını şərtləndirir. Artıq milli dövlət xalqın və millətin maraqlarını özündə təcəssüm etdirən və reallaşdıran ictimai-siyasi təsisat olmaq xüsusiyyətini itirir. Eyni zamanda, zaman keçdikcə milli dövlətlər beynəlxalq münasibətlər sisteminin təməl aktoru statusundan məhrum olmağa başlayırlar.

Əlbəttə ki, infoimperializm çərçivəsində milli dövlətlərə müəyyən rol, funksiya və səlahiyyətlərin verilməsi nəzərdə tutulmuşdur. Hazırki şəraitdə bunun bir sıra praktik nümunələri mövcuddur. Ən yeni mərhələdə milli dövlətlərə özlərinin tarixi inzibati-siyasi sərhədləri çərçivəsində asayiş qoruyucusu funksiyası verilməsi nəzərdə tutulub. Qeyd etmək lazımdır ki, II Dünya müharibəsidən sonra təşəkkül tapmış mədəni imperializm çərçivəsində milli dövlətlər müstəmləkə kimi mədəni-ideoloji vasitələrlə istismar edilirdi. Bu zaman daha çox formal institusional vasitələrdən istifadə olunurdu. Belə olan təqdirdə, ortaya məhz bu cür sual çıxır: o zaman milli dövlətlər mədəni-ideoloji vasitələrlə istismar olunurdu, bəs ən yeni imperializmin yaradılmasına nə ehtiyac var idi? Artıq bu suala münasibətdə fikirlərimizi və analitik qənaətlərimizi ifadə etmişik. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra xalqların milli özünüdərki və həmrəyliyi daha da gücləndiyindən mədəni imperializm əvvəlki qədər effektli olmadı. Məlum olduğu kimi, həmin dövrə qədər imperialist mərkəzlər hakimiyyətə gətirməklə özlərinin transmilli səciyyəli korporativ maraqlarını ayrı-ayrı ölkələrdə öz mədəni oxşarlarını (identiklərini) yetişdirib təmin etməyə çalışırdılar. Ancaq qeyd etdiyimiz kimi, XX əsrin 50-60-cı illərindən başlayan milli intibah bəhs olunan imperialist siyasətin əsaslarını sarsıtdı və ən yeni imperializmin meydana

çıxmasını şərtləndirən faktor qismində çıxış etdi. Eyni zamanda, yeni texniki vasitələrin meydana çıxması, texniki tərəqqinin müşahidə olunması, kibertexnologiyaların sürətlə inkişaf etməsi infoimperializmin yaranmasına təkan vermiş oldu.

Qeyd etdik ki, yeni infoimperializm arasında milli dövlətlər "polis", asayiş qoruyucusu funksiyasını icra edəcəklər. Buna baxmayaraq, milli dövlətlərin intibahı və öz funksionallığını bərpa etməsi ehtimalı da mövcuddur. Bu isə "Mondializm" və "Qlobal dövlət" konsepsiyalarına ziddir. Ona görə də, ən yeni imperializm çərçivəsində müəyyən edilmiş başlıca məqsədlərdən biri də milli dövlətlərin yerləşdiyi inzibati-coğrafi sərhədlər daxilində idarəedilən xaosun yaradılmasıdır. Bu kontekstdə biz idarəetmə və ideoloji əsasları, struktur elementləri müəyyənləşdirilmiş "İraq modeli"ni müşahidə edirik. Məlum olduğu kimi, 2003-cü ilin mart ayında imperialist güc mərkəzləri İraqa hərbi müdaxilə etdilər, hakimiyyəti devirəndən sonra isə infoimperializmin əsaslarına söykənən bəhs etdiyimiz modeli yaratdılar. Başqa sözlə, İraqın bir milli dövlət kimi öz sərhədləri daxilində mövcudluğu qorundu, amma bu dövlətin idarəetməsi və strukturunda ciddi funksional dəyişikliklər edildi. Bəhs olunan ölkə daxilində bir-birinə münasibətdə fərqli mövqe və qütblərdə yer alan qruplar formalaşdırıldı. Əlbəttə ki, burada başlıca məqsəd həmin inzibati-siyasi sərhədlər daxilində nəzarət və idarəetməni əldə saxlamaq, eyni zamanda, fərqli xüsusiyyət və keyfiyyətlərə malik olan toplumların formalaşmasına nail olmaq idi. Qeyd etmək lazımdır ki, "qlobal dövlət" daxilində sosial-iqtisadi, intellektual, dini-etnik, məzhəb və digər əlamətlərə görə bir-birindən fərqlənən stratifikasiyaların yaradılmasına nail olmaq xüsusi strateji məqsəd qismində çıxış edir. Bu, identiklik faktorunun sıradan çıxarılması missiyasını təmin etməklə yanaşı,

həm də infoimperialistlərin idarəetmə əsaslarının möhkəmlənməsinə xidmət edir. Biz bu model və strategiyanın praktik nümunələrini Yaxın Şərq və Şimali Afrika geosiyasi məkanında müşahidə edə bilərik.

Beləliklə, sadalananların fonunda qeyd edə bilərik ki, bəhs olunan proseslər kontekstində müasir beynəlxalq münasibətlər sisteminin təməl aktorları qismində çıxış edən milli dövlətlərin qarşısında bir sıra strateji vəzifələr durur. Bu vəzifələrin başında, heç şübhəsiz, "qlobal dövlət"in institusional subyektinə çevrilməkdən xilas olmaq və öz funksionallıqlarını bərpa etmək missiyası gəlir. Əlbəttə ki, milli dövlətlərin "qlobal dövlət"in institusional subyektinə çevrilməsi prosesi uzun müddət davam edəcək. Onu da qeyd etmək lazımdır ki, modern milli dövlətlər iqtisadi, siyasi, hərbi və intellektual nöqteyi-nəzərdən bu prosesin qarşısını almaq iqtidarında deyillər. Bəhs olunan qlobal proses Yaxın Şərq və Şimali Afrikadan digər siyasi coğrafiyalara da transfer olunacaq. Perspektivdə bu prosesləri Cənub-Şərqi Asiya, Şərqi Avropa və Mərkəzi Asiyada da müşahidə etmək mümkün ola bilər. Amma prosesi müəyyən qədər zəiflətmək vələngitmək də olar. Əlbəttə ki, bu milli dövlətlərin və xalqların sistemli və kollektiv mübarizəsi ilə mümkün ola bilər. Ancaq vurğulanması zəruri olan strateji məqam budur ki, xalqların və milli dövlətlərin mübarizəsi sırf institusional və intellektual müstəvidə kreativ əsaslar da olmalıdır.

*II FƏSİL*

# Qlobal informasiya cəmiyyəti və yeni tipli mədəniyyət növü-infokultura

## 2.1. İnformasiya cəmiyyəti yeni sosium növü kimi

Müasir dövrdə beynəlxalq leksikonda ən çox istifadə və istinad edilən anlayışlardan biri də informasiya cəmiyyəti kateqoriyasıdır. Bir çox nəzəri-konseptual mənbələrdə informasiya cəmiyyəti spesifik sosium növü kimi səciyyələndirilir və bir sıra modern xarakteristik xüsusiyyət və keyfiyyətlərin məcmusu kimi təsvir edilir. Klassik mənada informasiya cəmiyyəti dedikdə elə bir sosium növü nəzərdə tutulur ki, burada əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın, ən əsası isə, onun ali forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur. Digər mənada, informasiya cəmiyyəti gündəlik elmi və ya işgüzar ünsiyyət də daxil olmaqla bir çox sahə və istiqamətlərdə modern informasiya texnologiyalarına istinad etməklə informasiya dövriyyəsinin təşkil olunduğu sosium növü kimi səciyyələndirilir.

Bəzi nəzəri-konseptual mənbələrdə və araşdırmalarda əks olunur ki, informasiya cəmiyyəti postsənaye sosiumunun konsepsiyasıdır. Eyni zamanda, bu sosium növü istehsalatın əsas məhsulunu informasiya və bilik təşkil edən sivilizasiyanın inkişafının yeni tarixi fazasıdır. Məhz bu baxımdan qeyd olunmalıdır ki, informasiya cəmiyyətinə xas olan münasibətlər informasiyalaşdırma prosesinin uğurla başa çatdırılması nəticəsində təşəkkül tapır və davamlılıq əldə etmiş olur.

Qeyd etmək lazımdır ki, informasiya cəmiyyəti bir çox fundamental xüsusiyyətləri ilə digər sosium növlərindən fərqlənir. Belə ki,  bu növ sosiumda cəmiyyətin həyatında informasiya və biliyin rolunun artması, daxili məhsulların axınında informasiya kommunikasiyalarının, məhsullarının və xidmətlərinin payının artması təməl statik xüsusiyyətlər kimi səciyyələndirilir, eyni zamanda, insanların effektiv (bir o qədər də rasional) qarşılıqlı informasiya əlaqələrini, dünya informasiya resurslarına müraciətlərini təmin edən və onların informasiya məhsullarına və xidmətlərinə olan tələbatlarını təmin edən qlobal informasiya fəzasının yaradılması müşahidə olunur.

Bütün bunlarla yanaşı, bir sıra araşdırmalarda və nəzəri mənbələrdə informasiya cəmiyyətinin üstünlüklərinə aşağıdakılar aid edilir:

– infososiumda informasiya böhranı aradan qalxır, informasiya axını və informasiya "aclığı" arasındakı ziddiyyət həll olunur;

– informasiyanın başqa resurslardan üstünlüyü təmin edilmiş olur;

– bütün bəşəri sivilizasiya üçün qlobal informasiya mühiti yaranır;

– informasiya və kommunikasiya texnologiyalarından istifadə kütləvi hal alır, sosial və iqtisadi fəaliyyətin yeni formaları yaranır;

– informasiya əmtəəyə çevrilir, informasiya və bilik bazarı yaradılır və inkişaf edir;

– inkişafın əsas forması kimi informasiya iqtisadiyyatı formalaşır;

– İKT vasitəsilə hər bir insanın, bütün sivilizasiyaların informasiya resurslarına sərbəst çıxışı təmin edilir;

– təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsinə mühüm şərait yaranır.

Amma bütün bunlarla yanaşı, informasiya cəmiyyətində bir sıra potensial təhlükə və təhdid mənbələri, meyilləri də mövcud olur. Belə ki, "xam maddə" səciyyəsi daşıyan informasiyadan media institutları-kütləvi informasiya vasitələri ən müxtəlif məqsədlər naminə fərqli formalarda istifadə edirlər və bu amil ictimai rəyin formalaşması və istiqamətləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu sırada qeyd olunmalıdır ki, modern informasiya cəmiyyətlərində media institutlarının informasiyadan siyasi manipulyasiya məqsədilə istifadə etmələri, demək olar ki, qanunauyğun hala çevrilib. Məhz buna görə də, potensial olaraq informasiya cəmiyyətinin ən aşkar təhdid faktoru qismində informasiyadan siyasi manipulyasiya məqsədilə istifadə olunması çıxış edir.

Bütün bunların fonunda meydana çıxan sual budur ki, informasiya cəmiyyəti hansı substratlar üzərində təşəkkül tapır və infososiumun formalaşması təbii prosesdir, yoxsa konkret qüvvələr bunu strateji detallar, maraqlar və məqsədlər əsasında formalaşdırır?

Beləliklə, bu suallara cavab vermək üçün bir-birilə sistematik surətdə bağlı olan bir sıra kompleks məsələlərə toxunmaq məqsədəmüvafiqdir. İlk növbədə, qeyd edilməlidir ki, XXI əsr modern informasiya cəmiyyətinin fonunda müasir beynəlxalq münasibətlər sistemində milli dövlətlərin yeri və rolunu müəyyənləşdirən mühüm amillərdən birini də informasiya axınına nəzarət etmək imkanları təşkil edir. 1969-1975-ci illərdə ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmiş, 1973-1977-ci illərdə isə ABŞ-ın Dövlət katibi olmuş Henri Kissincer bildirir ki, müasir

dövrdə informasiya axınına nəzarət edən güclər dünyaya nəzarət etmək imkanlarına sahib olurlar ki, bu da yeni növ hegemoniyanın-informasiya dominantlığının meydana çıxmasını şərtləndirir. Belə ki, hazırki dövrdə infokratlar başlıca resurs və silah qismində informasiyadan istifadə edirlər. Başqa sözlə, netokratların hakimiyyət resursunu informasiya təşkil edir və bu, qlobal hegemoniya sistemində "yumşaq güc" mexanizmi səciyyəsi daşıyır. Eyni zamanda, bu, yeni növ idarəetmə sisteminin və "informasiya elitası"nın meydana çıxmasını şərtləndirir. Sözügedən "informasiya elitası" isə dünyanı vahid mərkəzdən idarə etmək naminə qlobal informasiya şəbəkəsinin sərhədlərini genişləndirmək üçün mütəmadi fəaliyyət mexanizmi formalaşdırır.

Nəticə etibarilə, infososium da ən yeni imperializmin fəaliyyət mexanizminin fonunda xüsusi əhəmiyyət kəsb edir. İnfososium kontekstində, ilk növbədə, informasiya axınına nəzarət edilir, dünya siyasəti və beynəlxalq münasibətlər sistemində əsas tendensiya və meyillərinin formalaşdırılmasının, həmçinin, istiqamətləndirilməsinin informativ əsasları yaradılmış olur, eyni zamanda, milli dövlətlərə yönəlik yeni və daha effektiv təsir mexanizmləri formalaşdırılır. Bütün bunlar isə infoimperializmin transmilli səciyyəli məqsədlərinin təmin olunması istiqamətində əhəmiyyətli strateji resurs qismində çıxış edir.

### 2.2. İnfoidentiklik milli-etnik identikliyi neytrallaşdıran faktor kimi. Milli-etnik sosial piramidadan homogen infokulturoloji sosial piramidaya doğru

Bəşəriyyət tarixində qəbilə və tayfalar, daha sonra isə xalqlar və millətlər müxtəlif dini, etnik, mədəni və s. kimi

faktorlarla müvafiq şəkildə identifikasiya olunmaqla vahid komponenti təşkil etmişlər. Belə ki, qədim zamanlardan qəbilələri, tayfaları və xalqları formalaşdıran, birləşdirən ayrı-ayrı fərdlər öz bənzərlərini tapmaqla, onlarla həmrəy olmaqla, eyni maraqlar və tələbatlar əsasında assosiasiya olunmaqla vahid institusional struktur yaratmışlar. Beləliklə, ilkin mərhələdə insanlar etnik və dini faktorlar, xalqlararası yeni iqtisadi münasibətlərin formalaşmağa başladığı sonrakı dönəmdə isə sosial, siyasi və ideoloji amillər əsasında identifikasiya olunmuşlar.

Xalqlararası yeni münasibətlərin meydana çıxdığı mərhələdə isə ideologiyalar və siyasi həmrəylik amili xalqların həyatında, ən azı, milli, etnik amillər qədər təsirli və əhəmiyyətli olmuşdur. Bununla da millətlərin formalaşması dönəmində milli, etnik kimlik axtarışları məhdudlaşmış, beləliklə də, ən müxtəlif etnik, mədəni kökdən gələn ayrı-ayrı ünsürlər vahid siyasi birlik içində zaman-zaman assimilyasiya olunmaqla öz etnik kökündən qopmuş və müasir millətlərin formalaşmasında iştirak etmişlər. Sonrakı mərhələdə isə bu prosesdə iştirak etmiş ayrı-ayrı etnik ünsürlər məhz həmin xalqın etnogenezində iştirak etmiş etnik qruplar kimi səciyyələndirilmişlər. Bəşəriyyətin bu inkişaf mərhələsi orta əsrlərdə kapitalizmin inkişafı ilə özünün kulminasiya nöqtəsinə çatıb. XX əsrdə isə bəhs olunan proses demək olar ki, yekunlaşıb. Bəşəriyyətin intellektual potensialının artması, ayrı-ayrı etnik qrupların tarixinə daha çox maraq göstərilməsi, eyni zamanda, millətlərin tarixinin elmi şəkildə öyrənilməsi XX əsrdə bu prosesi tormozlamağa başlayıb. Yəni əgər artıq ilkin və son orta əsrlərə qədər davam edən mərhələdə etnik ünsürlər bu və ya digər səbəblərdən assimilyasiya olunaraq itirdisə, XX əsrdən sonra bunun qarşısı alınıb. Beləliklə, bu gün dünyada

2000-dən çox xalq, etnik qrup və millət yaşayır. Bu, müasir dövrün milli-etnik rəsmidir.

Lakin XXI əsrdə bəşəriyyət öz inkişaf tarixinin keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Bu mərhələdə mədəni, ideoloji, sosial və siyasi müstəvidə proqnozlaşdırılması olduqca çətin olan yeni proseslər cərəyan etməyə başladı. Yeni münasibətlər daha çox informasiya resursları əsasında formalaşdı, proseslərin əsasında informasiya vasitəsilə idarəetmə durmağa başladı. Yeni informasiya texnologiyalarının meydana çıxması, bir çox proseslər və münasibətlərin virtual platformaya transfer olunması idarəetmənin istər cəmiyyətdaxili, istərsə də qlobal miqyasda informasiya resursları vasitəsilə həyata keçirilməsini şərtləndirmiş oldu. Beləliklə, bu və ya digər cəmiyyətdə mədəni, siyasi, sosial, hüquqi, iqtisadi, ideoloji münasibətlər yeni xarakter almağa başladı. Bu isə sosiumun daxilində yeni sosial piramidanın, daha da dəqiqləşdirsək, əsasını informasiyanın təşkil etdiyi iyerarxiyanın formalaşmasına səbəb oldu. Bu piramidanın fonunda sosiumdaxili klassik, ənənəvi münasibətlər arxa plana keçməyə başladı, idarəedilən informasiya sosial münasibətlər və prosesləri formalaşdıran, insanların fəaliyyət mexanizminin əsasını təşkil edən resurs kimi çıxış etməyə başladı.

Bütün bu sadaladıqlarımız insanların təfəkkürünə ciddi təsir göstərmiş oldu. Əgər klassik mənada insanların təfəkkürünə, düşüncə və davranışına təsir edən başlıca faktor din, millət məfhumu və ideologiya idisə, artıq yeni münasibətlər kontekstində informasiya insan təfəkkürünün əsas istinad elementinə çevrildi. Buradan da belə bir nəticə hasil etmək olur ki, əgər şəxsiyyətin formalaşmasına bilavasitə təsir edən 6 əsas faktor vardırsa, postmodern cəmiyyətlərdə informasiya şəxsiyyətin formalaşmasını şərtləndirən 7-ci komponent mey-

dana çıxmış oldu. Yaxud şəxsiyyəti formalaşdıran biogen, psixogen və sosiogen elementlərə yeni bir aparıcı element – infogen (H.B.) elementi də daxil oldu. Bu element şəxsiyyətin həyatına bir qədər gec, yəni 5, 7 yaşlarından başlayaraq daxil olsa da, qısa müddət sonra biogen, psixogen, sosiogen elementlər üzərində dominantlıq etməyə başlayır. Əlbəttə ki, informasiya bu və ya digər səviyyədə qeyd etdiyimiz 6 komponentə aid edilə bilər. Amma hazırki mərhələdə informasiya şəxsiyyətin formalaşmasında yardımçı yox, əsas element qismində səciyyələndirilir. Bununla bərabər, digər faktorlar bir-birilərindən asılı olsalar da, informasiya amili qeyri-asılı faktor, müstəqil komponent kimi çıxış edir.

İnformasiya resurslarının şəxsiyyətin yetişməsinə, onun dünyagörüşünün formalaşmasına bilavasitə təsir etməsini, eyni zamanda, informasiyanın digər 6 komponentə birbaşa təsir göstərməsini sübut etmək üçün belə bir nümunəyə istinad edə bilərik. Məsələn, Cənub-şərqi Asiyada mühafizəkar bir ailədə yetişən gənclə, tutaq ki, Avstraliya, Böyük Britaniya və ya Azərbaycanda yenə də konservativ bir ailənin nümayəndəsi olan şəxs eyni informasiya mənbələrindən yararlanır və aldıqları informasiya əsasında hərəkət edirlərsə, deməli, hər iki fərdin şəxsiyyət kimi formalaşmasında aldıqları informasiya aparıcı komponent kimi çıxış edir. Beləliklə, məkan faktorundan asılı olmayaraq, hər iki şəxsin dünyagörüşündə eyniyyət əmələ gəlir, infoidentiklik formalaşır. Dolayısıyla, informasiyanın dominantlığı altında bir ailədə tərbiyə alan iki şəxs bir-biri ilə bioloji qardaş olsa da, şəxsiyyət kimi daha çox eyni informasiyadan qidalanan britaniyalı ilə qardaşdır. Nəticə etibarilə, bununla da informasiya ilə idarə edilən yeni insan tipinin-homoinformatikusun (H.B.) meydana çıxması müşahidə olunur. Bu tipi təmsil edən insanlar bir-birilərindən

dini, milli-etnik kimliklərinə, ideologiyalarına görə yox, sırf informasiyaya və bu resurs əsasında formalaşmış təfəkkürlərinə görə fərqlənirlər və yaxud bir-birilərilə eyniyyət təşkil edirlər.

Dolayısıyla, informasiya əsri kimi səciyyələndirilən XXI yüzillikdə milli, etnik, dini köklərdən uzaqlaşma baş verir, yeni assosiasiya formalaşır. Artıq informasiya ilə idarə edilən insanlar yaşadıqları sosiumun yox, qlobal informasiya cəmiyyətinin nümayəndəsi kimi çıxış edirlər. Bu şəxsləri infoidentik (H.B.) ümumdünya vətəndaşı kimi səciyyələndirmək daha məqbul olar.

Əlbəttə, bəhs olunan infomühit ayrı-ayrı xalqlar və bütövlükdə bəşəriyyət üçün məqbul hesab oluna bilməz. Çünki infoidentiklik və homogen infokulturoloji piramida panideyaçı milli aktorların-hegemon güc mərkəzlərinin strateji maraqlarına xidmət edir, bu isə milli dövlətlərin strateji səciyyə daşıyan dövlətçilik mənafeyinə zidd hal kimi səciyyələndirilir. Qlobal informasiya məkanının hakimləri qismində çıxış edən hegemon güclərin-panideyaçı dövlətlərin formalaşdırdığı bu düzənin məhsulu olan homoinformatikus modern insan təəssüratı bağışlasa da, əslində, informasiya ilə idarə edilən subyektdir.

Bildiyimiz kimi, fərdlərin məcmusu olan hər bir cəmiyyət ayrı-ayrı yarımsistemlərdən, ictimai institutlardan və sosial stratifikasiyalardan ibarətdir. Fərdlərin qarşılıqlı fəaliyyəti, onların icra etdikləri rola müvafiq surətdə əldə olunmuş statusları, sosial institutların funksionallığı, yarımsistemlərin statik və dinamik durumları sosium daxilində müəyyən piramidanın formalaşmasını şərtləndirir. Əlbəttə, sosiumun nümayəndələri olan şəxslər özlərinin fərdi xüsusiyyətlərinə, fəaliyyət mexanizmlərinin əsaslarına və istiqamətlərinə, sosi-

al rol və statuslarına görə bir-birilərindən fərqlənirlər. Nəticə etibarilə, iyerarxiya əsasında formalaşmış sosial piramidanın meydana çıxması zəruri olur.

Amma modern informasiya texnologiyalarının hər bir şəxsin həyatına sirayət və təsir etdiyi XXI yüzillikdə cəmiyyətin sosial strukturunda əsaslı dəyişikliklər baş verir və klassik cəmiyyət modelindən infososiuma (informasiya cəmiyyəti) transformasiya baş tutur. Belə olan halda, ənənəvi stratifikasiyanın strukturunda dəyişikliklər baş verir, klassik sosial piramida sıradan çıxmağa başlayır. Bunun fonunda bir-birindən informativ dünyagörüşünə görə fərqlənən şəxslərin formalaşdırdığı infokulturoloji piramida meydana çıxır. Beləliklə, infososiumda yeni stratifikasiya meydana çıxır, fərdin davranışı, mövqeyi və şəxsiyyət kimi formalaşmasında informasiya komponenti aparıcı faktor kimi çıxış edir. Əhəmiyyətlisi budur ki, informasiya infososium daxilində yeni dəyərlər formalaşdırır. Bu dəyərlər isə klassik anlamda milli həmrəylik və bütövlüyü təmin edən mənəvi dəyərlər kimi səciyyələndirilə bilməz. Beləliklə də, eyni cəmiyyətdə yaşayan fərdlər fərqli informasiya mənbələrindən yararlandıqları halda onlar arasında vətəndaşlıqdan başqa heç bir ortaq dəyər qalmır.

Nəticə etibarilə, infoidentiklik və homogen infokulturoloji piramida əsasında təşəkkül tapmış yeni cəmiyyət xaotik səciyyə daşıyır və disfunksionallığı şərtləndirir. Belə olan təqdirdə, infoidentiklik və homogen infokulturoloji piramida qlobal sosiumu formalaşdırır, ayrı-ayrı cəmiyyətlər isə bu sistemin tərkib elementi olaraq yarımsistem kimi çıxış edir. Ən dəhşətlisi isə elə bundan sonra baş verir! Qlobal informasiya məkanına hakim olan imperialist güclər yeni infososiumu informasiya ilə istədikləri istiqamətə yönləndirə bilirlər. Beləliklə də, informasiya ilə idarə olunan subyektlər onların şüur-

altı hafizələrinə ötürülən manipulyativ impulslarla kütləvi qeyri-şüuri davranış sərgiləyirlər. Kütləvi qeyri-şüuri davranışda əql və məntiq iştirak etmədiyi üçün subyekt qəbul etdiyi informasiyanın diktəsi ilə hərəkətə keçir. Nəticədə isə bu gün dəbdə olan ifadə ilə desək, "ərəb baharı" alınır. Qeyd etmək lazımdır ki, infoimperialistlər "Böyük Yaxın Şərq və Şimali Afrika" layihəsi çərçivəsində qurduqları yeni imperiya siyasətini həyata keçirərkən, məhz bu qlobal informasiya silahından istifadə edirlər. Bu "silahın" nə qədər dəhşətli olduğu isə göz qabağındadır.

## III FƏSİL

# Media institutu qlobal infoimperializm kontekstində: mediakratiya, transmilli media strukturlarının fəaliyyət mexanizmi və qlobal media imperatorluğu

### 3.1. Media institutu: mahiyyəti, spesifikası və onun institusional funksionallıq məsələsi

XXI yüzillik informasiya əsri kimi səciyyələndirilir. İnfoimperializmin fonunda modern və postmodern cəmiyyətlərdə informasiya başlıca idarəetmə vasitəsi kimi təsbit edildiyindən informasiya subyektləri kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirir ki, bu da mütəmadi surətdə informasiya resurslarının artırılmasını və təkmilləşdirilməsini şərtləndirən faktor qismində çıxış edir. Xüsusi mübadilə və idarəetmə vasitəsi səciyyəsi daşıyan informasiya resurslarından səmərəli surətdə istifadə edilməsi üçün daim yeni mexanizmlər və texnologiyalara istinad edilir. Amma informasiya resurslarının idarə edilməsi və informasiya siyasətinin həyata keçirilməsi üçün klassik vasitə qismində media təsisatı çıxış edir.

Media təsisatı modern cəmiyyətlərdə başlıca məlumat mübadiləsi vasitəsi səciyyəsi daşıyır. Müasir dövrün qanunauyğunluqlarına və reallıqlarına müvafiq surətdə kütləvi informasiya vasitələri yerinə yetirdiyi funksiyalar etibarilə ictimai

rəyi formalaşdıran, istiqamətləndirən, milli münasibətlər zəminində ideoloji substratların təşəkkül tapmasını təmin edən və mənəvi-ideoloji müstəvidə dinamikliyi şərtləndirən təsisat kimi səciyyələndirilir. Məhz buna görə də, politoloji leksikonda kütləvi informasiya vasitələri hakimiyyətin dördüncü qolu adlandırılır. Bu baxımdan, kommunikasiya vasitəsi kimi media təsisatından səmərəli surətdə istifadə edilməsi strateji önəm kəsb edən fundamental vəzifə qismində dəyərləndirilir.

Amma müasir dövrdə dialektik, bir o qədər də ahəngdar və ziddiyətli proseslərin fonunda media təsisatından yararlanmaqla informasiya resurslarından dinamik maraqlara müvafiq surətdə istifadə edilir. Xüsusilə də, strateji səciyyəli dəyişkən və diversifikasiya olunmuş siyasi maraqların fonunda kütləvi informasiya vasitələrindən bir neçə istiqamətdə istifadə edilir. Bir sıra media təsisatları ilk növbədə milli və dövlətçilik maraqlarını nəzərə alaraq, məlumatlandırma, maarifləndirmə, səfərbəretmə, inteqrasiya, nəzarət və sosiallaşma kimi funksiyaları yerinə yetirərək, cəmiyyəti obyektiv informasiya ilə təmin edir və sağlam ictimai rəy formalaşdırılması işinə mühüm töhfələr bəxş edir. Ancaq sosiumun bütövlüyü və ahəngdar inkişafı prinsipinə məhəl qoymayaraq, məhdud dairələri əhatə edən korporativ maraqlar əsasında fəaliyyət göstərən media təsisatları öz funksiyalarından siyasi manipulyasiya vasitəsi kimi istifadə edir və ictimai rəyi konkret qrup mənafeyi əsasında formalaşdırmağa çalışırlar.

Ümumiyyətlə, siyasi manipulyasiya media institutlarının ən çox istinad və istifadə etdiyi metoddur. Elmi ədəbiyyatda siyasi manipulyasiya şüurun gizli surətdə idarə edilməsi metodu kimi təsvir edilir. Bunun fonunda siyasi manipulyasiyanın iki başlıca forması (modeli) fərqləndirilir. Bunlardan birincisi, sensitiv modeldir. Manipulyasiyanın sensitiv modeli

dedikdə, obyekt kimi seçilən qruplara qarşı müxtəlif stimul mexanizmlərindən istifadə edilməsi və müvafiq reaksiyanın alınması nəzərdə tutulur. Nəticə etibarilə, müvafiq reaksiyaların alınması ilə sosial obyektlərin şüuru idarə olunur və yönləndirmə mexanizminin işləkliyi təmin edilir. Manipulyasiyanın rasional modelində daha çox aldadıcı informasiya resurslarından istifadə edilir. Ya tamamilə qara piar səciyyəli yalan məlumatlardan istifadə edilir, ya da doğru informasiyaların təhrif olunması ilə şüur manipulyasiya edilir. Rasional manipulyasiya metodunun struktur komponentlərinə bunlar aiddir:

– informasiyaların konkret maraqlara müvafiq surətdə təhrif edilməsi;

– informasiyanın qərəzli və yönləndirici detallarla doldurulması;

– rasional nəticəyə gəlməyə imkan verən informasiya elementlərinin sıradan çıxarılması və məlumata faktları pərdələyən komponentlərin daxil edilməsi və s.

Beləliklə, də ümumiləşmiş formada aşağıdakı fikri ifadə edə bilərik, media təsisatı ondan istifadə üsulu və səviyyəsinə görə faydalıdır. Əminliklə ifadə etmək olar ki, kütləvi informasiya vasitələrindən səmərəli surətdə istifadə etməklə cəmiyyətdə  həmrəylik, bütövlük yaratmaq, sağlam ictimai rəy formalaşdırmaq və milli zəmində rasional münasibətlər sisteminin əsasını qoymaq, onun davamlılığını təmin etmək olar. Bunun üçün sadəcə informasiya resurslarından milli maraqlara müvafiq surətdə istifadə etmək lazımdır. Çünki media təsisatı olduqca əhəmiyyətli funksiyalar yerinə yetirən mexanizmdir. Bunu əsaslandırmaq üçün sadəcə bu institutunun yerinə yetirdiyi funksiyalara nəzər yetirmək lazımdır.

1. Kütləvi informasiya vasitələrinin ilk funksiyası məlumatlandırmadır. Media təsisatlarının fəaliyyətinin təməl prin-

sipini mövcud faktlar, informasiya resursları əsasında cəmiyyətin məlumatlandırılması təşkil edir. Bu zaman milli maraqlara müvafiq surətdə cəmiyyətdə funksionallıq və dinamikliyi təmin etmək, ictimai rəyi sağlam əsaslarla formalaşdırmaq və istiqamətləndirmək üçün obyektiv informasiyanın sosial obyektlərə çatdırılması strateji önəm kəsb edir.

2. KİV-in növbəti funksiyası maarifləndirmədir (bəzi ədəbiyyatlarda bunu təhsil funksiyası da adlandırırlar). Maarifləndirmənin bazisini məlumatlandırma təşkil edir və bu funksiya intellektual potensialın formalaşdırılması və zənginləşdirilməsi məramına xidmət edir. Maarifləndirmə funksiyası tam, dəqiq və relevant informasiyanın zamana və situasiyaya müvafiq surətdə çatdırılması sayəsində ictimai faydalı olur.

3. Medianın inteqrasiya funksiyası dedikdə, informasiya resurslarından istifadə etməklə sosial qrupların həmrəyliyinin və ahəngdarlığının təmin edilməsi, sosiumda inteqrasiya meyillərinin gücləndirilməsi, sosial divergensiya tendensiyalarının neytrallaşdırılması və s. nəzərdə tutulur. İnteqrasiya relevant və obyektiv informasiya resurslarından istifadə etməklə təmin edilir və dinamik səciyyə daşıyır.

4. Səfərbəretmə funksiyası informasiya resurslarından və kommunikasiya texnologiyalarından istifadə etməklə sosial aktorların müəyyən məsələ ətrafında cəmləşməsini təmin etməklə yanaşı, milli həmrəylik və bütövlüyün yaranmasını şərtləndirir. Milli maraqlara müvafiq surətdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin bu funksiyası milli münasibətlər zəminində birləşdirici, təşkiledici başlanğıc səciyyəsi daşıyır. Məhz buna görə də, kütləvi informasiya vasitələrinin bu funksiyası strateji önəm kəsb edən amil kimi dəyərləndirilir.

5. Sosiallaşdırma funksiyası fərdlərin və qrupların sosial norma və dəyərləri mənimsəməsi, möhkəmləndirməsi missiyasına xidmət edir və sosial aktivliyin şərtləndirici faktoru kimi çıxış edir. Kütləvi informasiya vasitələrinin cəmiyyətə təqdim etdiyi relevant məlumatlar informasiya qəbuledicilərində ümumi rəy formalaşdırır və bu rəy həmin aktorları müəyyən hərəkətlərə, fəaliyyətə sövq edir. Bunun nəticəsində fəaliyyətdə olan fərdlər müəyyən normaları və dəyərləri mənimsəməklə sosial-siyasi proseslərin aktoru qismində təmsil oluna bilirlər və s.

Nəticə etibarilə, yerinə yetirdiyi funksiyalar etibarilə media institutu cəmiyyətdə ideoloji, mənəvi həmrəyliyin substansional təminatçısı kimi çıxış etmək potensialına sahibdir. Sadəcə olaraq, bu təsisatdan zamana və situasiyaya müvafiq surətdə milli maraqlar əsasında istifadə etmək lazımdır. Məhz bu zaman kütləvi informasiya vasitələri ictimai faydalı mexanizm səciyyəsi daşıyar.

## 3.2. Modern informasiya cəmiyyətində media təsisatı və milli maraqlar

Hər bir xalqın milli mətbuatı daima milli və dövlət maraqlarına xidmət etməlidir. Əlbəttə ki, mətbuatın başlıca funksiyası cəmiyyəti obyektiv, tərəfsiz və qərəzsiz informasiya ilə təmin etməkdir. Bəhs olunan prinsip yalnız o hallarda pozula bilər ki, ortada ümumi ictimai, milli və dövlətçilik maraqları olsun. Belə hallarda, ümumxalq maraqları naminə müəyyən məsələlərdə zərərli informasiyaları cəmiyyətin ali mənafeyinə uyğun şəkildə təqdim etmək olar. Amma bundan başqa, heç bir halda jurnalist öz prinsipiallığını heç bir siyasi qrupun maraqlarına və maraqlı xarici dairələrin tələblərinə və

onların istəklərinə güzəştə getməməlidir. Yalnız bu halda mətbuatın milli inkişaf strategiyasına xidmət edən ideoloji institut kimi fəaliyyət mexanizminin səmərəlilik səviyyəsini artırmaq mümkündür.

Əlbəttə ki, Azərbaycan mətbuatının zəngin tarixi ənənələri mövcuddur. Mərhələli surətdə formalaşmış milli mətbuat ənənələrimiz bu gün də mütəmadi surətdə təkmilləşməkdədir... Amma təəssüf ki, hazırki dövrdə bəzi hallarda ayrı-ayrı media nümayəndələrinin fəaliyyətlərində bu prinsipiallıqdan sapmalar, deviasiya meyilləri müşahidə olunur. Nəzərə almaq lazımdır ki, XXI yüzillik informasiya əsridir və bu əsrdə heç bir güc strukturunun, diplomatiyanın, hərbi sənaye komplekslərinin görə bilmədiyi iş informasiya resursları vasitəsilə görülür. Bu da aydındır ki, hazırda yenidən formalaşdırılan dünyanın geosiyasi xəritəsində məhz informasiya silahının böyük rolu vardır. Beləliklə, informasiya əsri adlandırdığımız XXI əsrdə mətbuatın, informasiya ötürücülərinin, media nümayəndələrinin üzərinə daha artıq məsuliyyət düşür. Qeyd etmək lazımdır ki, bu, tarixi səciyyəli məsuliyyətdir. Ona görə də, jurnalistlər, media ictimaiyyəti bunu dərk etməli, fəaliyyətini də buna uyğun surətdə düzənləməlidir. Marginal maraqlara, bəzi hallarda təzahür edən siyasi ambisiyalara görə milli maraqlardan vaz keçilməməlidir.

Anlaşılandır ki, hər bir vətəndaşın cəmiyyətdə siyasi mövqeyinin olması-siyasi status daşıyıcısı kimi çıxış etməsi sosial-siyasi münasibətlər sistemində normal hal kimi qəbul edilir. Hər bir fərdin siyasi mövqeyinin ifadəsi məsələsinə gəldikdə isə qeyd edilməlidir ki, bu mövqe yalnız qanun çərçivəsində-leqal və legitim surətdə ifadə olunmalıdır. Azərbaycan Respublikasında özünüifadə hüququ qanunla təsbit olunub və bunun icrası da yalnız qanuni yollarla həyata

keçirilməlidir. Əgər tələblər varsa və o tələblər, hətta siyasi xarakterlidirsə belə, bunlar yenə də leqal surətdə olmalıdır. Bu halda hesab edirik ki, media nümayəndələri 2 yoldan birini seçməlidirlər: ya aktiv siyasi fəaliyyətlə məşğul olaraq siyasi subyekt kimi çıxış etməli, ya da əgər jurnalist olmaq istəyirlərsə, tərəfsiz media nümayəndəsi qismində fəaliyyət göstərməlidirlər. Zatən müasir dövrdə jurnalistika ilə siyasət arasında çox nazik bir "pərdə" vardır. Bəzən bunlar arasında olan sərhədin haradan keçdiyinin fərqinə varmaq çətin olur. Ona görə də, bu tarazlığı qorumaq üçün çox həssas olmalı və adekvat davranış forması, modeli seçilməlidir.

Sirr deyil ki, bu gün bütün dünya mediası siyasiləşib və ya siyasi səciyyə alıb. Bir sıra Avropa təşkilatları Azərbaycan kimi ölkələrə medianı siyasiləşdirməməyi tövsiyə edir. Amma əslində, diqqətlə analiz etsək, görəcəyik ki, siyasiləşən, siyasi məqsədlərə, siyasi ideologiyaya xidmət edən dünyanın ən böyük transmilli media şirkətləri elə Qərb ölkələrində fəaliyyət göstərir. Bu şirkətlər konkret maraqlara, mənsub olduqları dövlətin və xalqın mənafeyinə xidmət edirlər. O da məlumdur ki, fərqli maraqlar hər zaman müəyyən bir nöqtədə toqquşur. Ola bilməz ki, iki müxtəlif xalqın maraqları tamamilə eyni olsun və uzlaşsın. Deməli, əks tərəfin hər hansı bir fərqli marağı varsa, orada artıq bizim marağımız onların maraqları ilə toqquşacaq. Belə olan halda, necə olur ki, özünü demokratiyanın təbliğatçısı, hətta demokratik idarəetmə sisteminin nümunəsi, rol-modeli kimi tanıdan, ayrı-ayrı media strukturları və imperialist güclərin əlində təmərküzləşən media şirkətləri fəaliyyətlərini məhz o güclərin milli maraqlarının müdafiə olunması yönündə qururlar, amma biz öz milli maraqlarımızı qoruyanda, bu, söz azadlığının pozulması kimi qiymətləndirilir? Onların siyasiləşməsi və konkret siyasi

maraqlara xidmət etməsi normal hal kimi qəbul olunur, bizim mətbuatda dövlət və milli maraqlarımızın qorunması isə antidemokratik hal kimi səciyyələndirilir. Əslində, mahiyyət etibarilə bunların hər ikisi eynidir: hər iki tərəf özünün milli maraqlarını müdafiə edir. Bu halda, necə olur ki, onların mediası öz maraqlarını qoruyanda bu, demokratiyanın nümunəsi və ya təzahürü olur, biz öz maraqlarımızı, dövlətimizin, millətimizin, xalqımızın mənafeyini müdafiə edən zaman bu, medianın siyasiləşməsi olur?

Çox təəssüf ki, bu və ya buna bənzər neqativ tendensiyalar davam etməkdədir. Azərbaycan jurnalistlərinin də bəziləri bilərəkdən, bəziləri isə bilməyərəkdən bu informasiya burulğanında, demokratiya-siyasət, siyasət-demokratiya, siyasət-media, media-siyasət oyunlarında o nazik "pərdə"nin harasında - sağında və ya solunda qərar tutacaqlarını müəyyənləşdirə bilmirlər. Ona görə də, hesab edirik ki, jurnalistlər Azərbaycan cəmiyyətinin lokomotivlərindən, dinamik güclərindən biridir və Azərbaycanda demokratik təsisatların formalaşmasında, təkmil bir sosiumun yaranmasında çox böyük xidmətləri olan xüsusi bir zümrədir. Bu məxsusi zümrənin təmsilçiləri olmaq isə jurnalistlərin üzərinə yeni vəzifələr qoyur. Amma çox təəssüflər olsun ki, son dövrlərdə baş vermiş hadisələr bir daha göstərdi ki, Azərbaycanda jurnalistlər heç də həmişə neytrallığını qoruya bilmirlər.

Bir çox hallarda biz Azərbaycan siyasi palitrasında mövcud olan ayrı-ayrı siyasi güclərdən, partiyalardan daha artıq siyasiləşmiş jurnalistlərə təsadüf edirik. Jurnalistlər bəzi hallarda heç bir siyasi subyektin səsləndirmədiyi, ifadə etmədiyi absurd siyasi tələblər irəli sürürlər. Məsələn, bəzən Azərbaycanda müəyyən sosial problemlərlə bağlı müxtəlif siyasi qruplar mitinq keçirməyə cəhd göstərirlər. Mitinqləri təşkil

edən qrupların səsləndirdikləri tezislər, fikirlər, əslində, bir çox hallarda sosial məsələlərlə bağlı olur. Amma çox təəssüf ki, Azərbaycan mətbuatında ayrı-ayrı həmkarlarımız tərəfindən yazılan yazılarda bu sosial tələblər həddindən artıq siyasiləşdirilir. Yəni jurnalist necə deyərlər "papanın özündən daha artıq papa olmağa", "siyasətçilərdən daha çox siyasətçi" olmağa çalışır. Ayrı-ayrı fikirləri qəzet səhifələrində o qədər kəskin və təhrif olunmuş şəkildə təqdim edirlər ki, siyasi mövqe jurnalistlərin fəaliyyətinin kölgəsində qalır. Bəzi qəzetlərdə "Azərbaycanda inqilab baş verdi", "Ərəb inqilabı Azərbaycana gəldi" və s. kimi manşetlər yer alır və bunların altında da jurnalistlərin imzaları var. Bu, hansı meyarlarla ölçüləsi jurnalist fəaliyyətidir? Həddindən artıq siyasiləşmiş bəzi həmkarlarımızın antidövlət, anarxist çağırışlarına qarşı müvafiq strukturlar fəaliyyətə keçəndə, onlara qarşı hüquqi əsaslara uyğun surətdə müvafiq tədbirlər görüləndə həmin şəxslərin jurnalist olduqları dərhal yadlarına düşür və bir an içində çevrilib jurnalist olurlar. Axı onlar dağıdıcı anarxistlər olmaqla siyasəti mətbuata, mətbuatı siyasətə qarşıdırırlar, dövlət, millət, xalq qarşısında cavab verməyə gələndə isə jurnalist olurlar. Sonra isə aləmə car çəkirlər ki, jurnalist kimi fəaliyyətimiz məhdudlaşdırıldı, söz azadlığı pozuldu və s. Hesab edirik ki, həmkarlarımız qəti şəkildə bu məsələlərə diqqətlə yanaşmalı, peşə qaydalarına istisnasız riayət etməlidirlər.

Elə burada başqa bir fakta da diqqət çəkmək, 2011-ci ilin aprel ayının 2-də təşkil olunmuş və fiaskoya uğramış mitinqdə şahidi olduğumuz bir epizodu xatırlatmaq istəyərdik. Azərbaycanda fəaliyyət göstərən məşhur xarici radiostansiyalardan birinin nümayəndəsi mitinqdə iştirak edən bir vətəndaşdan soruşur ki, sizin tələbiniz nədir və bu aksiyaya niyə

qoşulmusunuz? O isə cavab verir ki, yaxşı olardı ki, cənab Prezident pensiyamızı bir qədər də artırsın. Jurnalist dərhal soruşur ki, sizin başqa siyasi tələbiniz yoxdurmu? Vətəndaş da bildirir ki, onun başqa heç bir siyasi tələbi yoxdur. Bu dialoqdan da aydın görünür ki, xarici radiostansiyanın müxbiri Azərbaycanda sosial vəziyyətinin daha da yaxşı olmasını istəyən bir vətəndaşın fikirlərində mütləq siyasət axtarır. Necə ola bilər ki, xarici radiostansiyanın müxbiri Azərbaycanda vətəndaşları siyasiləşməyə məcbur edir və dövlət əleyhinə siyasi şüarlar səsləndirməyə təşviq edir. Bu, jurnalistikadırmı, bu, jurnalistdirmi? Hesab edirik ki, bunun jurnalistika fəaliyyətinə heç bir aidiyyəti yoxdur.

Şahidi olduğumuz başqa bir epizoda nəzər yetirək. Yerli və ya xarici medianın təmsilçiləri vətəndaşların təhlükəsizliyini və sabitliyi qorumağa çalışan polisi görən kimi onunla yaxın təmasa girməyə, polisi təxribata çəkməyə çalışır. Başqa bir həmkarı isə onun polislə şəklini çəkib yaymaqla ictimaiyyətdə yanlış fikir formalaşdırır. Dolayısıyla, bir teatr tamaşası yaradırlar. Ən faciəli məsələlərdən biri də odur ki, əyninə KİV nümayəndələri üçün nəzərdə tutulan gödəkçəni geymiş jurnalist qanunu pozan vətəndaş haqqında polis müvafiq tədbir görərkən, polislə əlbəyaxa olub, qanunu pozan vətəndaşı müdafiə etməyə çalışır. Yəni jurnalistin peşəsi, vəzifəsi xəbər verməkdir, yoxsa qanunu pozan vətəndaş haqqında qəti tədbirlər görən polislə əlbəyaxa olmaq? Belə olanda, onun özünə də polisə müqavimətə görə qanunun tələbi tətbiq olunanda deyirlər ki, jurnalistlərin hüquqları pozulur. Axı biz bilirik ki, vətəndaş antidövlət, antimillət şüarları səsləndirir, ictimai nizamı pozur, təhqiramiz ifadələr işlədir və polis də ictimai qaydaları pozduğuna görə ona qarşı müvafiq cəza tədbirləri-

nin tətbiq edilməsini təmin etməyə çalışır. Jurnalistin vəzifəsi isə bu informasiyanı olduğu kimi cəmiyyətə çatdırmaqdır.

Düşünürük ki, bu tip hadisələr jurnalistlərin peşə nüfuzuna ciddi ziyan vurur. Jurnalistlər peşə nüfuzlarını qorumaq üçün bu cür addımlardan, deviant davranış formalarından imtina etməlidirlər. Azərbaycanda jurnalist peşəsinin nüfuzunun özünə qaytarılması ilə bağlı dövlət tərəfindən çox mühüm addımlar atılıb. Prezident İlham Əliyev jurnalistləri nüfuzlu bir peşə sahibləri kimi qəbul edir və onların əməyini daim yüksək qiymətləndirir. Son dövrlər atılan addımlar da bir daha bunu sübuta yetirir. Prezident İlham Əliyevin Sərəncamı ilə KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Siyasi mövqeyindən, onun prezidentə münasibətindən asılı olmayaraq, bütün mətbuat orqanlarına bərabər şəkildə maliyyə dəstəyi verilir, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması üçün fundamental tədbirlər görülür. Eyni zamanda, jurnalistlərin müvafiq icra strukturlarından asanlıqla informasiya əldə etmələri üçün vaxtaşırı bütün dövlət orqanlarına konkret göstərişlər verilir. Dövlət orqanlarında jurnalistlərin azad şəkildə informasiya əldə etmələri üçün xüsusi qurumlar yaradılıb. Amma bir çox jurnalistlər ciddi-cəhdlə peşə nüfuzunu aşağı salan hərəkətlərə yol verməyə davam edir. Beləliklə, onlar həm özlərini cəmiyyət qarşısında nüfuzdan salır, həm də dövlətin imicinə ciddi zərbə vururlar. Bu cür deviant davranış formaları yolverilməzdir.

Düşünürük ki, siyasi məsələlərdə jurnalist tərəf olmamalı, siyasilərin özündən daha artıq siyasiləşməməlidir. Onların borcu nəinki siyasətə qoşulmamaq, hətta siyasilərin primitiv, qeyri-etik, radikal siyasi leksikonunu korrektə etmək, hər hansı siyasətçinin antidövlət çağırışının qarşısını almaqdan ibarətdir.

Beləliklə, fikirlərimizi daha aydın çatdırmaq üçün modern informasiya cəmiyyətlərində media və milli maraqlar məsələsinə Azərbaycan nümunəsində toxunduq. Xüsusi faktlar əsasında çıxardığımız ümumi nəticə isə budur ki, bu gün beynəlxalq informasiya şəbəkəsinin hakimlərinin-infokratların qlobal informasiya strategiyalarının fonunda media orqanlarının fəaliyyətində "millisizləşdirmə" tendensiyası müşahidə olunmaqdadır. Daha da dəqiqləşdirsək, bu və ya digər cəmiyyətlərdə, o cümlədən, Azərbaycanda bir sıra media orqanlarının fəaliyyətində milli maraqlara zidd olan, amma beynəlxalq informasiya şəbəkəsinin strukturunda müvafiq çalarlar üstünlük təşkil edir. Bu isə infoimperialistlərin şəbəkə və düzənləri üçün strateji avantaj kimi çıxış etməkdədir. Məhz elə buna görə media institutları öz fəaliyyətlərini yalnız praqmatik əsaslarla yanaşı, eyni zamanda, milli maraqlara müvafiq surətdə rasional tələblər üzərində qurmalıdırlar.

### 3.3. Transmilli media institutları infoimperializmin məqsəd və niyyətlərinin həyata keçirilməsində strateji resurs qismində

İnfoimperializmin fonunda dünya siyasəti və beynəlxalq münasibətlər sistemi çərçivəsində mövcud olan başlıca reallıqlardan biri də transmilli media strukturlarının qlobal missiyalı fəaliyyətidir. Təsadüfi deyil ki, transmilli media strukturlarının qlobal missiyalı fəaliyyəti dünya siyasətinin başlıca tendensiyalarına, eləcə də milli və hökumətdənkənar aktorların fəaliyyət mexanizminə də əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Məhz elə buna görə də, müxtəlif oriyentasiyalara və dəyərlərə malik olan transmilli media strukturları özlərinin fəaliyyət mexanizmini müxtəlif maraqlar üzərində qura-

raq, fərqli vasitələr və metodlara istinad edirlər. Son məqsəd isə özündə konkret strateji niyyəti ehtiva edən transmilli maraqların təmin olunmasına və ya transmilli maraqların ideoloji əsaslarının formalaşdırılmasına nail olmaqdır. Eyni zamanda, informasiya resurslarının lokal və qlobal şəbəkəsini formalaşdıran transmilli media qurumlarını idarə edən subyektlər ən müxtəlif metod və vasitələrə istinad etməklə "informasiya bazarı"nın mütləq hakimləri qismində çıxış edirlər. Təsadüfi deyil ki, həmin qüvvələr beynəlxalq leksikonda infokratlar (informasiya hakimləri) kimi səciyyələndirilirlər. Ən əsası, transmilli media institutlarının fəaliyyət mexanizmi dünya siyasətində hegemon güclər qismində təmsil olunan milli aktorların informasiya siyasətinə xidmət edir. Daha da dəqiqləşdirsək, transmilli media institutlarının fəaliyyəti yeni dünya düzəninin fonunda imperialist güclərin apardığı "informasiya savaşı"nın fonunda strateji "silah" və mexanizm qismində çıxış edir.

Məhz bütün bu məsələlərin mahiyyətini və strateji substratlarını daha dərindən anlamaq üçün bir-birilə sistematik surətdə bağlı olan bir neçə məsələyə elmi-nəzəri və analitik-empirik surətdə nəzər yetirmək məqsədə müvafiqdir.

Beləliklə, bu gün dünya siyasətində hegemon güc qismində təmsil olunan müəyyən milli aktorlar özlərinin transmilli maraqlarını təmin etmək üçün müxtəlif vasitə və resurslara istinad edirlər. Bu sırada ən çox istifadə və istinad edilən vasitə isə transmilli media strukturlarıdır. Yuxarıda da qeyd etdiyimiz kimi, müasir dövrdə transmilli media strukturlarının fəaliyyət mexanizmi konkret güclərin maraqları əsasında qurulub və özündə dərin siyasi manipulyasiya metodlarını ehtiva etməkdədir. Transmilli media institutlarının konkret güclərin maraqlarına xidmət etməsini sübut edən başlıca

göstəricilərdən biri də "Ərəb baharı" kimi səciyyələndirilən Yaxın Şərq və Şimali Afrika olayları zamanı bəhs edilən təsisatların sərgilədiyi mövqe, yaxud fəaliyyət metodlarıdır. Belə ki, bəhs edilən geosiyasi məkanda hələ iğtişaşlar başlamamışdan öncə sözügedən transmilli media institutları qara PR (piar) səciyyəli və təhrif olunmuş informasiyalar təqdim etməklə dünya ictimaiyyətində konkret hegemon milli aktorların və ya infoimperialist güclərin mövqeyini dəstəkləyən, eləcə də region ölkələrinin xalqlarını təxribata sürükləyəcək durum yaratmağa çalışırdılar. Elə buna da müəyyən mənada nail oldular. Amma bu, son deyildi. Yaxın Şərq və Şimali Afrikada iğtişaşların və qarşıdurmaların başlamasından sonra transmilli media institutları "qeyri-adi" informasiyalar təqdim etməklə dünya ictimaiyyətinə qarşı ciddi informasiya manipulyasiyasını həyata keçirdi. Nəticə etibarilə, bu olaylar xalqların azadlıq mübarizəsi kimi təqdim edilməklə dünya siyasətinin başlıca meyillərini müəyyənləşdirən imperialist güclərin "Yaxın Şərq və Şimali Afrika əməliyyatı"na haqq qazandırıldı. Əslində isə, işğal faktı baş vermiş böyük bir siyasi coğrafiya infoimperialistlər tərəfindən qəsb edilmişdi. Regionun bütün resursları uzun müddət istismar ediləcək, ölkələr etnik-dini və siyasi toqquşmanın ağuşuna atılacaqdı. Transmilli media isə bu barədə bir kəlmə belə danışmadı. Təbii ki, bütün bunlar "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi"nin fonunda transmilli media strukturlarının missiyası kontekstində səciyyələndirilməlidir.

Beləliklə, konkret faktlar əsasında müəyyən etdiyimiz kimi, transmilli media strukturlarının fəaliyyət mexanizmi beynəlxalq münasibətlər sistemi çərçivəsində dominant güc kimi çıxış edən konkret milli aktorların maraqlarına xidmət edir.

Əlbəttə ki, fikirlərimizi daha da konkretləşdirmək üçün bir sıra transmilli media institutlarının fəaliyyətində konkret detallar və faktlar əsasında toxunmaq məqsədəmüvafiqdir. Bu kontekstdə müşahidə edilən başlıca reallıq və tendensiyalardan biri də transmilli media strukturu olan BBC-nin fəaliyyətində nəzərə çarpan informasiya manipulyasiyası və ideoloji təzyiq elementləridir. Bu, bir gerçəklikdir ki, BBC hər zaman konkret imperialist güclərin transmilli maraqlarına müvafiq media fəaliyyəti sərgiləyib. Məhz buna görə də BBC-nin fəaliyyət mexanizminin əsasında informasiya, resurslarının lokal və qlobal şəbəkəsini formalaşdıran transmilli media qurumlarının istinad etdikləri ən müxtəlif metod və vasitələr xüsusi yer tutub. Bunlar sırasında isə siyasi-ideoloji səciyyəli informasiya manipulyasiyası xüsusilə qeyd edilməlidir. Belə ki, nəhəng güc mərkəzlərinin Yaxın Şərq əməliyyatı zamanı-Əfqanıstan olayları, İraq müharibəsi, Yaxın Şərq və Şimali Afrika hadisələri ərəfəsində BBC-nin sərgilədiyi mövqe və istinad etdiyi metodlar, vasitələr bir daha bunu göstərdi ki, bəhs edilən transmilli media institutunun fəaliyyəti obyektivlikdən uzaq şəkildə konkret imperialist güclərin hərbi-siyasi ekspansiyasının ideoloji əsaslarına xidmət edir.

Digər tərəfdən, BBC-nin fəaliyyətində müşahidə edilən başlıca reallıqlardan biri də müxtəlif dövlətlərə qarşı istifadə edilən şantaj vasitələridir. Belə ki, bəhs edilən qurum beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru olan milli dövlətlərə və onların başçılarına qarşı müxtəlif məsələlər ətrafında şantaj siyasəti həyata keçirir və bu sırada daha çox informasiya manipulyasiyasına, qara piar komponentlərinə istinad edir. Nəticədə dövlət rəsmiləri bir sıra hallarda güzəştə getmək, irəli sürülən tələbləri yerinə yetirmək məcburiyyətində qalır. Azərbaycanda belə jurnalistika fəaliyyəti “rekert jurna-

listika" adlandırılır. Qlobal şirkət isə elə qlobal rekertdir. Bununla yanaşı, BBC-nin transmilli missiyalarından birini də milli dövlətlərarası ziddiyyət yaratmaq təşkil edir. Yaxın Şərq ölkələri arasında ziddiyyət yaratmaq naminə gündəmə gətirilən məsələlər və dövriyyəyə buraxılan informasiyalar (əslində, dezinformasiyalar) bunu sübut edən başlıca arqumentlərdəndir. Son olaraq, BBC "Eurovision" məsələsiylə bağlı Azərbaycanın ünvanına ittihamlar səsləndirməklə bu məsələni siyasi manipulyasiya vasitəsinə çevirməyə çalışırdı.

Dolayısıyla, bütün bunlar ona dəlalət edir ki, transmilli media institutu olan BBC öz fəaliyyəti ilə həm də ideoloji təzyiq qrupu qismində çıxış edir.

Nəticə etibarilə, transmilli media institutları infoimperializmin transmilli məqsəd və niyyətlərinin həyata keçirilməsində strateji resurs qismində çıxış edir.

### 3.4. Beynəlxalq informasiya savaşında yeni kibertexnologiyalar və texnoloji innovasiyalar spesifik strateji vasitə kimi

Bəşər sivilizasiyasının indiki mərhələsində kibertexnologiyanın inkişafı insanların sosial, mədəni, iqtisadi və siyasi həyatında olduqca əhəmiyyətli yer tutan bir vasitəyə çevrilib. Sosial innovasiya kimi qiymətləndirə biləcəyimiz bu hadisə, eyni zamanda, kibertexnologiyalar vasitəsilə iki socialyönümlü xüsusi fəlsəfi ideyanın, azadlıq və nəzarətin də məzmun və mahiyyətinə yeni keyfiyyət dəyişiklikləri gətirib. Bu günə qədər bəşər tarixində elə bir kommunikasiya vasitəsi olmayıb ki, cəmiyyətin sosial münasibətlərini-fərdlərarası münasibətləri, cəmiyyətdaxili institutlararası təmasları bu dərəcədə asanlaşdırsın.

Tarixdə görünməmiş şəkildə xalqlar və toplumlar arasında operativ informasiya mübadiləsini təmin edən bu yeni texnologiya, eyni zamanda, qloballaşan dünyada xalqlar və dövlətlər arasında rəsmi sərhədi aradan götürdüyü kimi, həmçinin, xalqlar arasında mənəvi, mədəni və demək olar ki, din sərhədlərini də aradan qaldırmaqdadır. "Bu sürətli inkişaf bəşər sivilizasiyasına nələri, necə və nə qədər zamanda gətirəcəkdir, bu proses nə vaxt başa çatacaqdır və ilkin nəticələri nə zaman müzakirə etmək olacaqdır" sualı hələlik cavabsız qalır.

Amma görünən və cavabı bəlli olan bir məsələ budur ki, bu proses çox sürətlə gedir və bəşəriyyəti insanların proqnozlaşdıra bilmədikləri nöqtələrə gətirib çıxarır. Yeni kibertexnologiyalar yaradılan zaman bütün yeniliklər kimi adətən, ilk növbədə, onu yaradan və idarə etməyə çalışan mərkəzlərin maraqlarına xidmət etsə də, sonrakı mərhələdə özü-özlüyündə yarımmüstəqil platformaya çevrilərək, proqnozlaşdırılmayan və idarə olunmayan proseslərə gətirib çıxarır. Və belə demək mümkündürsə, bir mənada yeni innovasiyalar və yeni kibertexnologiyalar insanlara yeni azadlıqlar bəxş edirsə də, eyni zamanda, bu azadlıqların hüdudları, ölçüsü və dərəcəsi qeyri-müəyyən olduğu üçün bunun azadlıqmı, yoxsa anarxiyamı olduğuna dair ciddi suallar yaradır. Məsələ bundadır ki, yeni texnologiyalar yaradılan zaman, ilk növbədə, qarşıya qoyulan məqsəd həmin texnologiyalara nəzarət etməyi də özündə birləşdirən bir ideya idi. Təəssüf ki, getdikcə nəzarət amili özünü itirdi və artıq kibertexnologiya virtual məkanda öz-özünə inkişaf edən, özü-özünü tənzimləyən, özü öz sərhədlərini və öz keyfiyyətini müəyyənləşdirən nizamlı, bir o qədər də xaotik bir prosesə çevrilir. Bu azadlıqdırmı? Bu proses idarə olunandırmı, nəzarət ediləndirmi? Qeyd-şərtsiz bu suallara "hə" və ya "yox" cavabı vermək olduqca çətindir.

Lakin məsələ bundadır ki, bu proses dağın zirvəsindən aşağıya doğru yuvarlanan qar topası kimi getdikcə böyüyərək çığ şəklini almaqdadır. Qar axını, qar uçqunu dediyimiz bu çığ kiminsə maraqlarına ziddir, kiminsə mənafeyinə uyğundur. Amma özünə rəqib tanımayan bu qar uçqunu bəzi xalqlar və dövlətlər üçün bir fəlakət, həmçinin, məğlubiyyət, bəzi xalqlar və dövlətlər üçün isə bir zəfər və qalibiyyətdir. Məsələ ondadır ki, kibertexnologiyaların gətirdiyi bu "azadlığın" nə məqsədə xidmət etdiyi, daha doğrusu, bu "azadlığın" necə olmasını azadlığın daşıyıcısı olan fərdlər dərk etmədən bu sürətli axan dağ çayını xatırladan daşqının içərisində qərq olaraq, bir də özünü açıq dənizin dərinliklərində görür. Və həmin fərdlər bu azadlıq dənizində üzməyi bacarmırsa, boğulacaqlar. Orada sadəcə üzməyi bacaranlar yaşaya bilirlər. Yəni azadlıqdan necə və nə cür istifadə etməyi bacaranlar, azadlıqları milli və dövlət maraqları ilə uzlaşdırmağı bacaranlar bu prosesdən qalib ayrıla bilərlər. Milli və dövlət maraqlarını, eyni zamanda, fərdi mənafeyi təmin edən sosial anlayış olduğu üçün, deməli, əslində, fərdi də içərisində bəsləyən bir hadisədir. Ancaq təəssüf ki, bəzi hallarda biz sadəcə kor-koranə sevənlər kimi "azadlıq", "demokratiya" sözünə aşiq olub, sonrakı mərhələdə nə olacağını düşünmədən özümüzü axan dağ çayının içərisinə atırıq. Ona görə də, hər halda dünyada baş verən bu proseslərin, kibertexnologiyaların gətirdiyi informasiya axınının və informasiya okeanının içərisində üzməyə və yaşamağa hazır  və qabil olmalıyıq.

Yeni resurslar, yeni texnoloji innovasiyalar əsas etibarilə onu yaradan və idarə edən güc mərkəzlərinin istismarında olmaqla onların dövlətçilik və milli maraqlarına xidmət edir. Bu, bir növ troya atını xatırladır.

Ortada sahibsiz bir qənimət var və biz bu qəniməti qalamızın, yəni milli dövlətimizin içərisinə çəkirik. Sonradan bəlli olur ki, əldə etdiyimizə görə sevindiyimiz bu qənimətin içərisində bizi içəridən dağıdacaq, qalamızın qapısını yadlara, düşmənlərə açacaq ünsürlər var. Düz tarixin "Troya dərsi"ndə olduğu kimi. Və onu görə, proqnozlaşdıra bilmədiyimiz halda, bir müddətdən sonra sevə-sevə qəbul etdiyimiz bu qənimət bizi içəridən dağıdacaqdır. Biz deyərkən, burada söhbət imperialist güclərdən kənarda olan bütün ölkələrdən – "üçüncü dünya" ölkələrindən gedir.

Bu müqayisədən sonra biz yeni kibertexnologiyaların yeni keyfiyyətdə təzahürünün şahidi oluruq. Məsələ ondadır ki, kibertexnologiyalar hər nə qədər sərhədləri aradan götürən, xalqlar arasında mədəniyyəti və dil baryerlərini aradan qaldıran, inkişafı sürətləndirən, sosial, siyasi və iqtisadi əlaqələri gücləndirən, qloballaşmanı təmin edən bir vasitədirsə, yeni keyfiyyətdə, eyni zamanda, bəşəriyyətin mübarizə tarixində xalqlararası döyüş meydanında da bir silahdır. Deməli, kibertexnologiyalar xalqları nə qədər birləşdirirsə, eyni zamanda, bir o qədər də xalqları bir-birindən uzaqlaşdırır, dövlətlərarası münasibətlərə nə qədər xidmət göstərirsə, bir o qədər də dövlətlərarası münasibətləri korlayır. Nəticə etibarilə, nə olduğu bəlli olmayan və bəşəriyyəti hara götürəcəyi sona qədər dərk olunmayan bu virtual silah bəşəriyyətin inkişafı və dünyanın gələcəyi ilə bağlı böyük bir sual işarəsidir. Ona görə də, bu məsələdə çox həssas olmalıyıq və prosesdə təmsilçiliyimiz və necə iştirakımızla bağlı çox təmkinlə qərar verməliyik. Elə etməliyik ki, kibertexnologiyalardan, yeni innovasiyalardan milli və dövlətçilik maraqları naminə istifadə etməyi bacaraq, həmçinin, bunun üçün müvafiq addımlar ataq.

Heç də təsadüfi deyil ki, kibertexnologiyalar inkişaf etdikcə bununla bərabər dilimizə yeni terminlər daxil olur. Bunlardan biri də kibercasusluqdur. Kibercasusluq hazırda dünya dövlətlərinin təhlükəsizliyini təhdid edən ən aparıcı silahlardan birinə çevrilib. Kibercasusluq sayəsində bu gün hər hansı bir şəxsin ofisində olan ən gizli informasiyadan başlamış ən ciddi dövlətlərin, hətta bəzi nüvə dövlətlərinin belə milli təhlükəsizlik şuralarında səslənən fikirlər və planlara qədər əldə etmək olur. Ona görə də, ciddi təhlükəsizlik sisteminə malik olan ölkələr, böyük dövlətlər bunun qarşısını almaq üçün həm hərbi, həm də sivil müstəvidə tədbirlər həyata keçirirlər. Məsələn, kibermәkana nəzarət etmək üçün ABŞ ordusunda Kiberqüvvələr Əlahiddə Komandanlığı yaradılıb. Bizcə, bu cür institutlar hər bir milli dövlətdə yaradılmalıdır. Hazırda kibermәkanda milli mənafeləri qorumaq milli dövlətləri düşündürən başlıca məsələlərdən biridir. Ona görə də, biz heç bir halda kibermәkanı, internet məkanını sadəcə demokratiya, azadlıq, insan hüquqlarını təmin edən bir resurs kimi nəzərdən keçirməməliyik. Eyni zamanda, biz bunu bir təhdid kimi görməliyik və buna qarşı önləyici tədbirlər almalıyıq. Əlbəttə ki, bu bir yandan hərbi-siyasi səviyyədə dövlət tərəfindən həyata keçirilməlidir. Digər tərəfdən, sosial-mədəni səviyyədə isə fərdlər və ziyalılar tərəfindən reallaşdırılmalıdır. Çünki bu birləşdirici, inteqrasiyaedici, amma həm də dağıdıcı ünsür imperialist güclərin təzyiqindən əziyyət çəkən xalqlar üçün, eyni zamanda, ciddi bir təhlükədir.

Başqa bir təəssüfedici məqam ondan ibarətdir ki, "üçüncü dünya" ölkələrində internet resurslarının, kibertexnologiyaların qara bazarından bəhrələnmək və manipulyativ informasiyalardan bəhrələnərək, bunun üzərində ictimai mü-

nasibətləri qurmaq meyilləri daha güclüdür. Çünki manipulyativ informasiyalar fərdin özündən xəbərsiz olaraq, onun şüuraltı hafizəsinə təsir göstərməklə onun yönləndirilməsi konsepsiyasını özündə əks etdirir. Və qlobal kiberdünyanı idarə edən güclər də məhz həmin hədəfi nəzərə alaraq, bu auditoriya üçün düşünülmüş məxsusi informasiyalar istehsal etməklə çirkli internet bazarı münasibətlərini stimullaşdırırlar. Bu isə eynən genetik modifikasiya olunmuş məhsullara bənzəyir. Xəbərimiz olmadan illər keçdikdən sonra nəsilartırma qabiliyyətini, düşünmə qabiliyyətini məhdudlaşdıran genetik modifikasiya olunmuş məhsullar kimi bunlar da düşüncələrimizi, beynimizi eyni dərəcədə zədələyərək xəstəlik yaradır. Bölücülük, vətəndaş-dövlət bağlarını qoparan xəstəlik yaradır, cəmiyyətdə qütbləşməni stimullaşdıran və cəmiyyətin substratları hesab edilən institutları dağıdan sindrom yaradır. Buna görə də, hər bir Azərbaycan ziyalısı və xüsusən kibermәkanda xalqı təmsil edən media nümayəndələri bu məsələləri dərindən düşünməli, kiberdünya ilə əlaqələri də məhz bu müstəvidə bu amilləri nəzərə alaraq qurmağı bacarmalıdırlar.

IV FƏSİL

# İnfoimperializmin konseptual əsasları və ideoloji vasitələri

## 4.1. “Geosiyasi demokratiya” prinsipi; infoimperializm çərçivəsində “demokratiya” və “insan haqları” məsələsi xüsusi institusional vasitədir

Bu, bir gerçəklikdir ki, beynəlxalq informasiya şəbəkəsinin hakimlərinin-infokratların ən çox istifadə etdikləri vasitələrdən birini də müxtəlif geostrateji konsepsiyaların hazırlanması və bu kontekstdə ideoloji baxımdan istifadə olunması təşkil edir. Bu sırada istifadə edilən xüsusi informativ-ideoloji vasitələrdən biri də “demokratiya konsepsiyaları”dır. Belə ki, infokratlar konkret imperialist güclərin transmilli maraqlarının təmin olunması naminə ideoloji müstəvidə formal institusional məfhum kimi “demokratiya” kateqoriyasından təsir vasitəsi kimi istifadə edirlər. Onların fəaliyyətində demokratiya əsl məcrasından və mahiyyətindən çıxarılır, sadəcə, təsir və təzyiq vasitəsi kimi istifadə edilir ki, burada da son məqsəd transmilli maraqların təmin olunmasıdır.

Beləliklə, infokratların “demokratiya” məfhumu üzərindən etdikləri ideoloji və informasiya manipulyasiyalarının mahiyyətini anlamaq üçün formal institusional kateqoriya kimi “demokratiya” məfhumunun mahiyyətinə və infokratların bundan istifadə formaları və mexanizmlərinə nəzər yetirmək lazımdır.

Müasir elmi-nəzəri mənbələrdə və empirik araşdırmalarda ən çox rast gəldiyimiz anlayışlardan biri də demokratiya

məfhumudur. İdeoloji oriyentasiyasından və strateji substratlarından asılı olaraq, bir çox nəzəri mənbələrdə və empirik araşdırmalarda demokratiya anlayışı müxtəlif mənalarda işlədilir və bu məfhuma münasibətdə fərqli yanaşmalar müşahidə edilir. Bir çoxları demokratiyanı mütləq mənada "xalq hakimiyyəti" kimi təsvir edir, bəziləri onu "xalqın iradəsinin təzahürü" adlandırır, digərləri isə utopik idarəetmə sistemi kimi səciyyələndirirlər. Bir çox araşdırmaçılar demokratiyanı siyasi rejim növlərindən biri kimi diqqətlərə təqdim edir, bəziləri onu siyasi fəaliyyət tərzi kimi xarakterizə edir, digərləri isə fəaliyyətin ideoloji prinsipləri və meyarları kimi təsvir edirlər. Bəzilərinə görə demokratiya siyasi sistemin xarakteristikasıdır, digərlərinə görə, bu, ictimai quruluşun idealıdır, bir qisim araşdırmaçılara görə isə, dünyagörüşü formasıdır.

Araşdırmaçı alim Cozef Şumpeter yazır ki, demokratiya dedikdə, ilk növbədə, xalqın ali və ümumi iradəsinin bilavasitə gerçəkləşdirilməsi (xalqın özü tərəfindən) nəzərdə tutulmamalıdır: "Bəziləri demokratiyanı xalq idarəetməsi kimi təsvir edir və buradan da yanlış nəticələrə gəlinir. Əslində, təcrübi gerçəkliklər sübut edir ki, demokratiya xalqın idarəçiliyi ola bilməz. Xalq idarəetməsi praktik mənada real və məntiqli deyil. Xalq yalnız ona verilmiş hüquqlar çərçivəsində seçim edə bilər və hakimiyyətin hüquqi mənbəyi qismində çıxış edə bilər. Məhz belə bir durumun fonunda bir neçə meyara və tələbə cavab verilməlidir ki, həqiqi mənada xalqın iradəsinə əsaslanan demokratik idarəetmə sistemi formalaşdırılsın. – Birincisi, xalqın dövlət vəzifələrinə və idarəetmə sisteminə seçilmək üçün layiqli nümayəndələri olmalıdır. Məhz bu amil xalqın iradəsinin ən yüksək səviyyədə təsbit və təmin edilməsi və

səmərəli idarəetmə sisteminin formalaşdırılması üçün təməl meyar və prinsip qismində çıxış edir. – İkincisi, idarəetməni həyata keçirən subyektlər açıq dəyərlərə əsaslanan qərarlar qəbul etməli və bu qərarlar ümumi maraqlara adekvat olmalıdır. Şübhəsiz, demokratiyanı mühafizə edən və təkmilləşdirən amillərdən biri də qərar qəbulu mexanizmi və prosedurlarıdır. Məhz buna görə də, bu amil demokratik idarəetmə sistemini formalaşdıran və onun davamlılığını təmin edən təməl kimi qəbul edilməlidir. – Üçüncüsü, institusional və qeyri-institusional formada səmərəli özünənəzarət formalaşdırılmalıdır ki, demokratik idarəetmə sistemi mümkün olsun”.

Plüralist demokratiya tərəfdarı və nəzəriyyəçisi olan Çarlz Medison isə hesab edir ki, demokratiya praktik mənada təmin edilməsi mümkün olan siyasi rejim kimi dəyərləndirilə bilər: “Demokratiyanı siyasi rejim kimi təsvir etsək, ilk növbədə, belə bir qənaətə gəlməliyik ki, onun səviyyəsi siyasi proseslərdə iştirak edən qrupların miqdarından və təmsilçilik xüsusiyyətlərindən, formalarından asılıdır. Siyasi plüralizmin təmin edilməsi vəzifəsinin fonunda siyasi arenada təmsil olunan qruplar nə qədər çox olarsa, rəqabət də bir o qədər güclü olar”.

Ç.Medison yazır ki, siyasi rejimin xarakteristikası və formasından asılı olmayaraq, xalq iradəsi anlayışı nisbi səciyyə daşıyır və ona dəqiq müəyyənləşdirmələr əsasında yanaşmaq lazımdır: **“Xalq iradəsi anlayışı bəzən xalqın idarəetməsi kimi təsvir edilir, bu isə praktik proseslər və reallıqları əks etdirmədiyindən ideal və ya qeyri-real bir yanaşma təsiri bağışlayır. Əslində, siyasi səhnənin aktoru xalqın iradəsi əsasında müəyyən resurslar və imtiyazlar əldə edir və idarəetməni həyata keçirir ki, məhz bunu xalqın iradəsi adlandırmaq olar”.**

Adam Pşerovski isə qeyd edir ki, demokratiya siyasi hakimiyyətin elə təşkilidir ki, o, müxtəlif qrupların öz səciyyəvi maraqlarını gerçəkləşdirmək qabiliyyətini müəyyən edir.

Xuan Lints isə bildirir ki, demokratiya bütün səmərəli siyasi təsisatların iştirakçılığına geniş şəraitin yaradılmasıdır. Digər tərəfdən, qeyd edə bilərik ki, demokratiya siyasi fəallığın artırılması üçün yaradılmış geniş şəraitin fonunda ictimai-siyasi təsisatlanmanın operativ və effektiv surətdə həyata keçirilməsinə real zəmin yaradır. Ən əsası, demokratik idarəetmə sisteminin fonunda inkişaf radikal dəyişikliklər vasitəsilə deyil, siyasi-hüquqi islahatlarla müşayiət edilən tədrici təkamül yolu ilə baş tutur.

Maks Veber isə qeyd edir ki, demokratiya liderlərin legitim surətdə seçilməsi və leqal şəkildə fəaliyyət göstərməsi, hakimiyyətin formalaşdırılması və əhalinin sosial-siyasi təmsilçiliyinin təmin olunması üçün ən ideal vasitədir.

Fəlsəfi anlayışlar ensiklopediyasında demokratiyaya bu cür tərif verilir: "Demokratiya elə bir idarəetmə formasıdır ki, burada xalq azlığın legitim və leqal hakimiyyətinə razılıq verir, başqa sözlə, idarəetmənin həmin azlıq tərəfindən həyata keçirilməsinə razılığını ifadə edir. Amma nəzarət hüququ və imkanları xalqın özündə saxlanılır".

Bütün bu yanaşmalara və nəzəri-empirik təsbitlərə baxmayaraq, demokratiyanın real mahiyyətini anlamaq üçün müxtəlif məsələlərə münasibətdə meydana gəlmiş demokratiya nəzəriyyələrinin hər birinə nəzər yetirmək lazımdır.

Araşdırmaçılar K.Makferson və D.Held demokratiya nəzəriyyələrinin fonunda aşağıdakı demokratik modelləri fərqləndirirlər:

– Klassik-antik demokratiya;

– Mühafizəçi (protektiv) demokratiya;

– Rəqabətə əsaslanan elitizim (elitar demokratiya);
– Plüralist demokratiya;
– Leqal demokratiya;
– Partisipiator (iştirakçı) demokratiya;
– Plebisit demokratiyası;
– Nümayəndəli demokratiya.

Müasir mənada demokratiya məfhumunun mahiyyətini anlamaq və onu təcrübi məsələlərlə əlaqələndirə bilmək üçün plebisit, partisipiator, leqal, elitar, plüralist və nümayəndəli demokratiya modelləri və konsepsiyalarına nəzər yetirmək məqsədəmüvafiqdir.

Beləliklə, öncə plüralist demokratiya modelinə nəzər yetirək. Plüralist demokratiya modelini səciyyələndirərkən, ilk növbədə, bu prinsip önə çəkilir: **"Xalq hakimiyyəti ideyasından azlığın mənafeyinin leqal surətdə təmin və mühafizə edilməsinə keçid".** Plüralist demokratiya modelində başlıca hərəkətverici subyekt qismində qruplar götürülür. Buradan da belə bir mövqe ifadə edilir ki, demokratiya insanlara qruplarda birləşmək və fəaliyyət göstərmək imkanı yaratmalıdır. Beləliklə, formalaşan qruplar siyasi mübarizə meydanında avanqard aktor qismində çıxış edirlər və rəqabət qruplararası mübarizənin fonunda meydana gəlir. Mübarizə prosesində ayrı-ayrı qruplar bir-birini neytrallaşdırır və hansısa qrupun hakimiyyəti inhisara almasına imkan verilmir. Belə bir şəraitdə dövlət özünəməxsus funksiya daşıyır və müxtəlif qrupların maraqlarını uzlaşdıran təməl aktor qismində çıxış edir.

Bundan başqa, plüralist demokratiya modelində əks olunur ki, maraqlar uğrunda mübarizə aparan qruplar (mənafe qrupları) siyasi sistemin başlıca ünsürləridir. Siyasi proseslərdə hərəkətverici faktor qrup mənafeyidir. Belə bir situasiyada

şəxsiyyətin fərdi maraqları qrup mənafeyinin fonunda ikinci plana keçir. Amma nəzərə almaq lazımdır ki, qrupların yaranmasının əsasında duran təməl faktor fərdlərin spesifik maraqlarıdır. Fərdlər öz maraqlarını təkbaşına gerçəkləşdirə bilmədiklərindən qruplarda birləşirlər və öz maraqlarının inteqrativ surətdə uzlaşdıraraq qrup mənafeyi halına salırlar. Digər tərəfdən, demokratik şəraitdə legitim hakimiyyətin sosial əsaslarını və real gücünü mənafe qrupları arasındakı strateji rəqabət və qüvvələrarası münasibətlər balansı təşkil edir. Məhz bu amil siyasi səhnədə təmsilçilik və münasibətlər sistemini formalaşdıran mexanizm qismində çıxış edir. Bununla yanaşı, belə bir şəraitin fonunda ictimai nizamın təmin və mühafizə edilməsi zərurəti də ortaya çıxır ki, burada əsas məsuliyyət və öhdəlik dövlətin üzərinə düşür. Dövlət öz funksionallığı çərçivəsində ictimai ahəngi təmin edən mexanizm qismində çıxış edir və qruplararası mübarizənin dağıdıcı nəticələrinin cəmiyyətə mənfi təsir etməsinə imkan vermir. Konsepsiyada bildirilir ki, mənafe qruplarının üzərinə düşən əsas vəzifə və öhdəlik onu təşkil edən şəxslərin maraqlarının inteqrativ surətdə təmin edilməsi səviyyəsidir.

Nümayəndəli demokratiya modelində isə belə bir konseptual maddə əks olunur ki, xalqın iradəsinin həyata keçirilməsi onun özünün bilavasitə aktiv təmsilçiliyi əsasında mümkün olmur. Real demokratiya xalq təmsilçiliyi hökumətinin formalaşdırılması ilə təmin edilə bilər. Bu hökumət isə xalqın passiv iştirakı (aktiv seçki hüququndan istifadə etməklə) sayəsində formalaşdırılır. Daha da dəqiqləşdirsək, hökumət xalqın iradəsi əsasında formalaşır, amma xalqın özü bilavasitə idarəetmədə iştirak etmir. Təmsilçilər isə öz fəaliyyətlərində xalqın ali maraqlarını rəhbər tutmağa söz verir.

Amma bu vədlərin yerinə yetirilməsi səviyyəsi sistemin spesifik xüsusiyyətlərindən asılıdır.

Politoloq Gilyermo Donnel yazır ki, nümayəndəli demokratiya modeli daha az liberaldır: **“Bu modeldə ictimai-siyasi institutlaşma xüsusi zəruri strateji missiya kimi səciyyələndirilir. Təsisatların fəaliyyətinin legitimliyi sistemin effektivlik səviyyəsini artırır... Bu modeldə güclü prezident hakimiyyətinə xüsusi ehtiyac duyulur və prezident millətin siyasi təcəssümü, maraqların ifadəçisi qismində dəyərləndirilir... Nümayəndəli demokratiyada qərarların qəbulu ləng, icrası isə operativ surətdə baş tutur”.**

Leqal demokratiya modelində legitimlik və leqallıq anlayışları mərkəzi məfhumlar qismində nəzərdən keçirilir. Bildirilir ki, qanunlar və xalqın iradəsi demokratik idarəetmə sisteminin əsasını təşkil edir: **“Hər iki məfhum bir-birilə bağlı olsa da, qanunlar xalqın iradəsindən üstündür. Hər bir idarəetmə subyekti öz fəaliyyətində təməl dəyər kimi qanunlara əsaslanmalıdır”.**

Bu modeldə vətəndaş cəmiyyətinə xüsusi diqqət yetirilir və bildirilir ki, vətəndaş cəmiyyəti ictimai-siyasi institutlaşmada özünəməxsus funksionallığa malikdir: “Dövlət vətəndaş cəmiyyətinin formalaşmasında maraqlı olmalı və meydana çıxan maneələri aradan qaldırmalıdır. Bunun fonunda liberallaşmaya xüsusi diqqət göstərilməli və legitimləşdirmə ilə liberallaşma paralel surətdə həyata keçirilməlidir”.

Nikos Pulantsas, Kerol Peytmen, Benjamin Barber, Artur Şlezinger kimi nəzəriyyəçi alimlərin təmsil etdiyi partisipator (iştirakçı) demokratiya nəzəriyyəsində isə liberalist prinsiplər üstünlük təşkil edir. Bir çox nəzəriyyəçilər onu liberal demokratiya ilə eyniləşdirirlər və bəhs edilən modelə bu xüsusiyyətləri aid edirlər: fərdlərin azadlığı və bərabərliyi,

demokratik təsisatların formalaşmasında seçkilərin əsas olması və çoxpartiyalı plüralist sistemin formalaşdırılması, aktorlara siyasi fəaliyyət azadlığının yaradılması, qanunların aliliyi, çoxluğun iradəsi və sair. Bundan başqa, bu modeldə fərdlərin qərar qəbulunda iştirakına geniş şəraitin yaradılması xüsusi vurğulanır. Bununla əlaqədar olaraq Artur Şlezinger yazır: **“Siyasi qərarların qəbul edilməsi prosesində cəmiyyətin əsas maraqları diqqətlə nəzərə alınmalıdır ki, buna da yalnız həmin maraqların təmsilçilərinin və ya tərəfdarlarının hakimiyyət sistemində hakim mövqe tutduqları halda nail olmaq mümkündür”.**

Bu modelə əsaslanan nəzəri-konseptual mənbələrdə “sosial inqilab” məfhumundan istifadə edilir ki, bu ifadənin mənası klassik semantikadan uzaqdır. Belə ki, bəhs edilən anlayış müxtəlif vasitələrlə hakimiyyətin devrilməsi və qəsb edilməsi mənasında yox, sivil vasitə və metodlarla demokratikləşməsi anlamında işlədilir. Nəzərdə tutulur ki, demokratikləşmənin fundamental meyarı qüvvələrarası konsensusdur.

Partisipator demokratiya modelində təsbit edilir ki, xalq irrasional toplum deyil və səmərəli idarəetmənin əsasında dayanmaq iqtidarındadır: **“Fərdlər ictimai-siyasi proseslərdə təmsil olunmaqla idarəetmənin təkmilləşməsinə xüsusi töhfələr bəxş etmək gücündədirlər. Beləliklə, xalq bütün proseslər və münasibətlərin fonunda mərkəzi subyekt qismində dəyərləndirilməlidir”.**

Elitar demokratiya modelində isə əks olunur ki, siyasi idarəetmə peşəkar azlıq tərəfindən həyata keçirilməlidir. Xalq idarəetmədə iştirak etməməlidir, çünki idarəetmə nəcib keyfiyyətlərə malik olan azlıq tərəfindən həyata keçirilə bilər. Siyasi qərarların məhdud peşəkar qrup tərəfindən qəbul edilməsi obyektiv strateji zərurətdir. Məhz belə bir təsbitin

fonunda demokratik idarəetmə ilə bağlı başlıca məsələ həmin peşəkar qrupların necə formalaşdırılmasıdır. Beləliklə, demokratiya xalqın razılığı və iradəsi ilə elitanın leqal və legitim idarəetməsidir. Bütün bunların fonunda hər bir cəmiyyətdə iyerarxik strukturların formalaşması obyektiv zərurətə çevrilir. İqtisadi, siyasi, hərbi, maliyyə elitaları yaranır və ayrı-ayrı sahələrdə idarəetmə funksiyasını yerinə yetirirlər.

Beləliklə, yuxarıda nəzərdən keçirdiyimiz demokratiya modellərinin hər biri təcrübi gerçəklik baxımından müəyyən üstünlüklərə və çatışmazlıqlara malikdir. Ən əsası, hər bir model və onun əsasında yaradılmış nəzəriyyə və konsepsiyalar özündə bir və ya bir neçə strateji istiqaməti ehtiva etdiyindən bütövlükdə kompleks məsələləri əhatə etmir və demokratiyanın total mahiyyətini aşkar etməyə yetərli hesab olunmur. Məhz buna görə də, bir çox araşdırmaçılar belə bir mövqedən çıxış edirlər ki, mövcud modellərin siyasi reallığa adekvat surətdə cavab verən əsas prinsipləri və xüsusiyyətlərini seçməklə yeni və daha təkmil model yaradılsın. Bu, elə bir model olmalıdır ki, orada təcrübi gerçəkliklərə müvafiq nəzəri təsbitlər və məsələlər yer alsın və utopik baxışlar sistemi səciyyəsi daşımasın. Məhz belə bir model siyasi praqmatizm nöqteyi-nəzərindən rasional prinsiplər, qanunauyğunluqlar və mental xüsusiyyətlər əsas götürülməklə hazırlana və təcrübi müstəviyə transfer edilə bilinər.

Demokratiya haqqında mövcud fikir və mülahizələrin hamısı bir-birindən elmi, məntiqli, maraqlı və cəlbedici görünsə də, bütün hallarda nəzəriyyəçilərin ya qeyri-səmimiliyi, ya da sonunadək izah edə bilməmələri açıq görünür. Bizim qənaətimizcə, demokratiya haqqında ən kütləvi və ən ümumiləşmiş fikir olan “demokratiya xalqın hakimiyyətidir, yaxud çoxluğun insan hüquqları ilə məhdudlaşdırılmış haki-

miyyətidir” tezisi o qədər də doğru deyil. Xalqın hamısının eyni vaxtda hakimiyyətdə olması praktik baxımdan gülüncdür. Belə olduqda, görəsən, hakimiyyət altında olanlar kim olacaq?

Ona görə də, bu tezis daha çox ictimai ahəngdarlığı və hormoniyanı qorumaq və azlığın (bir qrupun) hakimiyyətini təmin etmək üçün düşünülmüş təbliğata bənzəyir. Demokratiya bütün digər növ cəmiyyət quruluşu modelləri kimi, cəmiyyətin təbii tələbatı olan qrup hakimiyyətini təmin edir. Digər deyilənlər isə siyasi aksesurlardan başqa bir şey deyil. Üstün cəhət isə sadəcə vaxtında seçkilərə getməklə hakim qrupun təzələnməsidir. Hakimiyyətin mütləq məzmunu isə hökm etməkdir. Bu, bütün cəmiyyətlərin yazılmamış ali qanunudur.

Ancaq demokratiya üstün dəyər kimi bu gün daha çox siyasi spekulyasiya vasitəsinə, hətta qlobal güc mərkəzlərinin imperiya maraqlarının reallaşdırılmasına xidmət edən alətə çevrilib. “Demokratiya” mərkəzlərindən ixrac edilən bu cür “genetik modifikasiya olunmuş” demokratiya isə heç də həqiqi demokratiya istəyən xalqların milli maraqlarına uyğun gəlmir. Ancaq “demokratiya bazarı” imperialist “demokratlar”ın inhisarında olduğu üçün “bazar”da başqa “mal”, alternativ yoxdur. Biz mütləq demokratiya adı altında bizə sırınanları almalıyıq. Ona görə də, nəzəriyyəyə çox da aludə olmadan bütün hallarda milli və dövlət maraqları ilə uzlaşmayan demokratiyadan imtina etmək lazımdır. Bizcə, qloballaşan, hamınının bir-birinə bənzədilməsinə çalışılan dünyada milli-mənəvi dəyərlərin qorunmasının ən düzgün yolu budur.

Amma müxtəlif ölkələrin nümunəsində toplanılan empirik faktlar belə bir nəticəyə gəlməyə əsas verir ki, modern

cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsinin fonunda həyata keçirilən demokratik tranzit heç də xətti sabitlik və dinamik inkişafın zəmanət altına alınması mənasına gəlmir. Belə ki, mürəkkəb tarixi situasiyanın fonunda əsası qoyulan tranzit prosesinin milli münasibətlər zəminində davamlılığının təmin edilməsi lazımdır ki, ictimai-siyasi müstəvidə sabitlik, ahəngdarlıq və dinamizm təmin edilsin və reallaşdırılan siyasi-hüquqi islahatlar vasitəsilə milli inkişaf strategiyası mərhələli surətdə həyata keçirilsin. Məhz bundan sonra demokratik tranzitin bütün mərhələlərini reallaşdırmaq mümkündür. Lakin demokratik tranzit ərəfəsində olan bəzi ölkələrdə sistematik strateji tədbirlərin müvafiq tələblərə, qanunauyğunluqlara və reallıqlara adekvat surətdə həyata keçirilməməsi transformasiyanın natamam xarakter almasına səbəb olur. Məhz belə bir situasiyanın fonunda həmin cəmiyyətlərdə demokratik tranzit baş tutmur və transformasiya avtoritarizmdən neoavtoritarizmə keçid formasında təzahür olunur.

Bütün bu elmi-nəzəri müəyyənləşdirmələrə baxmayaraq, "demokratiya" və "demokratik tranzit" məsələsindən real surətdə təsir vasitəsi kimi istifadə edilməkdədir. Daha da dəqiqləşdirsək, modern beynəlxalq münasibətlər sisteminin lokomotiv aktorları, əsasən də Anqlo-sakson ittifaqının nümayəndələri və Avrosentristlər "demokratiya" və "insan haqları" kimi formal institusional məfhumlardan xarici siyasət vasitəsi kimi (xarici siyasətdə ideoloji təsir-nüfuz vasitəsi ) istifadə etməkdədirlər.

Faktdır ki, beynəlxalq münasibətlər sisteminin təcrübi məsələlərlə təsbit edilmiş mühüm nəzəri-empirik gerçəkliklərindən biri də millətlərarası münasibətlərdə ideoloji, siyasi və iqtisadi müstəvidə cərəyan edən proseslərdə ümumbəşəri

dəyərlərin nisbəti və təsiri məsələsidir. O da bir faktdır ki, beynəlxalq münasibətlərin tərəddüdsüz qəbul edilən actorlarından biri olan milli dövlətlərarası münasibətlərdə müəyyən proseslər və olaylarla bağlı sövdələşmə predmeti kimi istifadə edilən vasitələrdən biri də ümumbəşəri səciyyə daşımaq etibarilə demokratiya və onun fundamental prinsipləridir. Ümumiyyətlə, demokratik idarəetmə və düşüncə tərzi daha çox ayrı-ayrı ölkələrə spesifik surətdə aid edilsə də, başqa sözlə, demokratiyaya bir ölkənin daxili idarəetmə səviyyəsi və səciyyəsini xarakterizə etmək üçün istinad edilsə də, beynəlxalq münasibətlər sistemində mütləq mənada demokratiyanın təməl prinsiplərindən bəhs etmək olmaz. Çünki beynəlxalq münasibətlər sistemi və dünya siyasətində aktorların davranışını şərtləndirən, motiv və stimul qismində çıxış edən təməl kateqoriya milli maraq və mənafe anlayışıdır. Qısacası, milli dövlətlərin strateji aktlarının və müvafiq davranış formalarının əsasında daimi və aralıq səciyyə daşıyan milli maraqlar durur.

Amma bütün bunlarla yanaşı, millətlərarası münasibətləri tənzimləyəcək, münasibətlərə dinamizm və ahəngdarlıq bəxş edəcək təməl prinsiplər mövcuddur ki, onlara nisbi və mütləq mənada istinad və əməl edilməsi beynəlxalq münasibətlərin paritet, simmetrik əsasda nizamlanmasına mühüm töhfələr bəxş edir. Bunlara dövlətlərin, millətlərin maraqlarına hörmət edilməsi, onların daxili işlərinə qarışılmaması, milli strategiyaların qarşı tərəfin təhlükəsizliyinə təhdid yaratmasına yol verilməməsi və sair kimi müddəalar aiddir.

Lakin beynəlxalq münasibətlərin modern səciyyəvi xüsusiyyətlərinə nəzər saldıqda müşahidə etmək olur ki, sahib olduqları resurslara və potensial ünsürlərinə görə dünya siyasətinin başlıca tendensiyalarını formalaşdırmaq və yön-

ləndirmək iqtidarında olan bəzi güc mərkəzləri ümumbəşəri səciyyə daşıyan bir sıra dəyərlərdən təzyiq, təsir və müdaxilə vasitəsi kimi istifadə edirlər. Bunların başında isə demokratiya və insan haqları məfhumları gəlir.

II Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində özlərinin milli və transmilli maraqlarını həyata keçirmək üçün ümumi nizamlama formulları ortaya çıxaran imperialist güclər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq hüquq normalarına istinad edilməsi məsələsini aktuallaşdırdılar və bütün bəşəriyyətə aid edilən ümumi normalardan istifadə etməklə, özlərinin geostrateji maraqlarını mərhələli surətdə həyata keçirməyə başladılar. Məhz belə bir strateji aktın və niyyətin fonunda imperialist güclər nəzəri cəhətdən ümumbəşəri səciyyə daşıyan dəyərlərlə müəyyən edilmiş beynəlxalq hüquq normalarını monopoliyaya aldılar və bu normalardan geostrateji hədəflərlə şərtlənmiş imperialist ekspansiyanın ideoloji substratları qismində istifadə etməyə başladılar. Artıq bəhs edilən güc mərkəzləri müxtəlif ölkələrə münasibətdə özlərinin transmilli maraqlarını gerçəkləşdirə bilmədikləri hallarda demokratiya və insan haqları məsələlərindən təzyiq silahı kimi istifadə taktikasına müraciət edirdilər. Başqa sözlə, ümumbəşəri dəyərlər imperialist güclərin timsalında “qılınc” və “qalxan” qismində istifadə edildi. Məhz bunun qanunauyğun nəticəsidir ki, XX əsrin 60-70-ci illərində “demokratiyanın təmin olunması”, “insan haqlarının bərqərar olunması” adları altında müxtəlif ölkələrdə bu və ya digər səviyyəli çevrilişlər edildi və bir sıra ölkələr sözün əsl mənasında xaos və anarxiya meydanına çevrildi. Bundan sonra isə müxtəlif geosiyasi məkanlarda “demokratiya dalğaları” kimi təsvir edilən “demokratik tranzit” proseslərinə start verildi və bu olayların fonunda

qazananlar – idxalçılar yox, ixrac demokratiyasının bərqərar olunduğu ölkələr özlərinin geostrateji maraqları əsasında "demokratiya dalğaları"nı hərəkətə gətirənlər – "ixracatçı"lar oldular. Başqa sözlə, əsasında xarici faktorların dayandığı məlum keçidlər nəhəng güc mərkəzlərinin geosiyasi oyunlarının struktur elementi, tərkib hissəsi səciyyəsi daşıdı.

### 4.2. Beynəlxalq münasibətlər nəzəriyyələri informasiya imperializmi kontekstində ideoloji vasitə kimi

Nəhəng geosiyasi vahidlərdən biri olan SSRİ-nin iflasından sonra yaranmış təkqütblü dünya nizamının fonunda da analoji oyunlar, ssenarilər və planlar davam etdi və demokratiya, insan haqları kimi özündə ümumbəşəri dəyərləri ehtiva edən institusional məfhumlardan müdaxilə və istismar vasitəsi qismində istifadə edildi. Artıq Qərb "Yeni Dünya Düzəni" ("Le Nouvel Ordre Mondial"), "Mondializm" kimi mədəni imperializmə xidmət edən konsepsiyalar meydana gətirməklə geostrateji ekspansiyaları yeni keyfiyyətdə davam etdirdi. Bundan sonra "demokratiya" oyunları ən müxtəlif ölkələrin nümunəsində təzahür etdi.

Beləliklə, Qərbin ifa etdiyi "demokratiya nəğməsi"nin sivil insanların qətlinə, ölkələrin xaosa, böhrana və anarxiyaya sürüklənməsi ilə nəticələnməsi faktı növbəti dəfə sübut etdi ki, dünyanı idarə edən Avroatlantik aktorları "demokratiya", "insan haqları" kimi formal institusional məfhumlardan özlərinin transmilli maraqlarını təmin etmək üçün təsir vasitəsi kimi istifadə etməkdədirlər.

Nəticə etibarilə, beynəlxalq münasibətlər sisteminin tərəddüdsüz aktoru kimi qəbul edilən milli dövlətlərin, eləcə də xüsusi beyin mərkəzlərinin timsalında "demokratiya", "de-

mokratik tranzit", "insan haqları" kimi məfhumlar ideoloji imperializmin xüsusi institusional vasitəsi kimi istifadə edilməkdədir. Bu isə infoimperializmin tərkib hissəsi kimi səciyyələndirilməlidir.

İnfoimperializmin konseptual mənbələrindən birini də "Böyük Ortadoğu və Genişləndirilmiş Şimalı Afrika Projesi" və "Mondializm" konsepsiyaları təşkil edir. Beynəlxalq informasiya şəbəkəsinin hakimləri-infokratlar məhz bu cür konseptual resurslardan konkret transmilli geostrateji məqsədlərin təmin olunması naminə ideoloji-informativ vasitə kimi istifadə etməkdədirlər. Bu prosesdə alət, yaxud silah qismində isə əsas etibarilə sosial media, müxtəlif kütləvi internet resursları ən əsası isə "facebook" və "twitter" çıxış edir.

Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi" ABŞ-ın "Mondializm" və "Yeni Dünya Düzəni" konsepsiyasının təməl strateji detalları əsasında formalaşdırılmış və icrasına start verilmiş imperialist genişlənmə strategiyasının konseptual əsaslarını təşkil etməkdədir. Bəhs edilən layihə 2001-ci ildən aktuallıq qazanan strateji konsepsiyadır. Onun əsasında Yaxın və Orta Şərqi, eləcə də Şimali Afrikanı bütövlükdə ələ keçirərək, "əyalət"ə çevirmək məqsədi durur. Şimali Afrikadan Cənubi Asiyaya qədər olan geniş bir ərazini əhatə edən, böyük bir coğrafiyanı özündə birləşdirən bu konsepsiyanın reallaşdırılması ilə Yaxın və Orta Şərq bilavasitə nəzarət altına alınacaq ki, bu da bütövlükdə Avrasiyanın ələ keçirilməsi demək olacaq və nəticə etibarilə "Avrasiya imperatorluğu" konsepsiyası addım-addım gerçəkləşdiriləcək. Çünki layihə çərçivəsinə 23 ölkə daxildir ki (bəzi mənbələrə görə 27), bunların da hər biri mühüm geosiyasi önəm kəsb edir. Yəni bu konsepsiyanın

reallaşdırılması ilə mühüm sərmayə məkanları – mərkəzləri, bazarlar və strateji tranzit məntəqələr ələ keçiriləcək, geniş mənada isə dünyanın perspektiv enerji ehtiyacını qarşılayacaq bir regionda uzunmüddətli hakimiyyət təmin edilmiş olacaq. Bu hakimiyyət Avroatlantik güc mərkəzlərinin, yəni infoimperialistlərin dörd əsas məqsədinin həyata keçirilməsini təmin edəcək:

– birincisi, ölkədə mövcud olan karbohidrogen ehtiyatları qeyd-şərtsiz infoimperialistlərin nəzarətinə keçəcək;

– ikincisi, gələcəkdə bu ehtiyatların əsas istehlakçısı olacaq Cənubi-Şərqi Asiya ölkələri (Çin, Hindistan, Yaponiya, Koreya, İndoneziya, Pakistan, Malayziya, Banqladeş və s.) bazarı nəzarətə götürüləcək və dolayısı ilə dünya əhalisinin üçdə ikisindən çoxunu təşkil edən insani və intellektual resurslar da nəzarətə götürülmüş olacaq;

– üçüncüsü, Afrika səhraları altında mövcud olan və XXI əsrin əsas konflikt mənbəyi kimi çıxış edəcək içməli su ehtiyatları infoimperialistlərin əlinə keçəcək (Təkcə Liviya səhraları altında 150 milyon kubkilometr şirin su ehtiyatları var. Bu qədər su Nil çayının min il ərzində suyunun həcminə bərabərdir).

– dördüncüsü, qlobal iqlim dəyişikliyi prosesində insan yaşayış məskəni kimi əlverişsiz hala düşəcək Şimali-Qərbi Avropa ölkələrinin xalqları Yaxın Şərq və Şimali Afrikada məskunlaşdırılacaq (hazırda bu məqsədlə Afrikanın yerli əhalidən təmizlənməsinə start verilib. Məsələn, Somali, Haiti, İraq, Suriya, Misir, Keniya və s. ölkələrdə müxtəlif şəkildə və səviyyədə bu proses davam etdirilir). Bununla da ABŞ-ın və Atlantik aktorlarının dənizaşırı imperialist genişlənməsi missiyası yeni keyfiyyətdə davam etdiriləcək. Məhz sadalanan bu detalların və strateji məqsədlərin fonunda açıq şəkildə

təsbit etmək olur ki, bu gün Tunis, Misir, Liviya, Suriya kimi region ölkələrində baş verən hadisələrin konseptual əsasını "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi" təşkil edir. Deməli, dünyanı idarə edən nəhəng güclər bəhs edilən bölgəni monopoliyaya almaq üçün sözügedən əməliyyatları həyata keçirməkdədirlər.

Bu məsələnin infoimperializm çərçivəsində mahiyyəti budur ki, infokratlar sadalanan konseptual mənbələr çərçivəsində icra edilən əməliyyatların beynəlxalq təhlükəsizliyə xidmət etdiklərini bildirirlər. Onların təqdimatına görə, "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi" milli dövlətləri regional və beynəlxalq əməkdaşlığa cəlb etməklə coğrafi təhlükəsizlik və tərəqqini təmin etmiş olur.

Dolayısıyla, sadalanan geosiyasi konsepsiyalar fonunda reallaşdırılan ekspansionalist və imperialist siyasət dünya ictimaiyyətinə fərqli formalarda-beynəlxalq təhlükəsizliyə, milli dövlətlərarası əməkdaşlığa töhfə verən strateji seçim kimi təqdim edilir. Bu isə infoimperializmin struktur elementi kimi çıxış edir. Yəni bu cür konseptual mənbələrin də alt qatında geostrateji maraqlarla şərtlənmiş ideologiya əks olunmuşdur.

"Mondializm" konsepsiyası isə milli dövlətlərin funksionallığını itirməsi ilə mümkün olan "qlobal dövlət"in formalaşması və dünyanın vahid mərkəzdən idarə edilməsi missiyasını özündə əks etdirir. Məhz elə buna görə də, qloballaşma prosesini "Mondializm" konsepsiyasının tərkib hissəsi kimi səciyyələndirmək lazımdır. Bu barədə növbəti paraqraflarda geniş analitik informasiya veriləcəkdir.

Xüsusi diqqət mərkəzində duran başlıca məsələlərdən biri də "Mondializm" və "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi" konsepsiyalarının əsasında və

arxasında duran milli aktorların müəyyənləşdirilməsidir. Bu suala cavab vermək üçün son olaraq, Yaxın Şərq və Şimali Afrikada baş verən olayların fonunda bir sıra məsələlərə toxunmaq məqsədəmüvafiqdir. Beləliklə, Yaxın Şərq və Şimali Afrikada baş verən məlum dağıdıcı proseslər hələ başlanğıc ərəfəsindəykən belə bir dilemmatik sual ön plana çəkilirdi: sözügedən olayların əsasında həmin ölkələrin xalqları dayanır, yoxsa bütün bu proseslər bəzi güc mərkəzləri tərəfindən idarə edilir? Amma hadisələrin gedişatı, baş verən bir sıra hadisələr, irəli sürülən bəyanatlar təsdiq etdi ki, bütöv bir coğrafiyanı ağuşuna alan bu tragikomik proses yenə də – ənənəvi surətdə dünyanın geostrateji konturlarını müəyyənləşdirən güc mərkəzləri tərəfindən həyata keçirilir və bu proseslərin əsasında dayanan təməl motivlər nəhəng actorların transmilli səciyyəli geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji maraqlarıdır. Tragediyanın komik tərəfi isə odur ki, həmin regionun insanları, hətta hadisəni kənardan izləyən geniş dünya ictimaiyyətinin əksəriyyəti, doğrudan da, regionda demokratik hadisələrin baş verdiyinə inanırlar, yaxud inanmağa çalışırlar. Dünya siyasətinin statik və dinamik substratlarını müəyyən və idarə edən sözügedən qüvvələr, əslində, öz aralarında iki böyük qrupda yer alan subyektlərdən ibarətdir. Bunlardan biri formal ittifaq kimi səciyyələndirilən anqlo-sakson birliyinin subyektləri-ABŞ və İngiltərə, digəri isə Avrosentristlər kimi təsvir edilən regional triadadır (Fransa, İtaliya və Almaniya). "Mondializm" konsepsiyası əsasında ortaq razılaşmaya uyğun olaraq hərəkət edən sözügedən Atlantik aktorları özlərinin transmilli maraqları çərçivəsində "Böyük Yaxın Şərq və Şimali Afrika" əməliyyatına start veriblər. "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi" və "Mondializm" konsepsiyalarının mərkə-

zində dayanan lokomotiv aktor və ya “orkestr şefi”isə ABŞ-dır.

Amma qeyd etmək lazımdır ki, Avroatlantik aktorları (Avrosentristlər) ilə anqlo-saksonlar arasında kəskin institusional ziddiyyətlər mövcuddur. Avropada müşahidə olunan sonuncu maliyyə kataklizmləri bu ziddiyyətləri aşkar edən növbəti institusional vasitə oldu. Avrozonada baş verən maliyyə kataklizmlərinin fonunda dövlətlərin istinad etdiyi tədbirlər və atdığı addımlara nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, bu gün də dünya siyasətinə ciddi surətdə təsir edən Avrosentrist - anqlo-sakson qarşıdurması yeni keyfiyyətdə, ənənəvi formada davam edir.

Məlum olduğu kimi, anqlo-sakson ittifaqı ilə Avrosentristlər arasında beynəlxalq münasibətlər tarixinin bir çox mərhələlərində ciddi strateji rəqabət meyilləri mövcud olub. Hər iki qütb arasında daim geostrateji resurslara sahib olmaq və geosiyasi dividendlər əldə etmək uğrunda ciddi mübarizə gedib. I Dünya müharibəsinə qədərki dövrdə pik nöqtəyə qalxan bu mübarizə I və II Dünya müharibəsinin arasındakı tarixdə öz formasını müəyyən qədər dəyişib. II Dünya müharibəsindən sonra isə anqlo-saksonlar geostrateji mənada ciddi üstünlüklər əldə ediblər və hegemon birliyə çevriliblər. Ancaq SSRİ-nin fiaskoya uğraması ilə formalaşan yeni dünya düzəninin fonunda Avrosentristlər də müəyyən dividendlər əldə edərək əhəmiyyətli geostrateji resurslara sahib olublar. Amma bununla yanaşı, hələ də anqlo-sakson hegemoniyası öz mövcudluğunu qoruyub saxlamaqdadır. Eyni zamanda, mövcud mübarizə meyilləri müxtəlif forma və səviyyələrdə özünü göstərməkdədir.

Son olaraq avrozonada baş verən maliyyə kataklizmlərinin fonunda Avrosentrist - anqlo-sakson qarşıdurması və rə-

qabəti aşkar formada təzahür olunub. Belə ki, Avrosentristlərin siyasi və iqtisadi lokomotivi olan Fransa və Almaniya müxtəlif tədbirlər paketi irəli sürməklə həm avrozonanı böhrandan xilas etmək, həm də təmsil etdikləri qütbün mühüm geostrateji dividendlər əldə etməsinə nail olmağa çalışıblar. Buna qarşı olaraq anqlo-sakson cəbhəsinin də müəyyən addımlar atacağını gözləmək olar. Hər halda, perspektivdə bunun şahidi olacağıq.

## V FƏSİL

# Beynəlxalq şəbəkə hakimiyyəti qlobal prosesləri yönləndirən infoelita kimi

### 5.1. Netokratiya yeni növ hakimiyyət forması kimi

Müasir dövrdə ən müxtəlif strateji araşdırmalarda önə çəkilən başlıca kateqoriya və məsələlərdən biri də netokratiya və yaxud "şəbəkə hakimiyyət"dir. XXI əsrdə dünya siyasətində lokal və qlobal informasiya şəbəkələri genişləndikcə, qloballaşma prosesi sürətləndikcə "qlobal dövlət" məsələsi araşdırmaçıların diqqətini daha çox çəkməyə başladı ki, bu da bir sıra yeni tədqiqat məsələlərini aktuallaşdırmış oldu. Bu məsələlər sırasında "şəbəkə hakimiyyəti" (netokratiya) problemi xüsusi yer tutmaqdadır. Bəzi mənbələrdə bu kateqoriya "şəbəkə dövləti" kimi təqdim edilir ki, bu da müəyyən anlaşılmazlıqların və semantik problemlərin meydana çıxmasına səbəb olur. Belə olan halda, araşdırmaçılar "qlobal dövlət"lə "şəbəkə dövləti"ni eyniləşdirir və buradan da yanlış nəticələr hasil olunur. Məhz bu cür eyniləşdirmənin fonunda əhəmiyyətsiz, bir o qədər də lazımsız müqayisələr aparılır. Beləliklə, hər iki məfhumun fərqli və oxşar xüsusiyyətləri ön plana çəkilir. Biz isə bu cür müqayisələrin fonunda, əslində, "şəbəkə dövləti" anlayışının yanlış olduğunu, bu məfhumun doğrusunun "şəbəkə hakimiyyəti" olmasını və gerçəklikdə netokratiyanın qlobal dövlətin struktur elementi kimi çıxış etdiyini isbat edəcəyik.

Beləliklə, qeyd edilir ki, "qlobal dövlət"lə "şəbəkə dövləti" arasında müəyyən oxşar və fərqli xüsusiyyətlər

mövcuddur. Bənzər xüsusiyyətlərdən bəhs edərkən bildirilir ki, "qlobal dövlət" dünya miqyasında təməl resursların sahibi, qlobal "orkestr şefi"dir. Vurğulanır ki, elə "şəbəkə dövləti" də beynəlxalq hakim qismində çıxış edir, eyni zamanda, nəzarət və idarəetmə funksiyasını inhisara almışdır. Amma hər iki təsisatın idarəetmə strategiyası və vasitələrində ciddi fərq vardır. Əgər "qlobal dövlət" dünyanı iqtisadi, siyasi, qlobal inzibati, mədəni, ideoloji və hərbi resurslar vasitəsi ilə idarə edirsə, netokratiya bu missiyanı informasiya silahı vasitəsilə virtual platformada həyata keçirir. Digər tərəfdən, "qlobal dövlət"in fəaliyyət mexanizmində hərbi, siyasi və iqtisadi ekspansiya əsas vəzifə kimi çıxış edirsə, "şəbəkə hakimiyyəti" informasiya axını vasitəsilə yeni lokal və qlobal informasiya şəbəkələri formalaşdırmağa, ən yeni dövrdə informasiyanı əsas resursa çevirməyə çalışır.

Beləliklə, aydın olur ki, əslində, "şəbəkə hakimiyyəti" qlobal dövlətin bir parçasıdır. Çünki imperialist mərkəzlərin dünyanı idarə etmək üçün formalaşdırmağa çalışdıqları monopolist təsisat səciyyəsi daşıyan institut "qlobal dövlət"dir. "Şəbəkə hakimiyyəti" isə yalnız informasiya resursu vasitəsilə bu idarəetməni təkmilləşdirir, yeni növ hakimiyyət forması formalaşdırır. Deməli, netokratiya ayrıca dövlət ola bilməz. Elə bəhs olunan anlayışın etimoloji mənası da bunu deməyə əsas verir. Belə ki, net (network-şəbəkə), kratiya (cracy-hakimiyyət) mənasını verir. Netokratiyanı "şəbəkə dövləti" kimi təqdim etmək demokratiyanın "xalq dövləti" kimi təsvir olunmasına bənzəyir. Hər iki halda təməl yanlışlıq vardır. Çünki demokratiya etimoloji və semantik nöqteyi-nəzərdən "xalq dövləti" yox, "xalq hakimiyyəti"dir.

Bəs "şəbəkə hakimiyyəti" dediyimiz təsisat nədir, onun başlıca funksiyaları nədən ibarətdir?

XXI yüzillik informasiya əsri kimi dəyərləndirildiyindən bu dönəmdə fundamental informasiya resurslarına sahib olan, informasiya axınına nəzarət edən subyektlər həm də dünya siyasətində istiqamətləndirici və tənzimləyici aktor kimi çıxış edirlər. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, modern texnoloji yeniliklərin meydana çıxması, elmi-texniki tərəqqinin sürətlənməsi, lokal və qlobal informasiya şəbəkələrinin mexaniki tərəqqisi, informasiya cəmiyyətinin təşəkkül tapması, internetin imkanlarının genişlənməsi informasiyanın funksiyasını funksionallığını artırmışdır. Bu isə fəaliyyətini informasiya silahı vasitəsilə virtual platformada davam etdirən infokratlar üçün növbəti avantaj kimi çıxış edir.

Qeyd etdiyimiz kimi, infokratlar informasiya vasitəsilə imperialist və transmilli səciyyəli maraqların həyata keçirilməsi missiyasından çıxış etməkdədirlər. XXI əsrin əvvəlində sürətlənən bu proses indiyədək pərakəndə xarakter daşısa da, "şəbəkə hakimiyyəti"nin (ideyanın və bu yöndə praktik icra mexanizmlərinin) meydana çıxmasından sonra müntəzəm və sistematik xarakter almışdır. Daha da dəqiqləşdirsək, infokratlar informasiya hakimiyyətinə institusional forma verərək, özlərinin "hakimiyyət"ini-netokratiyanı formalaşdırıblar. Bu, elə bir hakimiyyətdir ki, burada hakimiyyətin mənbəyi qismində insanlar yox, virtual platformada dövriyyəyə buraxılan informasiya çıxış edir.

Netokratiya internet və digər virtual vasitələrlə qlobal informasiya məkanının formalaşdırılması və bu məkana nəzarət edilməsi ilə öz fəaliyyətini davam etdirməkdədir. Qlobal informasiya məkanı isə kifayət qədər geniş məzmunlu məfhumdur və özündə bir neçə komponenti ehtiva edir. Birincisi, virtual platformadakı qlobal maliyyə axını buraya

aid edilir. Belə ki, müasir beynəlxalq münasibətlər sisteminin səciyyəvi xüsusiyyətlərindən biri olan maliyyə axını, kapital dövriyyəsi virtual platformaya transfer olunur, bununla da qeyri-ənənəvi, yeni bazar münasibətləri formalaşdırılır. Elə transmilli korporasiyaların da fəaliyyət mexanizmində yeni cizgilər meydana çıxır, şəbəkə münasibətləri formalaşır. Bunun da nəticəsinə müvafiq olaraq, virtual münasibətlər beynəlxalq ticari və iqtisadi əlaqələrə təsir edir və əvvəllər sədd kimi çıxış edən milli sərhədlər sıradan çıxarılır.

İkincisi, netokratiyanın fəaliyyətinin fonunda qloballaşma prosesi daha intensiv xarakter alır və yeni məzmun kəsb edir. Beynəlxalq siyasi və iqtisadi münasibətlərdə meydana çıxan virtual çalarlar milli dövlətlərin funksionallığının zəifləməsi ilə müşayiət olunur və ənənəvi milli münasibətlər kardinal dəyişikliklərə məruz qalır. Artıq milli dövlətlərin suverenlik səviyyəsi aşağı düşür, beynəlxalq münasibətlər sisteminin tərəddüdsüz qəbul edilən aktorları olan dövlətlər qəbul və icra etdikləri qərarlarla digər aktorların qərarlarına əvvəl olduğu qədər təsir edə bilmirlər.

Üçüncüsü, netokratların ideoloji siyasəti dünya siyasətində yeni və müəyyən qədər də təhdidedici tendensiyaların meydana çıxmasını şərtləndirir. Daha da dəqiqləşdirsək, informasiya silahı vasitəsilə insanların analitik təfəkkürü, düşüncə qabiliyyəti sıradan çıxarılır, manqurtlaşdırma prosesi davam etdirilir. Eyni zamanda, "şəbəkə hakimiyyəti" informasiyadan inzibati resurs kimi istifadə edir, yeni lokal və qlobal informasiya şəbəkələri formalaşdırır.

Netokratiyanın istifadə etdiyi əsas vasitələrdən biri qismində sosial media çıxış edir. Ümumiyyətlə, sosial media insanlar arasında virtual internet mexanizmləri vasitəsilə sosial ünsiyyət yaratmaq və məlumatları paylaşmaq deməkdir

ki, bu da ünsiyyəti daha əlçatan və veb əsaslı texnologiyalardan istifadə etməklə interaktiv dialoqa çevirir. Nəticə etibarilə, sosial mediadan istifadə olunması kütləvi xarakter daşıyır və bu sektor netokratların fəaliyyəti üçün əlverişli zəmin hesab olunur. Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya (xəbər) saytları, sosial şəbəkələr, bloqlar, mikro bloqlar, ani ünsiyyət proqramları, forumlar, agentliklər və s. daxildir.

"Şəbəkə hakimiyyəti"nin istinad etdiyi resurslardan biri də əsrimizin başlıca virtual məkanlarından biri olan sosial şəbəkələrdir. Sosial medianın tərkib hissəsi kimi çıxış edən bu şəbəkələr açıq, nəzarətsiz və bir o qədər xaotik informasiya mübadilələrini şərtləndirir, ideoloji təsir dairəsinin kifayət qədər genişlənməsinə şərait yaradır və bir nöqtədə milyonlarla obyekti birləşdirir.

Əlbəttə ki, sosial medianın bu cür geniş imkanlara malik olması netokratları bu istiqamətdə xüsusi fəaliyyətə sövq edir. Hətta dünya siyasətində lokomotiv aktor kimi çıxış edən milli dövlətlər (əsasən Qərb dövlətləri) sosial şəbəkələrin fəaliyyət mexanizminin təkmilləşməsinə xüsusi diqqət yetirirlər. Bunun üçün sosial şəbəkələrin maliyyələşdirilməsi üçün xüsusi fondlar yaradılır, külli miqdarda maliyyə vəsaiti ayrılır.

Netokratiyadan bəhs edərkən, toxunulması zəruri olan başlıca məsələlərdən biri də infoelita və yaxud şəbəkə aristokratiyasıdır. Netokratiyanın təşəkkül tapması, beynəlxalq əlaqələrin və proseslərin virtual platformaya transfer olunması yeni elita növünün-infoelitanın formalaşmasını şərtləndirib. Müasir dövrdə virtual resurslardan istifadə etməklə, "dünya hörümçək toru"na nəzarəti həyata keçirən şəbəkə aristokratları "qlobal dövlət"in məmurları qismində çıxış etməkdədirlər.

## 5.2. Qlobal dövlət və qloballaşma prosesi infoimperializm kontekstində; xüsusi analitik təhlil

İnfoimperializmdən bəhs edərkən, diqqət mərkəzinə çəkilməsi lazım olan başlıca məsələlərdən biri də qloballaşmadır. Yeni dünya düzəninin fonunda iqtisadi imperializm ön planda olarkən qloballaşma prosesi daha çox iqtisadi xarakter kəsb edir, özünün klassik xüsusiyyətlərini daşıyırdı. Amma iqtisadi imperializmin arxa, infoimperializmin isə ön plana keçməsiylə qloballaşma tendensiyasında müəyyən dəyişikliklər baş verdi, proses yeni keyfiyyət çalarları əsasında davam etməyə başladı. Məhz bu dəyişikliklərə keçməmişdən öncə qloballaşmanın klassik mənada təməl səciyyəvi xüsusiyyətlərinə və bu istiqamətdə araşdırmaçıların qənaətlərinə nəzər yetirmək, bundan sonra müqayisə metodu əsasında analitik nəticələr hasil etmək məqsədəmüvafiqdir.

Beləliklə, qloballaşma prosesi müasir dünya siyasəti və beynəlxalq münasibətlər sisteminin başlıca tendensiyalarından biri hesab edilir. Məhz buna görə də, bu problem müxtəlif strateji araşdırmaların fundamental tədqiqat obyekti kimi çıxış etməkdədir. Qloballaşma yeni proses olmayıb, tarixin müxtəlif dövrlərində bu və ya digər səviyyə və formada təzahür etmişdir. Qloballaşma anlayışından ilk dəfə beynəlxalq iqtisadi proseslər və münasibətlər üzrə nüfuzlu araşdırmaçı-analitik Teodor Levit 1983-cü ildə "Harvard business review" ("Harvard biznes icmalı") jurnalında çap edilən "Bazarların qloballaşması" məqaləsində istifadə etmişdir. O, qloballaşma dedikdə, ayrı-ayrı transmilli korporasiyaların istehsal etdikləri məhsulların bazarlarda bir-birinə qovuşması-sağlam rəqabət əsasında qarşılıqlı inteqrasiyası prosesini ifadə etmişdir. Lakin bu yanaşma sistematik deyildi və qloballaşma prosesini

sadəcə bir aspektdən-bazar məhsullarının inteqrasiyası formasında ifadəsi səciyyəsi daşıyırdı. 1987-ci ilə qədər isə ABŞ Konqresində adında "qloballaşma" məfhumu işlədilən heç bir kitab haqqında məlumat yox idi.

Qloballaşma anlayışına və prosesinə akademik status verilməsi və müxtəlif sahələri özündə ehtiva edən proses kimi yanaşılması araşdırmaçı - sosioloq Roland Robertsonun adı ilə bağlıdır. R.Robertson ilk dəfə olaraq qloballaşma prosesinə tarixi aspektdən yanaşmış və onun müxtəlif mərhələlərdən keçərək bugünkü formaya gəldiyini bildirmişdir. Sosioloq qeyd etmişdir ki, qloballaşma prosesi XV əsrdən sistematik olaraq start almışdır. Qloballaşmanın beş mərhələdən keçdiyini bildirən Robertson vurğulamışdır ki, bu prosesdə təzahür edən hər bir mərhələ özündən əvvəlkindən daha mürəkkəb və rəngarəng olmuşdur. Ümumilikdə isə tədqiqatçının gəldiyi yekun qənaət ondan ibarətdir ki, qloballaşma adlanan prosesin mahiyyəti budur ki, bu proses dünyanın inteqrasiya olunmuş - "birləşmiş" halıdır.

Qloballaşma nəticəsində mədəni baxımdan fərqli toplumların artıq funksional olaraq bir bütöv halına gəldiyini bildirən Robertson qloballaşmanı təbii-tarixi və zəruri proses kimi dəyərləndirir və bu prosesin mütəmadi qaydada daha uzun müddət davam edəcəyini bildirir.

Qloballaşma problemi və prosesini fundamental səviyyədə araşdıran digər bir tədqiqatçı Antoni Hiddensdir. A.Hiddens qloballaşma prosesinə zaman və məkan məfhumlarını əsas tutaraq yanaşmağa üstünlük verir. O qeyd edir ki, qloballaşma ilə əlaqədar olaraq zaman və məkan məfhumları müəyyən bir bölgəyə bağlı olmaqdan çıxmış və bütün dünya dövlətlərinin, millətlərin müştərək əsasda istifadəsinə verilmişdir: "Texnologiyanın inkişafı, istehsalın sürətlə artımı,

sərhədlərin “ərimәsi” istər-istəməz millətlərarası əlaqələr və münasibətləri daha da sıxlaşdırmışdır”.

A.Hiddensin fikrincə, qloballaşma prosesinin fonunda millət və milli dövlət məfhumları getdikcə öz önəmini itirməyə başlayır. O qeyd edir ki, sərhədlərin aradan qaldırıldığı bir zamanda dövlətlərarası münasibətlər yeni forma almağa başlayır: “Qloballaşma prosesinin fonunda qlobal mənada qarşılıqlı asılılıqların yeni formaları meydana çıxır. Belə ki, qloballaşma nəticəsində yeni və geniş əhatəli risklər yaranır, eləcə də bütün dünya və hər bir ölkə üçün uzunmüddətli transformasiya imkanları formalaşır”.

A.Hiddens belə bir fikri əsas tutur ki, qloballaşma gücün və təsir mexanizminin lokal və regional qüvvələrdən alınıb qlobal aktorlara verilməsidir. O bildirir ki, qloballaşma müasirləşmə və inteqrasiya tələbatının və zərurətinin fonunda ortaya çıxan uzunmüddətli prosesdir. Bunun ardınca araşdırmaçı vurğulayır ki, qloballaşma təkistiqamətli proses deyil. “Bu proses özündə siyasi, iqtisadi, hərbi, ideoloji istiqamətləri ehtiva edir”,-deyə araşdırmaçı vurğulayır.

Bunlarla yanaşı, Antoni Hiddens qeyd edir ki, qloballaşma müasirləşmənin fonunda ortaya çıxan təbii prosesdir. Onun fikrincə, bu proses iqtisadi, siyasi və mədəni forma və müstəvidə təzahür edir. Hiddens qloballaşmanı “gecikmiş müasirlik” adlandırır. O bildirir ki, qloballaşma millətlər arasında baş verməsi zəruri olan real təbii-tarixi prosesdir. Bu yanaşma onu Roland Robertsonla eyni mövqeyə gətirir.

Qloballaşma problemini fundamental araşdırmaların tədqiqat obyektinə çevirən digər bir araşdırmaçı İmmanuel Vallerstayndır. İ.Vallerstayn qloballaşmaya iqtisadi nöqteyi-nəzərdən yanaşmışdır. Tədqiqatçı qloballaşmanı kapitalist dünya iqtisadiyyatının qloballaşması kimi səciyyələndirib.

Onun yanaşmasına görə, qloballaşma kapitalist sərmayənin axımı və beynəlxalq inteqrasiya və asılılığın güclənməsidir. O qeyd edir ki, qloballaşma bərabərsizliyi yaradan və gücləndirən prosesdir. Vallerstaynın yanaşmasına görə, qloballaşma prosesinin əsas meyilləri məhz bunlardır: iqtisadi münasibətlərin inteqrasiyası və intensivləşməsi, qlobal və regional bazarlar uğrunda savaşların və rəqabətin güclənməsi, iqtisadi böhranların mütəmadi qaydada baş verməsi, iqtisadi qruplaşmaların yaranması, sərmayə axımı və artımının daha da güclənməsi, transmilli korporasiyaların fəaliyyət dairəsinin genişlənməsi və s.

Vallerstayn bildirir ki, artıq qloballaşma prosesi olduqca sürətlənib və bütün dünya ölkələrini əhatə etməkdədir. Onun yanaşmasına görə, son 400 ildə Avropanı əhatə edən sistemdən bütün dünyanı əhatə edən qlobal sistemə keçid alınıb. Vallerstayn bildirir ki, bu prosesin və tendensiyanın fonunda "əyalət dövlətləri" inkişaf edə bilməmiş və daha çox "vassal" qismində çıxış etmişlər. Vallerstaynın qənaətincə, iqtisadi qloballaşma ölkələr arasında və ölkənin öz daxilində bərabərsizliyə səbəb olur, beynəlxalq rəqabət qabiliyyəti isə dövlətlərin və beynəlxalq sistemin digər iştirakçılarının bu problemlə məşğul olması imkanlarını məhdudlaşdırır. Qloballaşmanın müasir mərhələsi kapitalist dünya sisteminin sonuncu "durğunluq" mərhələsi kimidir.

Martin Kher isə qeyd edir ki, qloballaşma əsrlər boyu üçüncü dünya ölkələrində mövcud olan müstəmləkəçiliklə eyniləşdirilməlidir. Onun fikrincə, qloballaşma prosesi qaçılmaz və zəruri prosesdir. Müəllif bildirir ki, qloballaşma bir növ imperializmdir. Bu imperializm dünya xalqları üzərində nəzarət və təsir mexanizmlərini ələ almağa çalışan qlobal aktorların strateji planlarının bir elementidir.

David Held və Toni Mc Gryu kimi araşdırmaçılar isə hesab edirlər ki, qloballaşma sosial münasibətlər və əməliyyatların məkanca təşkilinin transformasiyasını əhatə edir. Onların yanaşmalarına görə, qloballaşma prosesinin fonunda inteqrasiya tendensiyasi daha da intensivləşir və milli kimliklər qlobal kimliyə çevrilir. Qloballaşma kapitalizmlə birlikdə ortaya çıxıb və bir qrup aktorların mərkəzində dayandığı uzunmüddətli tendensiyadır.

Türkiyəli araşdırmaçı Suat İlhan isə belə bir fikir ifadə edir ki, qloballaşma bizdən minilliklərə söykənən mədəniyyət və mentalitetimizi dörd əsrlik tarixə sahib olan Amerika mədəniyyətinə dəyişməyi tələb edir. O qeyd edir ki, qloballaşma Amerikanın siyasi, iqtisadi və mədəni hegemonluğuna hesablanıb. Onun fikrincə, qloballaşma nəticəsində orta əsr müstəmləkəçiliyi yeni formada təzahür etməkdədir. Bu proses heç də bütün millətlər üçün parlaq və arzuolunan perspektiv vəd etmir. Qloballaşma hazırki dünya düzəninin fonunda artıq qaçılmaz prosesə və şərtə çevrilib: "Qloballaşma prosesi yeni dünya nizamının başlıca tendensiyalarının birincisidir. Milli dövlətlərin suverenliyinin zəiflədilməsinə və sərhədlərin aradan qalxmasına gətirib çıxaran bu proses qlobal kapital dövriyyəsi və sərmayə axımının bir əldə cəmləşməsi ilə nəticələnir".

Bir çox araşdırmaçılar isə qloballaşma ilə imperializmin eyni mahiyyət kəsb etdiyini bildirirlər. Çünki hər ikisi eyni istiqamətləri (siyasi, iqtisadi, mədəni və s.) ehtiva edir, ortaq xüsusiyyətlərin daşıyıcısı kimi səciyyələndirilir. Bu yanaşmanın nə qədər əsaslı olduğunu müəyyənləşdirmək üçün bu prosesin başlıca istiqamətlərinə nəzər yetirmək məqsədəmüvafiqdir.

Beləliklə, qloballaşmanın müxtəlif sfera və istiqamətləri mövcuddur ki, bunların hər birinin ayrılıqda təhlil və izah edilməsi strateji önəm kəsb edir. Bu proses struktur baxımından çoxölçülü tendensiya kimi qiymətləndirilir. Məhz buna görə də, qloballaşma prosesi 3 başlıca sahə və sferanın fonunda təzahür edir. Yəni bu tendensiya daha çox 3 istiqamətdə cərəyan edir və ya bu prosesin üç başlıca sahəsi fərqləndirilir: iqtisadi, siyasi və mədəni qloballaşma. Əslində, iqtisadi, siyasi və mədəni qloballaşma bir-birindən ayrı mövcud olmayıb, tamın-sistemin ayrı-ayrı zəruri elementlərini təşkil etməkdədirlər. Çünki qloballaşma iqtisadi, siyasi və mədəni istiqamətləri əhatə etməklə vahid strateji məqsədə xidmət edir: konkret aktorlar tərəfindən vahid mərkəzdən vahid qanunlar əsasında dünyanın idarə edilməsi və ya "qlobal dövlət"in formalaşdırılması...

Qloballaşmaya iqtisadi proses kimi yanaşanlar və ya iqtisadi qloballaşmanı ön plana çəkən tədqiqatçılar bildirirlər ki, qloballaşma, əslində, iqtisadi tələbatların ödənilməsi və ticari maraqların təmin olunması üçün dünyanı idarə edən güclər tərəfindən ortaya çıxarılmış ssenaridir. Bu ssenari kapital dövriyyəsinin və sərmayə imkanlarının vahid əldə cəmləşdirilməsi üçün nəhəng iqtisadi aktorlara geniş imkanlar verir. Qloballaşma, əslində, dövlətlər və iqtisadi institutlar arasında əmək bölgüsünün dərinləşməsi və formalaşmasının fonunda ortaya çıxan real prosesdir.

Tədqiqatçılar bildirirlər ki, qloballaşma ticari-iqtisadi münasibətlərdə vahid standartların yaranması, istehsal, isthelak və ticarətin unifikasiyasıdır. İqtisadi qloballaşma şəraitində dünyada ucuz işçi qüvvəsi, ucuz xammal, istehlak, istehsal xərclərinin azaldılması və satış bazarlarının ələ keçirilməsi uğrunda kəskin rəqabət və mübarizə gedir. İqtisadi qloballaş-

manın fonunda, ilk növbədə, iqtisadi inteqrasiya baş verir və investisiyaların, sərmayələrin daha geniş ərazilərə yayılması baş tutur. İnvestisiya o ölkələrə yönəldilir və istehsal o ölkələrdə təşkil olunur ki, orada əməkhaqqı aşağı, xammal ucuz, vergilər, sosial ayırmalar, ekoloji və istehsal xərcləri çox cüzidir. Bundan başqa, qloballaşma sənayeləşdirmə dövründə mövcud olan beynəlxalq əmək bölgüsünü bütövlükdə dəyişir. Əvvəlki sənaye mərkəzləri intellektual texnologiya mərkəzlərinə, xammal və ucuz işçi qüvvəsinə malik olan ölkələr isə sənaye mərkəzlərinə çevrilirlər. İqtisadi qloballaşmaya həsr olunan tədqiqatlarda kapitalist dünya iqtisadiyyatının qloballaşması amili ön plana çəkilir. Bu yanaşmaya görə, qloballaşma kapitalist sərmayənin axımı və beynəlxalq inteqrasiya və asılılığın güclənməsidir. İqtisadi sahəni qloballaşmanın əsas istiqaməti hesab edən araşdırmaçılar qeyd edirlər ki, iqtisadi qloballaşmanın ən bariz təzahür forması bazarlar uğrunda nəhəng ticari aktorların mübarizə aparmasıdır. Məhz bu cür rəqabət və mübarizənin nəticəsidir ki, dünyada qlobal miqyasda fəaliyyət göstərən nəhəng iqtisadi qruplaşmalar yaranıb və fəaliyyət göstərməkdədirlər. Bu cür qruplaşmalar sırasında xüsusi fəaliyyət mexanizminə malik olan aktorlar kimi çıxış edən Transmilli Korporasiyalar (TMK) da yer alırlar. TMK-lar bazarın, istehsalın və istehlakın xüsusiyyətlərinə, strukturuna müvafiq olaraq, dünya miqyasında fəaliyyət göstərmək iqtidarındadırlar. Məsələn, Cənubi Koreyaya məxsus olan məşhur "Samsung" korporasiyası özünün illik 200 milyard dollarlıq dövriyyəsi ilə dünyanın 66 ölkəsində 340 bölmə qurmuş və bütün dünyada istehsal olunan rəngli monitor və kineskopların 17 faizini, videomaqnitofonların 11 faizini, mikrodalğalı sobaların isə 18 faizini istehsal edir. Bundan başqa, böyük beynəlxalq korporasiyalar bütün özəl sektorun

aktivlərinin 35 faizindən çoxunu öz əllərində cəmləşdiriblər. Əmək və resurs bölgüsü elə şəkildə təşkil edilib ki, bütün dünya bir neçə bəlli ölkənin nəqliyyatından, başqa bir neçə ölkənin yanacaq resurslarından, üçüncü qrup ölkələrin isə tələbat mallarından istifadə edirlər. Bundan başqa, milli dövlətlər müxtəlif transmilli korporasiyalardan, iqtisadi institutlardan istifadə edərək digər dövlətlərin iqtisadiyyatına təsir etməyə çalışır, bununla da öz mövqelərini və ticari əsaslarını möhkəmləndirməyə çalışırlar. İqtisadi cəhətdən güclü təsiretmə mexanizmlərini öz əllərində cəmləşdirən milli dövlətlər hökumətdənkənar iqtisadi institutlar olmadan və onların güclərindən istifadə etmədən iqtisadi mövqeyini istənilən səviyyədə gücləndirə bilmir. Buna görə də, həmin dövlətlər başqa ölkələrin iqtisadiyyatına əsaslı şəkildə təsir etmək və özünün ticari təsir imkanlarını gücləndirmək üçün bir sıra tədbirlər görürlər:

Öncə həmin ölkədə özünün ticari təşkilatlarının, banklarının və iqtisadiyyatının təsiretmə imkanlarını artırır və mövqeyini gücləndirir. Bunun ardınca konkret dövlətin iqtisadi maraqlarını ifadə edən iqtisadi institutlar transmilli xarakter almağa başlayır. Məsələn, BP şirkətinin Azərbaycan bazarına girməsi ilə artıq ARDNŞ də öz fəaliyyətini xaricə açmış, Türkiyədə, Gürcüstanda, Ukraynada investisiyalar qoymağa başlamışdır. Bu kimi faktlara istinad edərək qeyd edə bilərik ki, qlobal miqyasda fəaliyyət göstərən nəhəng və məşhur maliyyə institutları da iqtisadiyyatın və iqtisadi münasibətlər sisteminin qloballaşması kimi strateji məqsədi özlərinin fəaliyyət mexanizminin nəzəri və təcrübi prinsipi kimi götürürlər. Məsələn, qlobal miqyasda fəaliyyət göstərən Ümumdünya Ticarət Təşkilatının (ÜTT) formalaşdırılması və fəaliyyəti bir məqsədə xidmət edir. Bir sıra analitiklər və araşdır-

maçılar ÜTT-ni "oliqarxlar klubu" adlandırırlar. Təşkilatın fəaliyyət prinsipi budur ki, ticari qurumların dünya miqyasında fəaliyyətinə mane olan sədlər və əngəllər aradan qaldırılsın. Təşkilata üzv dövlətlər gömrük rüsumlarını mümkün olduğu qədər azaltmalı, xarici şirkətlərin öz xidmət və personalı ilə fəaliyyət göstərməsinə əngəlləri aradan qaldırılmalı, dövlətin milli iqtisadiyyata yardımı ləğv edilməlidir. Bundan başqa, ÜTT ölkələri iqtisadi cəhətdən yoxsul ölkələri təşkilata məmnuniyyətlə dəvət edirlər. Çünki bunun nəticəsində nəhəng aktorlar yenicə üzvlüyə qəbul olunmuş kasıb dövlətlərin bazarlarını inhisara alırlar. Məsələn, bildirirlər ki, Tanzaniyanın bütün şirkətləri Almaniyada yerli şirkətlər kimi fəaliyyət göstərə bilər. Onsuz da bəllidir ki, Afrika şirkətləri "Siemens" ilə rəqabət apara bilməyəcək. Lakin bunun nəticəsində "Siemens" Afrika bazarına girir və oradakı iqtisadi qurumları müvafiq sahədən çıxarır. Beləliklə, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu kimi təşkilatlar iqtisadi qloballaşmanı sürətləndirəcək mexanizm rolunu oynayırlar. Nəticə isə nəhəng dövlətlərin xeyrinə olur. Çünki iqtisadi cəhətdən güclü aktorlar qlobal kapital dövriyyəsinə nəzarət edir və başlıca yatırım ərazilərini öz əllərində cəmləşdirirlər. Deyilənlərdən aydın olur ki, qloballaşma dünya iqtisadiyyatı sistemində inteqrasiya meyillərini sürətləndirən və postmodernist nizam formalaşdıran yeni və daha əhatəli prosesdir. Ümumiyyətlə, iqtisadi qloballaşmaya aşağıdakı statik və dinamik amillər, hallar aid edilir:

1. Kapitalın yerdəyişməsinin sıçrayışla artması;

2. Bütün ölkələrin Ümumdaxili məhsulunun (ÜDM) artımı ilə müqayisədə beynəlxalq ticarətin qabaqlayıcı artımı;

3. Sürətli şəkildə standartlaşdırılmış və vahid formaya salınmış məhsulların buraxılması üzrə güclərin paylanması yolu ilə beynəlxalq istehsal şəbəkəsinin formalaşdırılması;

4. Bir çox əməliyyatların operativ əsasda yerinə yetirildiyi qlobal maliyyə bazarının yaradılması;

5. Maliyyə sahəsinin sənaye, kənd təsərrüfatı, infrastruktur xidmət sahələrinin inkişaf imkanlarını qabaqlayan müstəqil və daha geniş sahəyə çevrilməsi;

6. Telekommunikasiya sahəsinin inkişafı hesabına praktik olaraq maliyyə bazarlarında baş verən ən son yeniliklər barədə geniş informasiyaların yayılması;

7. Transmilli şirkətlərin birləşdirilməsi və ələ keçirilməsi hesabına  qlobal iqtisadi sistemdə yeni və daha güclü subyektlərin ortaya çıxması;

8. Yeni texnologiyaların tətbiqinin təsiri ilə əmək bazarının daha da genişlənməsi və onun strukturunun dəyişməsi: Bu dəyişmə inkişaf etmiş dövlətlərdə kütləvi miqrasiyaya gətirib çıxarır və İEÖ-lərin əhalisinin ənənəvi etnik tərkibi nəzərə çarpacaq dərəcədə dəyişir;

9. Öz mənşəyi etibarilə gəlirlərin paylanması üzrə meta-infrastrukturun meydana çıxması sənaye cəhətdən inkişaf etmiş Şimal ölkələrinin lehinədir. Bu paylanmaya bariz misal "qiymətlərin qayçılanması"dır: xammalın qiyməti ilə hazır məhsul arasındakı fərq artımı. İqtisadi fəaliyyətdə qlobal vergi olması etibarilə bu cür paylanmanın Şimal dövlətlərinin xeyrinə olması geoiqtisadi rentabelli ödənişlərə görədir;

10. Dünya iqtisadiyyatı çərçivəsində onun xüsusiləşmiş seqmentlərinin konturları görünür:  mədəni-tarixi kodlarla, təsərrüfat fəaliyyəti tərzi, ümumi sosial-iqtisadi faktorlar birləşmiş spesifik "böyük məkan";

11. Dünya sisteminin “iqtisadi plüralizmi” 3 əsas mərkəzdə formalaşır: ABŞ-ın himayəsi altında Şimali və Cənubi Amerika, Avropa İttifaqının (Aİ) himayəsi altında Avropa və Yaponiyanın himayəsi altında Cənub-şərqi Asiya (19, s.669-671). Bundan başqa, iqtisadi qloballaşmadan bəhs edərkən, iqtisadi inteqrasiya və genişlənmələri də diqqətə çatdırmaq lazımdır. Bir sıra araşdırmaçılar inteqrasiya və genişlənmə mövqeyindən yanaşaraq qeyd edirlər ki, iqtisadi qloballaşma bir növ iqtisadi imperializmin müasir formasıdır. Hans Morgentaonun qənaətincə, iqtisadi qloballaşma imperialist siyasətin və genişlənmənin təzahür formasıdır. Onun fikrincə, iqtisadi qloballaşma kapitalist genişlənmə dövrünün məcburi nəticəsidir. Tədqiqatçı belə bir fikir ifadə edir ki, iqtisadi qloballaşma gücdən istifadə etmədən başqa bir dövlət üzərində hakimiyyət qurmaqda ən təsirli vasitədir. O bildirir ki, eyni dövlət üzərində iki başqa dövlətin hakimiyyət qurmaq uğrunda rəqabətə və mübarizəyə başlaması zamanı iqtisadi qloballaşma daha aydın şəkildə nəzərə çarpır. İran üzərində imperialist İngiltərə və Rusiya arasında 100 ildən çox müddətdə hakim olmaq uğrunda mübarizə aparılması deyilənlərin bariz təsdiqi və sübutudur. H.Morgentao bildirir ki, başqa dövlətlər üzərində üstünlük və güclü təzyiq mexanizmi əldə etmək istəyən dövlətlər bu məqsədlə yerli hakimiyyət orqanlarını iqtisadi inteqrasiya və asılılıq yolu ilə nəzarət altına alırlar. Məsələn, Orta Amerika ölkələrinin hamısının müstəqil dövlətlərə məxsus atributları vardır. Lakin bu dövlətlərin hamısı iqtisadi cəhətdən tamamilə ABŞ-dan asılıdırlar. Buna görə də, həmin dövlətlər xarici siyasi və iqtisadi strategiyalarını bir növ ABŞ-ın strateji məqsədləri və istəklərinə müvafiq qururlar.

Qloballaşmanın digər təzahür sahəsi siyasi qloballaşmadır. Ümumiyyətlə, bir çox araşdırmaçılar qloballaşmanın özü-

nü iqtisadi motivlərə söykənən siyasi tendensiya adlandırırlar. İ.Vallerstayn, P.Samuelson, C.Neysbit, M.Ross, H.Bekker, U.Kristofer kimi araşdırmaçılar qeyd edirlər ki, siyasi qloballaşma bir növ "qlobal imperatorluq" qurmaq uğruna ortaya çıxarılmış ssenaridir. Onların qənaətincə, tendensiyadır. Burada əsas məqsəd iqtisadi, siyasi, hərbi, ideoloji və mədəni mexanizmlərin və proseslərin "vahid əllər"də cəmləşdirilməsidir. Mərkəzi aktor qismində isə, heç şübhəsiz, ABŞ və onun Qərbi Avropadakı lokomotiv tərəfdaşları (İngiltərə, Fransa, Almaniya və İtaliya kvarteti) çıxış edirlər. P.Berger bildirir ki, dünyanın nüfuzlu araşdırmaçılarının yekun qənaəti odur ki, siyasi qloballaşma Amerikanın siyasi və iqtisadi hegemonluğunun bariz ifadəsidir. Sadalananlarla yanaşı, qloballaşma şəraitində müasir beynəlxalq siyasi və iqtisadi nizamın əsaslarını araşdıran "Rəqabətin sədləri" kitabının müəllifləri bildirirlər ki, siyasi qloballaşma dünyanın siyasi və iqtisadi mənzərəsini aşağıdakı formada düzənləyir:

1. Dünyada yeni müharibə gedir, bu, atəşsiz və silahsız müharibədir. Bu müharibə dünyanı idarə etmək uğrunda aparılan güc mücadiləsidir. Bu müharibə qlobal hakimiyyət uğrunda aparılan "psixoloji-ideoloji müharibə"dir;

2. Dünyanı idarə edən mərkəzi aktorlar-Qərb transmilli korporasiyalardan istifadə edərək, iqtisadi, dolayısıyla da siyasi mexanizm və rıçaqları öz əllərinə alır. Onların nəzarətində olan TMK-lar dünyaya vahid qlobal bazar kimi baxır və qlobal iqtisadi nizama və proseslərə nəzarət edirlər;

3. Qloballaşma rifah halına görə dövlətlər arasında uçurumun genişlənməsi təhlükəsi yaradır. Bu şəraitdə öz sərəncamında yeni texnologiya və ucuz, amma operativ işçi qüvvəsi olan dövlətlər mühüm imkanlar qazanırlar.

Digər tərəfdən, siyasi qloballaşma şəraitində milli dövlətlərin ənənəvi qaydada mövcudluğu və suverenliyi sual altına alınır. Çünki "dünya hökuməti" formalaşdırmaq yönündə strateji addımlar atan və qlobal siyasi-iqtisadi mexanizmləri öz əllərində cəmləşdirən aktorlar (ABŞ və Qərbi Avropanın lokomotiv dövlətləri) milli dövlətlərin suverenliyini özlərinin "qlobal hakimiyyət"lərinə əngəl kimi görür və onları özlərinin "əyalətləri"nə çevirmək yönündə müvafiq tədbirlər həyata keçirirlər. Qloballaşma tərəfdarları belə bir fikir irəli sürürlər ki, artıq "milli dövlətlər erası" özünün sonuna yaxınlaşmışdır: "Postmilliqayda-qanun homogen fərdlər (milli dövlətlərin müasir sistemi) sisteminə deyil, heterogen fərdlər arasındakı sistemə təsir göstərəcək (bəzi sosial şirkətlər, maraq qrupları, peşəkar birliklər, qeyri-hökumət təşkilatları, silahlı birləşmələr, hüquqi strukturlar və s.)".

"Qlobal hökumət" yaratmaq niyyəti və məqsədində olan Qərbin "beyin mərkəzləri"ndə hazırlanan nəzəriyyə və konsepsiyalarda milli dövlətlərin mövcudluğu transmillilik və qlobalizmin aşağıdakı təzahürləri ilə dağıdılır:

1. Beynəlxalq maliyyə bazarlarının formalaşdırılması;
2. Kapitalın və biznesin beynəlmiləlləşməsi;
3. Açıq qlobal informasiya şəbəkəsinin ortaya çıxarılması;
4. Millətlərin öz müqəddəratını təyin etməsi və s.

Deyilənlərdən aydın olur ki, siyasi qloballaşma milli dövlətlər arasındakı sərhədlərin "əridilməsi"ni həyata keçirən transmilli tendensiyadır. Siyasi qloballaşma şəraitində milli maraq məfhumu və prinsipi ikinci plana atılır, bununla da transmilli strateji hədəflər və maraqlar ön plana çəkilir. Buna müvafiq olaraq hər hansı bir milli dövlətin milli maraqlarının təmin olunması özlüyündə avtomatik olaraq "qloballaşma

oyunu"nun ssenaristlərinin transmilli maraqlarının təmin olunması ilə ayrılmaz bağlılıq kəsb edir. Məsələni bu rakursdan qiymətləndirən F.Kratoçvil qeyd edir ki, qloballaşma tendensiyasının fonunda "milli maraq" "ictimai maraq"dan, "transmilli maraq" isə "milli maraq"dan daha üstün önəm kəsb etməyə başlayır. Onun yanaşmasına görə, "milli maraq" fenomeni beynəlxalq münasibətlər sisteminin aparıcı prinsipidirsə, qloballaşma tendensiyasının intensivləşdiyi zaman və məkan şəraitində artıq "transmilli maraq" daha qabarıq və təsirli mahiyyətə malikdir: "İctimai maraq anlayışından daxili etirazlara qarşı nemətin, sərvətin artırılması məqsədilə istifadə edilib. "Milli maraq" anlayışından xarici siyasi strateji məqsədlərin təmin olunması üçün istifadə olunub. "Transmilli maraq" məfhumu isə milli dövlətlərin fövqündə dayanan qlobal aktorların dünya miqyasındakı strateji tələbatlarının ödənilməsinin önəmini ifadə etmək dövriyyəyə buraxılıb".

Qloballaşma prosesinin digər bir istiqaməti isə mədəni qloballaşmadır. Mədəni qloballaşma məsələsini müxtəlif araşdırmaçılar müxtəlif cür qiymətləndirirlər. Bəzi tədqiqatçılar mədəni qloballaşmanı ideoloji aksiya kimi dəyərləndirirlər. Məsələn, İ.Vallerstayn qeyd edir ki, mədəni qloballaşma dünyanı idarə edən qlobal aktorlar tərəfindən məharətlə istifadə edilən ideoloji silahdır. Mədəni qloballaşma tendensiyasının arxasında və əsasında dayanan güclər millətlərin mədəni dəyərlərini-milli xarakter və mədəniyyətlərini, adət-ənənələrini "sıradan çıxararaq" homogen mədəniyyət yaratmağa çalışırlar. Bundan sonra isə mədəni dəyərləri "əridilmiş" millət dünyanı idarə edən güclərin formalaşdırdığı "qlobal imperatorluğun" sadə bir elementinə çevrilirlər. Mədəni qloballaşma adı altında həyata keçirilən inteqrasiya prosesi  çox hallarda

kiçik millətlərin və etnik qrupların assimilyasiyası ilə nəticələnir. Əlbəttə, qloballaşma prosesinin fonunda millətlərin qarşılıqlı-tarazlı inteqrasiyası, dəyərlərin uzlaşdırılması və paylaşılması, eləcə də yeni dəyərlərin yaradılması prosesləri də ortaya çıxır. Bunun üçünsə hər bir millətin öz dəyərlərini, adət-ənənələrini qoruyub saxlaması, həmçinin, digər millətlərin eyni dəyərlərinə hörmət etməsi prinsipi xüsusi şəkildə nəzərə alınmalı və tətbiqi müstəviyə transfer edilməlidir. Deyilənlərlə yanaşı, mədəni qloballaşma tendensiyasının fonunda müxtəlif millətlərin ayrı-ayrı nümayəndələrində "lokal" mədəni dəyərlərin formalaşdırılması halına da rast gəlinir ki, bu da bütövlükdə kosmopolitləşmə prosesini sürətləndirir. Kosmopolitləşmiş vətəndaşları daha çox olan millətin isə milli-mənəvi dəyərləri asanlıqla tarixin arxivinə yollanır. Bu da nəticə etibarilə daha şiddətli və faciəvi hal olan "manqurtlaşma" tendensiyasına yol açır. Əlbəttə, bu deyilənlərin hər biri korkoranə şəkildə qloballaşma prosesinə qoşulmaqdan irəli gəlir. Milli-mənəvi dəyərləri və maraqları əsas tutmaqla qloballaşma prosesinə qoşulmaq isə assimilyasiya problemini aradan qaldırmaqla yanaşı, millətlər arasında qarşılıqlı-faydalı-uzlaşdırılmış əməkdaşlıq və inteqrasiya prosesinə də təkan vermiş olur. Bundan başqa, mədəni qloballaşma prosesi iqtisadi və siyasi qloballaşmaya təkan verən tendensiya və proses qismində çıxış edir. Ona görə də, qloballaşma prosesinin ssenarisini hazırlayan və icra edən qlobal aktorlar ideoloji silah və vasitə qismində mədəni qloballaşma prosesindən kütləvi şəkildə istifadə edirlər. Vallerstayn qeyd edir ki, mədəni qloballaşma prosesi iqtisadi qloballaşmanın fundamental təminatçı prosesi qismində çıxış edir, iqtisadi qloballaşma isə öz növbəsində siyasi qloballaşmanı "çağırır". Məhz buna görə də, qloballaşma prosesinin "ideoloji lokomotiv"i qismin-

də məhz mədəni qloballaşma çıxış edir. Bundan başqa, mədəni qloballaşma prosesi uzunmüddətli tendensiya olmaqla yanaşı, nəticəsi ən gec "dağıdılan" prosesdir. Bununla yanaşı, bir sıra araşdırmaçıların fikrincə, mədəni qloballaşma prosesi "millətlərin identikliyi" prosesini intensivləşməkdədir. Məsələn, Antoni Hiddens qeyd edir ki, qloballaşma prosesinin fonunda millətlərin inteqrasiyası prosesi heç bir dövrdə olmadığı qədər sürətlənib. O bildirir ki, dünyada heç bir ölkədəki yaşayış tərzi, mədəni dəyərlər digər ölkələrdə olduğundan kəskin şəkildə fərqlənmir. Onun fikrincə, qloballaşma dünya ictimaiyyətinin qarşılıqlı asılılığının artmasıdır.

Bundan başqa, bəzi araşdırmaçıların yekun qənaəti ondan ibarətdir ki, mədəni qloballaşma Qərbin inkişaf etmiş ölkələrinin "mədəni dəyərləri"nin və həyat tərzinin üçüncü ölkələrə "sırınması" prosesidir. Məsələn, "mədəni imperializm" anlayışından ilk dəfə istifadə edən araşdırmaçı Herbert Schiller belə bir fikir irəli sürür ki, mədəni qloballaşma prosesi vahid mərkəzdən yönləndirilən ideoloji aksiyadır. O bildirir ki, mədəni qloballaşma uzunmüddətli tendensiyadır və bütün dünya xalqlarını əhatə edir: "Mədəni qloballaşma "zəncirvari proses" olan qloballaşma prosesinin mühüm tendensiyasıdır. Ona görə də, dünyanı idarə edən qlobal aktorlar mədəni qloballaşma vasitəsindən maksimum səviyyədə yararlanırlar. Onun konkret mahiyyəti odur ki, dünyadakı bütün xalqların homogen mədəniyyəti formalaşdırılsın və vahid mərkəzdən idarə edilsin".

Göründüyü kimi, qloballaşma prosesi olduqca mürəkkəb tendesiya olmaqla yanaşı, özündə geniş sahə və istiqamətləri ehtiva edir. Bu proses vahid məqsədə xidmət edir: qlobal inteqrasiyanın ən yüksək səviyyədə reallaşdırılması və

Qərbin mərkəzində dayandığı "qlobal imperatorluğun" formalaşdırılması…

Bütün bunlarla yanaşı, ən yeni imperializmin-infoimperializmin meydana çıxdığı dönəmdə qloballaşma klassik məqsəd və xüsusiyyətlərini özündə saxlasa da, prosesin cərəyan olunmasında metod, vasitə və resurslarda ciddi kardinal dəyişikliklər baş vermişdir. Qeyd etdiyimiz kimi, infoimperializm çərçivəsində "qlobal dövlət"in fəaliyyət mexanizmində informasiya və virtual vasitələr başlıca resurslar qismində çıxış edir. Deməli, digər ümumdünya prosesləri kimi qloballaşma tendensiyasında da bəhs olunan vasitələrdən istifadə olunması, informasiyanın şərtləndirdiyi və virtual platformada cərəyan edən proseslər, münasibətlər önə çıxır. Bu dönəmdə zaman və məkan məfhumu vahidlik qazanır, iqtisadi, siyasi və hərbi proseslərdə informasiya yönləndirici və tənzimləyici mexanizm kimi çıxış edir.

Eyni zamanda, infoimperializmin fonunda cərəyan edən qloballaşma prosesi inteqrasiya tendensiyasına yeni forma verir. Belə ki, informasiya üzərində təşəkkül tapmış və virtual platformada təzahür edən inteqrasiya prosesi daha da sürətlənir, yeni kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalır. Bu, elə bir prosesdir ki, inteqrasiyadan homogenliyə keçid xarakteri daşıyır və daha çox mədəni platformada müşahidə olunur. Əgər klassik qloballaşma dönəmində mədəni inteqrasiya prosesi cərəyan edirdisə, infoqloballaşma çərçivəsində inteqrasiya homogenliyə və identikliyə keçir. Artıq informasiya üzərində təşəkkül tapmış mədəni identiklik formalaşır.

Sadalananlarla yanaşı, infoqloballaşma bir sıra riskləri də şərtləndirir. Belə ki, informasiya resursu əsasında formalaşmış proseslər, münasibətlər bəzi hallarda xaotik səciyyə

ala bilir. İkincisi, milli dövlətlərin suverenliyi zəifləməklə yanaşı, həm də milli dəyərlər sıradan çıxır, ümumbəşəri dəyərlərdən ibarət olan infokulturoloji piramida formalaşır. Bununla da mədəniyyətlərin və sivilizasiyaların inteqrasiyası adı verilən asimmetrik uzlaşma baş verir və homosivilizasiya təşəkkül tapır. Üçüncüsü, infoindustriyanın inkişaf etdirilməsi üçün informasiya bazarları uğrunda aparılan savaşlar və bunların fonunda təzahür olunan qeyri-sağlam rəqabət transmilli media strukturlarının bu işə cəlb olunması ilə qara piar və informasiya müharibəsini kəskinləşdirir. Yeni növ sərmayə kimi çıxış edən informasiya xalq hakimiyyətini ikinci plana keçirir, artıq infokratiyanın (informasiya hakimiyyəti) hegemonluğunu təmin edir. Bu isə milli dövlətlərin suverenliyini zəiflədir, eləcə də xalqlararası mübarizə və əməkdaşlığa əsaslanan beynəlxalq münasibətlərdə qeyri-ahəngdar proseslərin meydana çıxmasına səbəb olur.

Nəticə etibarilə, infoqloballaşma ən yeni imperializmin struktur komponenti olmaqla yeni dünya düzəninin başlıca tendensiyalarından biri hesab edilir. “Qlobal imperiya”nın istiqamətləndirdiyi və başlıca resursu informasiya olan bu proses ənənəvi məqsədlərin yeni vasitə, texnologiya, metod və mexanizmlər üzərindən həyata keçirilməsinə xidmət edir.

### 5.3. Mədəni imperializm-infoimperializmin strateji substratı

Beynəlxalq “şəbəkə hakimiyyəti”nin (netokratiya) fəaliyyətindən bəhs edərkən, diqqət yetirilməsi zəruri olan məsələlərdən biri də konkret geostrateji məqsədlərin reallaşdırılması naminə istifadə edilən ideoloji siyasətdir. Bu sırada mədəni imperializm siyasəti xüsusilə diqqəti cəlb edir.

Netokratların istinad etdikləri mədəni imperializmin mahiyyətini anlamaq üçün ilk növbədə, imperializm, imperialist siyasət, yeni imperializm (neoimperializm) kimi məfhumları izah etmək, eləcə də bu sahədə yaradılmış nəzəriyyələrə diqqət yetirmək məqsədəmüvafiqdir.

Ümumiyyətlə, imperializm anlayışının müəyyən bir xarici siyasət növü kimi deyil, arzu edilməyən bir siyasətin alçaldılması məqsədilə istifadə edilməsi və terminin məhz bu nöqteyi-nəzərdən polemikaya cəlb olunması onun obyektiv izahını həmişə çətinləşdirir. Çünki imperializm anlayışı elə bir forma almışdır ki, bu anlayış onu istifadə edənin qarşı çıxdığı hər siyasəti, yaxud davranışı həmin siyasət və davranışın keyfiyyətinə belə baxmadan onu imperializm və imperialist kimi qiymətləndirməyə qədər gətirib çıxarır. Məsələn, ruslara qarşı olanlar ruslar xarici siyasətdə hansı addım atırlarsa-atsınlar, onu imperialist siyasətin fonunda istinad edilmiş akt kimi qiymətləndirirlər. Başqa bir tərəfdən, məsələn, II Dünya müharibəsində Almaniya SSRİ-yə hücum etməmişdən öncə SSRİ bu müharibəni imperialistlərin müharibəsi kimi qiymətləndirirdi. Ancaq 1941-ci ildə SSRİ-yə hücum edilən kimi SSRİ bu savaşı artıq antiimperialist müharibə adlandırmağa başladı. Eyni şəkildə, ABŞ-ı sevməyənlər tez-tez Amerika imperializmi sözünü işlətməyi xoşlayırlar. Beləliklə, imperializm məfhumunu bu şəkildə hər kəs öz düşüncəsinə görə işlətdiyi üçün artıq bu sözün konkret hansı mənanı kəsb etdiyi dəqiq deyil. Elə buna görə də, Hans Morgentau məfhumun bu ümumi istifadə formasını bir tərəfə ataraq, siyasət nəzəriyyəsi və təcrübəsi baxımından dəqiq bir izahının olmasını zəruri sayır. Bu zaman o, imperializmin nə olduğu deyil, nə olmadığı üzərində durulması ideyasını irəli sürür. Morgentau burada imperializm kimi başa düşülən,

lakin ona görə, imperializmlə heç bir əlaqəsi olmayan iki hala diqqət yetirir.

1. Morgentauya görə, bir millətin gücünü artırmaq məqsədilə girişdiyi hər hansı fəaliyyət imperializm kimi qiymətləndirilə bilməz. Ona görə ki, araşdırmaçı imperializmi status-kvonu alt-üst etmək, yaxud daha çox sayda dövlətlər arasındakı güc münasibətlərini tərsinə çevirmək və yenidən qurmaq şəklində izah edir. Bu baxımdan, hər hansı bir xarici siyasət bu güc münasibətlərinə toxunmur və sadəcə bəzi məqamları yenidən aydınlaşdırmaq istəyirsə, heç nəyə baxmayaraq status-kvo sayılmalıdır;

2. Digər tərəfdən, daha əvvəl mövcud olan bir imperatorluğu qorumaq məqsədi daşıyan bir xarici siyasətin də imperializm hesab edilməsi lazımdır. Morgentauya görə, İngiltərə, Çin, yaxud ABŞ dünyanın müəyyən bir bölgəsində üstün vəziyyətlərini qorumaq istəyirlər və bunun üçün müxtəlif addımlar atırlar ki, bu da imperializm kimi qəbul edilməlidir. Araşdırmaçıya görə, mövcud olan bir imperatorluğu qorumaq və davam etdirmək məqsədi istiqamətində olan, dolayısıyla, sabitliyi saxlayan statuslu bir siyasət imperialist olaraq səciyyələndirilməməlidir. Ona görə də, imperializm hər hansı bir imperatorluq qurmaq istiqamətində siyasət yeritmə kimi anlaşılmalıdır.

Ümumiyyətlə, imperializm imperatorluq anlamına gələn latınca "imperium" kəlməsindən əmələ gəlmişdir. Bu mənada, etimoloji olaraq imperializm anlayışı imperatorluqla əlaqəlidir. Ancaq imperatorluq kəlməsinin sifət forması "imperial"dır və bu da yenə imperatorluqla əlaqəli anlam mənasına gəlir. İmperializm "imperial" sifətinə bənzəməklə bərabər, həm də olduqca fərqli bir anlam kəsb etməkdədir. Başqa sözlə, imperializm imperatorluq siyasətinin bir

növüdür. Yəni imperatorluqların heç də hamısı imperialist deyildir. İmperializm kapitalistləşmə prosesində dənizaşırı torpaqlar üzərində yayılan Britaniya imperatorluğunun yaratdığı bir imperatorluq strategiyasıdır. Bu strategiya sadəcə torpaq qazanmaq məqsədinə söykənmir. İmperialist strategiyada əsas məqsəd bazar qazanmaqdır. Məhz bu məqsədlə sənayeləşmənin yaratdığı ictimai problemlərin həll edilməsi ilə imperializmin bir imperatorluq strategiyası olaraq inkişaf etməsi arasında üzvü bağlılıq vardır. İmperialist bir imperatorluq, dənizaşırı torpaqları milli sənaye istehsalı üçün bir bazar olaraq yığılmış kapitalın axacağı bir yatırım ərazisi olaraq və ölkədə artan və problem təşkil edən əhalinin köç edə biləcəyi bir torpaq parçası olaraq istifadə etməyi nəzərdə tutur. Bütün bunlarla yanaşı, imperialist imperatorluqlar üçün sərhədaşırı torpaqlar həm də strateji xammal və ucuz işçi qüvvəsi mənbəyidir.

İmperialist strategiyası həyata keçirən bir imperatorluq gücdən istifadə etməklə qazandığı və əldə saxladığı sərhədaşırı torpaqlara sahib olma səbəbiylə bir imperatorluq mahiyyəti daşımaqla bərabər, həm də öz ölkəsində bir milli dövlət xüsusiyyətinə malikdir. Buna görə də, çoxmillətli və qlobal imperatorluqlarla bu tip imperatorluqlar struktur baxımından bir-birilərindən olduqca fərqlidirlər. Çoxmillətli imperatorluqlar kapitalizm prosesinin ilkin mərhələsində mövcud olan təşkilatlanmalardır. Ona görə də, imperialist keyfiyyətinə malik olmamışlar. Kapitalizmin inkişafı prosesində milliyyətçilik dalğalarının təsiri ilə varlıqlarını qoruya bilməmişlər. Başqa bir yandan, təməlində milli dövlət mahiyyəti daşıyan imperialist imperatorluqlar siyasi və iqtisadi milliyyətçiliyin yayılaraq genişlənməsi ilə inkişaf etmişdir. Bu cür imperatorluqlar həmin imperatorluqların vətənindən kənarda olan im-

peratorluq ərazilərini iqtisadi və siyasi baxımdan istismar edərək, vətəninin rifahını və gücünü artırmaq siyasəti yeritmiş, eyni zamanda, gücdən istifadə etməklə böyümək siyasəti həyata keçirərkən, həm də sərmayə əldə etmək və yığılmış sərmayəni gəlirli sahələrə yatırtmaq məqsədi güdmüşlər.

İmperialist imperatorluqlar II Dünya müharibəsindən sonra sıradan çıxmağa başlamışdır. Həmin imperatorluqların sərhədaşırı məmləkətləri II Dünya müharibəsindən sonrakı illərdən başlayaraq, 1960-cı illərin sonlarına qədər müstəqilliklərini əldə etdilər. Ancaq müstəqillik əldə etmələrinə baxmayaraq, uzun müddət iqtisadi baxımdan istismarçı imperatorluqların bir hissəsi olaraq qaldılar. Öz müstəmləkələrini itirən imperialist metropollar isə milli dövlət kimi köhnə müstəmləkələri üzərində hakimiyyət və nəzarətlərini həyata keçirməyə davam etməyə çalışdılar. Olduqca çox sosial və iqtisadi problemləri olan bu gənc dövlətlərlə köhnə imperialist metropollar arasında ortaya çıxan bu yeni münasibətlər yeni imperializm adlandırılmağa başlandı. Yeni imperializm imperatorluq dövrundən fərqli olaraq dolayı vasitələrdən istifadə etməklə bu gənc dövlətlərin bazarına və iqtisadi resurslarına nəzarət etmək niyyəti daşıyan bir fəaliyyətdir (Rusiyanın digər MDB ölkələrinə qarşı olan fəaliyyəti kimi). Yeni imperializmin imperialist keyfiyyəti köhnə müstəmləkəçilər kimi, birtərəfli qaydada sərmayə toplama məqsədinə xidmət edən siyasətlərini davam etdirmələrindədir. Sadəcə, siyasi müstəqilliyini əldə etmiş dövlətləri imperatorluq dövründən fərqli yeni vasitələrlə istismar edirlər. Yeni imperializmdə ölkə torpaqlarının genişləndirilməsi məsələsi yoxdur, ancaq sərmayə toplama və yeni bazar qazanma məqsədləri imperializmlə eynidir. Başqa sözlə, yeni imperializmdə "yeni" olan məqsəd deyil, məqsədəçatma vasitələridir.

İmperializmin əsasları bir sıra nəzəriyyələrdə dolğun şəkildə əks olunmuşdur.

İmperializm nəzəriyyələrinin inkişafında ingilis nəzəriyyəçisi Con Hobson və onun 1902-ci ildə nəşr etdirdiyi "İmperializm: Bir araşdırma" adlı kitabı çox əhəmiyyətli yer tutur. Hobson bu kitabında kapitalist cəmiyyətlərinin bir-biri ilə əlaqəli olan üç mühüm problemlə qarşı-qarşıya qaldığını diqqətə təqdim etmişdir. Bu problemlər həddindən çox istehsal, həddindən az istehlak və həddindən çox qənaətçilik, xəsislikdir. Hobson İngiltərənin timsalında imperalizmin inkişafının bu üç faktla bağlı özünü göstərən iqtisadi problemlə üzləşdiyini bildirir. Bu baxımdan, müstəmləkələr yığılan sərmayənin və tələbatdan artıq istehsalın yönələcəyi bazar kimi ortaya çıxmışdır. Bu şəkildə müstəmləkələrə qoyulacaq yatırımlar ölkədəki tələb-təklif və sərmayə ilə əlaqədar ortaya çıxan məsələni həll edəcəkdir. Beləliklə, hərbi əsgəri irtica və müstəmləkəçilik siyasəti kapitalist iqtisadiyyatının vaxtaşırı yaşadıqları iqtisadi problemlərlə izah edilmişdir. Hobson imperializmə tənqidi yanaşmışdır. Hobsona görə, imperializm ölkədə xalqdan çox imperializm strategiyasına iqtisadi baxımdan sıx bağlanmış sənayeçilərin və maliyyəçilərin maraqlarını ifadə edir. O, imperializmin beynəlxalq rəqabəti və hərbi qarşıdurma riskini artıran, müharibələrin əsas səbəblərindən biri olduğunu vurğulamışdır. Məhz Hobsonun görüşlərindən təsirlənən V.İ.Lenin də imperializm nəzəriyyələrinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Vladimir İliç Lenin də 1916-cı ildə yazdığı «İmperializm kapitalizmin ən son mərhələsidir» adlı kitabında kapitalist dövlətlərin kapitalizmin milli sərhədlər içərisində yaratdığı sosial problemləri həll etmək və onsuz da artıq olan qiymətləri ardıcıl olaraq artırmaq məqsədilə aydın bir siyasət

həyata keçirdiklərini irəli sürmüşdür. Lenin imperializmi kapitalist dövlətlərin kasıblıq və rifah problemini milli sferada həll edə bilmədikləri üçün beynəlxalq sferaya transferetmə siyasətlərinin bir nəticəsi olaraq izah etmişdir. İstehsalat və maliyyə vasitəsilə dünyaya yayılan imperialst kapitalizm dövlətlər arasında asılılıq şəbəkələri qurmaqda və istismar kanalları yaratmaqdadır. Leninə görə, imperializm kapitalist ölkələrin onun quruluşundan doğan maliyyə böhranlarını gecikdirmək üçün dünyanın böyük bir hissəsini inkişafdan məhrum etmək və bu dövlətləri böyük bir yük altında saxlamaqdır. Lenin imperializmin yayılmasının kapitalist dövlətlər arasında gücə söykənən bir rəqabət yaratdığını və bu rəqabətin böyük müharibələrin əsas səbəbi olduğunu irəli sürür. O, I Dünya müharibəsinin də məhz imperializmin güclənməsinin yaratdığı qarşıdurma nəticəsində baş verdiyini bildirir.

Hobson və Leninin imperializm nəzəriyyələri daha sonra beynəlxalq münasibətlər sferasında inkişaf edən «quruluş nəzəriyyələri»nin əsasını təşkil etmişdir. İmperializm nəzəriyyələrinin ardınca «Dünya Sistemi Nəzəriyyəsi», «Mərkəzi-Ətraf yanaşması», «Asılılıq Nəzəriyyəsi və neoqramiya» nəzəriyyələri meydana gəlmişdir.

Marksist nəzəriyyə bütün marksizm ideologiyasının təməlində öz əksini tapan bir inanca, bütün siyasi gerçəkliyin iqtisadi güclərin əksi, inikası olduğu inancına söykənir. Başqa sözlə, imperializm onu doğuran iqtisadi sistemin məhsuludur. Belə iqtisadi sistemə isə kapitalizm deyilir. Marksizm nəzəriyyəsinə görə, kapitalist cəmiyyətlər müəyyən bir mərhələdən sonra öz toplumları içərisində istehsal etdikləri məhsullar üçün yetərli bazar, sərmayələri üçünsə yetərli yatırım sahəsi tapa bilmədikdə başqa ölkələri məhsulları üçün bazar, sərmayələri üçün yatırım yerinə çevirməyə cəhd göstərirlər.

Bu isə özlüyündə imperializmi doğurur. Marksistlər imperializmi kapitalizmin siyasəti, yaxud davamı kimi görürlər. Lenin və onun davamçıları kapitalizm və imperializmi eyniləşdirir. Onlara görə imperializm, kapitalizmin inhisarçı mərhələdəki formasıdır. Marksistlərə görə, ən pis olanı elə kapitalizm sisteminin özüdür. İmperializm bu sistemin məcburən meydana gətirdiyi təzahürdür.

Liberallar isə imperializmi kapitalizmin deyil, kapitalist sistemi içərisindəki eybəcərliklərin doğurduğu nəticə hesab edirlər. Ancaq onlar da imperializmin izafi istehsal və xarici bazarlara sərmayə qoyma nəticəsində meydana gəldiyini inkar etmirlər. Ancaq Hobson və davamçılarına görə, imperialist genişlənmə qaçılmaz deyildir. Çünki bu heç də izafi istehsal və izafi sərmayə probleminin həll edilməsinin rasional yolu deyil. İstehsal və sərmayə bolluğu satınalma gücünün qeyri-bərabərliyi üzündən əmələ gəldiyi üçün məsələnin həllində bu gücün artırılması, həddən artıq qənaətcilliyin aradan qaldırılması, ölkədaxili bazarın genişləndirilməsi kimi vasitələrdən istifadə etmək lazımdır.

Beləliklə, liberalları marksistlərdən ayıran başlıca cəhət kapitalizmin yaratdığı problemləri ölkə daxilində həll etmək düşüncəsini mənimsəmələridir.

Morgentau isə imperializmi tətbiqi formalarına görə üç yerə ayırır. Bunlar hərbi, iqtisadi və mədəni imperializmdir. Morgentauya görə, hərbi imperializmin istəyi hərbi fəth, iqtisadi imperializmin istəyi başqa xalqları istismar etmək, mədəni imperializmin istəyi isə bir mədəniyyətin öz yerini başqa bir mədəniyyətə verməsidir. Amma ən əhəmiyyətlisi odur ki, bunların hamısından eyni kapitalist məqsədə çatmaq üçün istifadə edilir.

Biz beynəlxalq informasiya şəbəkəsi və qlobal actorların ideoloji dominantlığa əsaslanan sistemini analiz etmək üçün diqqəti mədəni imperializmə çəkəcəyik.

Beləliklə, mədəni imperializm ən incə görünüşlü imperializm olmaqla yanaşı, müvəffəqiyyət baxımından imperialist siyasətlərin ən təsirlisidir. Mədəni imperializmin məqsədi zahirdə heç də ölkəni işğal etmək, torpaq qazanmaq, yaxud iqtisadi həyatı nəzarət altına almaq kimi görünmür. Əslində isə, bir ölkəni işğal etmək vasitəsi olaraq həmin ölkənin milli düşüncəsini, zehniyyətini, ağlını fəth etməklə nəzarət altına almaq məqsədini güdür.

Hans Morgentauya görə, əgər A dövləti öz mədəniyyətini və ən önəmlisi siyasi ideologiyasını bütün digər real imperialist hədəfləriylə birlikdə B dövlətinin daxili və xarici siyasətini müəyyənləşdirən insanlara mənimsədə bilmişsə, yəni B dövlətinin idarəedicilərinin düşüncə və beyinlərini fəth etmişsə, iqtisadi yollarla o ölkə üzərində hakimiyyət qurmaq istəyənlərin hamısından daha çox sabit və uzunömürlü bir üstünlük əldə etmiş olur.

Mədəni imperializmin müasir dövrümüzdə oynadığı tipik rol digər imperializm üsullarına yardım etməkdir. Çünki mədəni imperializm düşməni iradəsizləşdirir, hərbi işğal və iqtisadi hakimiyyət üçün daha rahat və uyğun bir şərait hazırlayır. Qısacası, mədəni imperializm bir ölkədə yaşayan bütün insanları, xüsusilə də intellektual sferada təsirli olan şəxsləri və ölkənin daxili və xarici siyasəti haqqında qərar qəbuletmə səlahiyyəti olan insanları hədəfə alır. Bu insanları öz mədəniyyətinin cazibədar tərəfləri ilə təsir altına salır və onları siyasi və iqtisadi məqsədlərinin quluna çevirir.

Eyni zamanda, mədəni imperializmin tək hədəfi intellektual elitanın imperialistlərin təsir dairəsinə alınması

deyil, həm də ayrı-ayrı cəmiyyətlərdə müxtəlif stratifikasiyaların nümayəndələrinin şüurunun hakiminə çevrilməyə nail olmaqdır. Kütləyə yönəlmiş mədəni imperializm siyasəti çərçivəsində daha çox ideoloji təsir metodlarından istifadə edilməkdədir. Konkret bir cəmiyyətin həyat tərzinin təbliğ edilməsi, milli PR sisteminin formalaşdırılması kimi istinad edilən vasitələr kütləyə yönəlik mədəni imperializm siyasətinin struktur elementləri qismində çıxış edir. Son məqsəd isə, təbii ki, idarəedilən kütlənin və yaxud stratanın formalaşdırılmasıdır.

Qeyd etdiyimiz kimi, ayrı-ayrı ölkələrin intellektual nümayəndələrinə, elitaya qarşı istiqamətlənmiş mədəni imperializm siyasəti kontekstində xüsusi ideoloji vasitə və metodlardan istifadə olunur. İlk növbədə, ölkələrin milli siyasətinə qarşı xüsusi təsir mexanizmi formalaşdırılır, bunun fonunda isə ölkəyə rəhbərlik edən elitanın (hakim elita) və kontrelitanın, eyni zamanda, sosiumun ayrı-ayrı stratalarını təmsil edən subyektlərin təfəkkürünə və fəaliyyətinə təsir mexanizmləri formalaşdırılır.

Nəticə etibarilə, mədəni imperializm infoimperializmin sütunu qismində çıxış etməkdə və ən yeni imperializmin mənəvi substratı kimi səciyyələndirilməkdədir. Qeyd etmək lazımdır ki, II Dünya müharibəsinə qədərki tarixi dövrdə mədəni imperializm yeni imperializmin aktual istinad predmeti olmuş və milli dövlətlərə intellektual təsir mexanizminin əsası qismində çıxış etmişdir. Lakin qeyd etdiyimiz kimi, SSRİ-nin fiaskosu ilə meydana çıxmış yeni dünya düzəninin fonunda mədəni imperializm arxa plana keçmiş və imperialist güclər infoimperializm strategiyasını aktuallaşdırmışlar. Bütün bunların fonunda belə bir analitik qənaət ifadə etmək olar ki, infoimperializmin intellektual nöqteyi-nəzərdən strateji

əsaslarını mədəni imperializm təşkil edir və bu, xüsusi strateji yardımçı vasitə kimi səciyyələndirilə bilər.

## VI FƏSİL

# İnfoimperializmə qarşı mübarizə mexanizmləri: ideoloji və institusional vasitələr

### 6.1. Ailə institutu infoimperializmə qarşı mübarizə prosesində başlıca strateji vasitə kimi

Müxtəlif strateji problemlər çərçivəsində analitik tədqiqat obyektinə çəkdiyimiz infoimperializmdən bəhs edərkən, toxunulması zəruri olan məsələlərdən biri də ən yeni imperializmə qarşı mübarizə mexanizmlərinin düzgün müəyyənləşdirilməsidir. Şübhəsiz, "qlobal imperatorluğun" ideoloji silahı olan infoimperializmlə mübarizə olduqca mürəkkəb səciyyə daşıdığından, ilk növbədə, mücadilə vasitələri və mexanizminin düzgün müəyyənləşdirilməsi lazımdır. Bəzi hallarda bir çox araşdırmaçılar imperializmlə mübarizədə iqtisadi və siyasi mexanizmləri önə çəksələr də, son nəticədə bu vasitələr kifayət qədər səmərəli olmur, hətta "bumeranq" effekti ortaya çıxa bilir. Zənnimizcə, infoimperializmlə mübarizə prosesinin, ilk növbədə, institusional əsasları formalaşdırılmalı, daha sonra ideoloji vasitələrə istinad edilməlidir.

Mübarizə prosesində ən effektiv institusional və ideoloji vasitələr kimi milli həmrəylik və bütövlüyün universal ideoloji formulası olan milli ideologiya və sosial münasibətlər sisteminin ahəngdar nizamlayıcı mexanizmi qismində çıxış edən ailə institutu səciyyələndirilə bilər.

Beləliklə, infoimperializmə qarşı mübarizədə, ilk növbədə, fundamental sosial institut qismində çıxış edən ailə

institutunun rol və əhəmiyyətinə toxunmaq lazımdır. Məlumdur ki, ailə sosial institut olmaq etibarilə öz strukturuna və mahiyyətinə görə unikal ictimai təsisatdır. Başqa sözlə, ailə həm şəxsiyyətlərarası münasibətləri tənzimləyən, həm də bütövlükdə sosiumda nizamlayıcı mexanizm qismində çıxış edən, bütün stratalarda aktiv və passiv əlaqələrə təsir edən avanqard sosial institutdur. Məhz buna görə də, bir sıra araşdırmaçılar ailə institutunu ayrıca yarımsistem kimi səciyyələndirirlər.

Ümumiyyətlə, infoimperializmlə mübarizədə ailə institutunun sosial əhəmiyyətindən bəhs edərkən qeyd etmək lazımdır ki, bu təsisat sosial identikliyin ən güclü olduğu qurum kimi çıxış etdiyindən onun əsaslarının möhkəmləndirilməsi sosiumun substratlarının güclənməsinə xidmət edir. Çünki infoimperializmlə mücadilə çərçivəsində milli identikliyin təmin olunması başlıca vəzifədir və bu vəzifənin yerinə yetirilməsini mümkün edən başlıca institusional vasitələrdən biri identikliyin ən güclü olduğu ailə təsisatıdır.

Doğrudur, bir sıra sosial-strateji araşdırma mərkəzləri modern informasiya cəmiyyətində ailə institutunun dayaqlarının zəiflədiyini iddia etməkdədirlər. Hətta iddia olunur ki, ailə təsisatının əsasları mədəni imperializmin təsiri altında sarsılmışdır, deqradasiyaya uğramışdır və bu institut ayrı-ayrı yarımtəsisatlara bölünmüşdür. Əlbəttə ki, bu iddiaların doğruluğunu təsdiqləmək olmaz, çünki müasir dövrdə sosium tipindən asılı olmayaraq, hər bir cəmiyyətdə ailə institutu başlıca funksional vahid kimi çıxış edir, hətta ictimai münasibətlər kontekstində unikal sosial qrup kimi səciyyələndirilə bilər. Məlum olduğu kimi, bir müddət öncə iddia edilirdi ki, sənaye cəmiyyətinə keçid ailə institutunun perspektivini sual altına alır. Hətta bu təsisatı əvəzləyəcək yeni institutların

meydana çıxacağına dair proqnozlar ifadə edilirdi. Lakin bəşəriyyətin inkişafının sənaye erası nəinki ailə institutunu mütləq mənada deqradasiyaya məruz qoymadı, hətta bu dönəmdə bəhs olunan təsisatın əsasları daha da möhkəmləndi, yeni keyfiyyət çalarları ilə zənginləşdi. Eyni zamanda, postindustrial cəmiyyətdə də ailə institutu kardinal neqativ dəyişikliklərə məruz qalmadı və cəmiyyətin ayrı-ayrı institutlarının fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə xüsusi töhfələr verən avanqard təsisat kimi çıxış etdi. Dolayısıyla, ailə təsisatı müəyyən forma dəyişikliklərinə məruz qalsa da, məzmun və funksionallıq etibarilə sosiumun lokomotiv institutu statusunu saxlamış oldu.

Beləliklə, sadalananları əsas götürərək belə bir analitik qənaət ifadə etmək mümkündür ki, müasir dövrdə informasiya sosiumunda da ailə institutu infoimperializmlə mübarizə çərçivəsində ən effektiv sosial qurum – strateji təsisat qismində çıxış etməkdədir. Dövlətin kiçik modeli olan ailə institutu, eyni zamanda, milli dövlətlərin substansiyası kimi səciyyələndirilə bilər. Belə olan təqdirdə, əgər milli dövlətlər infoimperializmlə mübarizə aparacaqlarsa, o zaman ilk növbədə, ailə institutunun möhkəmliyinin təmin olunmasına nail olmağa çalışmalıdırlar.

### 6.2. İnfoimperializmə qarşı mübarizədə milli ideologiya faktoru

İnformasiya imperializminə qarşı başlıca mübarizə mexanizmi və vasitələrindən biri də milli ideologiyadır. Ümumiyyətlə, milli ideologiyanın infoimperializmlə mübarizə çərçivəsində rol və əhəmiyyətinə toxunmaq üçün bir-birilə siste-

matik surətdə bağlı olan bir sıra kompleks məsələlərə toxunmaq lazımdır.

Beləliklə, elmi ədəbiyyatda ideologiya sosial qrupların və ya bütün cəmiyyətin mənafelərini müdafiə və ifadə edən, sosial reallığı bu mənafelər prizmasından izah edən və əməli fəaliyyət direktivləri, oriyentasiyaları olan nəzəriyyələr, ideyalar və məlumatlar sistemi kimi müəyyənləşdirilir. Milli ideologiya öz funksiyalarına görə milli həmrəylik və bütövlüyü təmin edən, mənəvi müstəvidə ahəngdarlığın davamlılığına xidmət edən ümummilli baxışlar sistemi səciyyəsi daşıyır. Bunu isbat etmək üçün ideologiyaların nəzəri-empirik surətdə təsbit edilmiş funksiyalarına nəzər yetirmək kifayətdir:

- yönləndirmə funksiyası: bu funksiya müxtəlif sahələrdə, bütövlükdə cəmiyyətdə insan fəaliyyətinin mənəvi əsaslarını və istiqamətlərini müəyyənləşdirir. Yönləndirmə funksiyası müəyyən resurslarla təmin olunmuş subyektlərin fəaliyyət və baxışlar oriyentasiyasını müəyyən edən fundamental mənəvi faktor qismində çıxış edir;

- səfərbəredici funksiya isə siyasi fəaliyyətin ideoloji motivi və stimulu qismində çıxış edir. Məhz bu funksiyanın fonunda müəyyən edilmiş siyasi-ideoloji məqsədlərin təmin edilməsi naminə resurslar və subyektlər vahid mərkəzdə cəmləşdirilir və məqsədlərə yönəlik fəaliyyətə səfərbər edilir;

- inteqrativ funksiya isə ümumi maraqlar və baxışlar sistemini üstün tutur və fərdlərin fəaliyyətini ümumi maraqlar kontekstində stimullaşdırır. Birləşdirici səciyyə daşıyan bu funksiya müxtəlif qrupları və fərdləri bir mərkəzdə birləşdirə bilir və milli həmrəyliyin təmin olunması işinə birinci dərəcəli töhfələr bəxş edir.

Deməli, ideologiya səfərbəredici, maarifləndirici, tərbiyəedici, inteqrativ, kommunikativ səciyyə daşıyır və mənəvi sub-

strat qismində çıxış edir.

Bunlarla yanaşı, fəaliyyətin mənəvi substratı qismində çıxış edən ideologiya gerçəkliyin xüsusi obrazının yaradılması, ictimai şüurun yönləndirilməsi, ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi, siyasi inkişafın istiqamətləri və aparıcı qüvvələrinin müəyyənləşdirilməsi kimi strateji funksiyaları da yerinə yetirir.

Bundan başqa, ideologiyalar bir çox meyarlara görə bir neçə qrupda təsnif edilir:

-*sosial mənafeyə münasibətə görə: mütərəqqi, mühafizəkar, mürtəce, liberal, radikal, millətçi, beynəlmiləl;*

-*sosial bazasına görə: milli, sinfi, qrup və irqi;*

-*daxili strukturuna görə: dini, dünyəvi, rasional, irrasional, universal, partikulyar;*

-*nüfuz dairəsinə görə: milli və ümumbəşəri.*

Başlıca siyasi ideoloji cərəyanlar sırasına isə liberalizm, neoliberalizm, konservatizm (mühafizəkarlıq), neokonservatizm və sosializm daxildir.

Elmi ədəbiyyatda liberalizm dar mənada adət-ənənələrə, vərdişlərə münasibətdə tam müstəqil olan, öz müqəddəratını və fəaliyyətini müstəqil surətdə müəyyənləşdirməklə xarakterizə edilən fəaliyyət və düşüncə tərzi kimi səciyyələndirilir. Ümumilikdə isə, liberal səciyyəli doktrina və konsepsiyaların mərkəzində “fərdin azadlığı” ideyası və məfhumu dayanır. Bu ideoloji cərəyanın əsas struktur elementləri və prinsipləri müxtəlif xarakterli nəzəriyyə və konsepsiyalarda əks olunmuşdur. Onların hamısına aid olan ortaq nöqtə isə qanunlarla nizamlanmış və müəyyən hüquqi substratlarla təsbit edilmiş müstəqillik və azadlıq ideyalarıdır. Məhz bu mərkəzi ideyanın fonunda bəhs edilən ideoloji cərəyana xas olan digər struktur elementləri-anlayışlar isə tolerantlıq, humanizm, fər-

diyyətçilik və digərləridir.

Liberalizm ideologiyasının fonunda meydana gəlmiş siyasi-iqtisadi konsepsiya və doktrinaların təməlində duran dəyərlər isə bunlardır: hakimiyyətin bölünməsi prinsipi, fəaliyyətdə və münasibətlərdə rəqabət azadlığı, şəxsi təşəbbüsə qarşı total məhdudiyyətlərin ləğv edilməsi, xüsusi mülkiyyətə və sərbəst iqtisadi fəaliyyətə lazımi imkan və şəraitin yaradılması, fərdin mülki və siyasi hüquqlarının qorunması, inzibati tənzimləmələrin səviyyəsinin azaldılması və sair.

Amma zaman keçdikcə məlum oldu ki, nəzəri cəhətdən təsbit edilmiş liberal dəyərlər təcrübi müstəvidə özünü doğrultmadı və mütləq surətdə gerçəkləşdirilmədiyindən ideallıq kimi təsvir edilməyə başlandı. Bir sıra araşdırmaçılar isə liberalizm ideologiyasını özündə daşıdığı dəyərlərə görə real olanla ideal arasında aralıq cərəyan kimi dəyərləndirdilər. Məhz belə bir durumun fonunda özündə liberalizmlə mühafizəkarlığın bir sıra prinsiplərini ehtiva edən neoliberalizm (yeni liberalizm) cərəyanı meydana gəldi.

XX əsrin ikinci yarısında meydana gələn neoliberalizmdə liberalizmdən fərqli olaraq, milli dövlət anlayışı istinad kateqoriyalarından birinə çevrildi və dövlət tənzimləyici subyekt qismində səciyyələndirildi. "Dövlətin funksiyalarının gücləndirilməsi" prinsipindən çıxış edən neoliberalizmdə təsbit olundu ki, dövlətin liberal dəyərlərə əsaslanan funksiyaları universallaşdırılmalı və onun əhatə dairəsi daha da genişləndirilməlidir. Buradan çıxış edərək neoliberalistlər plüralist demokratiya konsepsiyasını mərkəzi istinad nöqtəsinə çevirdilər və dövlət hakimiyyətinin təşkilində və hakimiyyətin fəaliyyətində plüralist prinsiplərə üstünlük verdilər.

Bütün bunların fonunda liberal proqram və doktrinalarda idarəolunanlarla idarəedənlər arasında konsensusun yara-

dılması və ümumi razılıq əsasında idarəetmənin həyata keçirilməsi prinsipi əsas götürüldü.

Bunlarla yanaşı, XVIII əsrdə meydana gələn mühafizəkarlıq ideoloji cərəyanı da özündə ehtiva etdiyi bir sıra xüsusiyyətlərə görə fərqlənir. Mühafizəkarlıqda mərkəzi prinsip qismində adətlər, ənənələr və varisliyə sadiqlik çıxış edir. Bu ideoloji cərəyanın təməl prinsiplərindən biri də budur ki, dəyişikliklər tədrici surətdə həyata keçirilməli və islahatlara üstünlük verilməlidir. Dəyişikliklərdə təkamül yolunu üstün tutan mühafizəkarlar güclü dövlət tərəfdarı kimi çıxış edirlər və bildirirlər ki, milli inkişafın əsasında milli dövlətin universal səciyyə daşıyan funksional fəaliyyəti dayanır. Mühafizəkarlar belə bir prinsipi əsas tuturlar ki, keçmişdən bu günədək qorunmuş ənənələr mütəmadi surətdə mühafizə edilməli və cəmiyyətdə, idarəetmədə, fəaliyyətdə əsas istinad nöqtəsi qismində qəbul edilməlidir.

Mühafizəkarlar "rasional siyasətçi kimdir" sualı ətrafında belə bir mövqedən çıxış edirlər ki, praqmatik təfəkkürə malik olan siyasətçi uzunmüddətli effektiv nəticələr qazanmaq uğrunda mübarizə aparır: "Siyasətçinin bütün fəaliyyəti müvəqqəti üstünlük və ya populyarlıq prizmasından deyil, əldə edilmiş uzunmüddətli nəticələr nöqteyi-nəzərindən dəyərləndirilməlidir".

Bunlarla yanaşı, ənənəvi proqram, konsepsiya və doktrinalarda mühafizəkarlıq ideologiyasının digər təməl prinsipləri məhz bu cür əks olunub: "Cəmiyyətdə ənənəvi təsisatların mövcudluğuna və fəaliyyətinə geniş şərait yaradılmalıdır. Bundan başqa, ictimai ahəngdarlığın və nizamın təmin olunması üçün həyata keçiriləcək dəyişikliklər təkamül yolu ilə baş tutmalıdır. Kardinal dəyişikliklər cəmiyyətlərə nizamsızlıq, xaos və dağıntı gətirər ki, bunlar da nəticə etibarilə

ənənəvi təsisatların işini iflic vəziyyətinə salar. Məhz buna görə də, milli dövlətin mərkəzində durduğu güclü tənzimləmə mexanizmi lazımdır ki, ictimai ahəngdarlıq pozulmasın və cəmiyyətin inkişafı təmin edilsin".

Mühafizəkarlıq ideologiyasını dəyərləndirən ingilis tədqiqatçısı M.Oukşot qeyd edir: "Mühafizəkar olmaq bilinməyənə yox, bilinənə, təcrübədə təsdiq edilməyənə deyil, sınaqdan keçmişə, ehtimal olunana deyil, mövcud olana, uzağa deyil, yaxına, bol olana deyil, kifayət edənə, utopikə deyil, reallığa üstünlük verməkdir".

Bir çox araşdırmaçılar ideologiyalar sırasında neokonservatizmə xüsusi əhəmiyyət verirlər. Neokonservatizmin mahiyyətini daha da dəqiqləşdirmək üçün onun əsas prinsiplərini sadalamaq məqsədəmüvafiqdir. Ümumiyyətlə, neokonservatizm liberalizmlə mühafizəkarlığın təməl prinsiplərini özündə birləşdirən ideoloji cərəyandır. Ümumiləşdirsək, qeyd edə bilərik ki, bəhs edilən ideoloji cərəyanın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

-*Dövlət və vətəndaşın qarşılıqlı mənəvi məsuliyyəti gücləndirilməlidir;*

-*fərdin hüquq və azadlıqlarının təmin edilməsinə yönəlik xüsusi hüquqi, ictimai şərait yaradılmalı və fərdin ictimai həyatda rolunun artırılmasına qarşı bütün məhdudiyyətlər aradan qaldırılmalı və bu istiqamətdə əhəmiyyətli tədbirlər görülməlidir;*

-*Milli maraqların həyata keçirilməsində və milli həmrəyliyin təmin edilməsində əsas aktor qismində dövlət çıxış etməli və o, cəmiyyətin birləşdirici, təşkiledici başlanğıcı qismində fəaliyyət göstərməlidir;*

-*Dövlət milli maraqları və dəyərləri nəzərə almaqla hüquqi müstəvidə davamlı siyasi islahatlar həyata keçirməli*

*və fərdlərin müstəqil fəaliyyətinə geniş şərait yaratmalıdır;*

*-Dövlət demokratik şəraitdə insan və vətəndaş hüquq və azadlıqlarının bərqərar olunmasının başlıca təminatçısı olmalıdır;*

*-Sosial ədalət təmin edilməlidir. Məhz bu zaman əsas prinsip kimi insanların bərabərliyinin inzibati yollarla təmin edilməsi deyil, fərdlərə bərabər imkanların yaradılması götürülməlidir;*

*-İnkişaf kardinal dəyişikliklər və dağıdıcı üsullarla yox, tədrici təkamül vasitəsilə baş tutmalıdır. Məhz bu zaman dövlət öz üzərinə düşən bütün vəzifə və öhdəlikləri yerinə yetirməli, eyni zamanda, fərd-dövlət birliyi bu missiyanın həyata keçirilməsində təməl mexanizm olmalıdır.*

Beləliklə, ən müxtəlif nəzəri-konseptual mənbələrdə və tətbiqi araşdırmalarda belə bir yekun qənaət ifadə edilir ki, universal səciyyəli, milli dəyərlərin və rasional ənənələrin ehtiva olunduğu və adekvat surətdə əks edildiyi ideologiya milli gücün keyfiyyət ünsürü kimi dəyərləndirilməlidir. Başqa sözlə, bir milləti və ya xalqı digərindən fərqləndirən, onun mənəvi potensialını ehtiva edən, həmçinin, milli mövcudluğunun mənəvi əsasını təşkil edən milli ideologiya ümummilli inkişafı təmin edən keyfiyyət ünsürü kimi səciyyələndirilir. Çünki özündə ehtiva etdiyi ümumi prinsiplərə və dəyərlərə müvafiq olaraq monist yox, universal səciyyəli milli ideologiya normativ-semantik strukturuna görə fərdi və ictimai şüurun struktur elementlərini təkmilləşdirən və onun bütövlüyünü təmin edən mənəvi mexanizm qismində çıxış etməklə yanaşı, ümummilli inkişafın da təkanverici keyfiyyət ünsürü və fundamental faktoru önəmi daşıyır.

Bu, bir faktdır ki, universal səciyyə daşıyan və özündə mütərəqqi dəyərləri ehtiva edən milli ideologiyalar onun

daşıyıcıları və tərəfdarlarını bir mərkəzdə birləşdirməklə yanaşı, ümummilli həmrəyliyi-bütövlüyü təmin edən, ictimai şüuru milli inkişaf mənbəyinə çevirən komponent kimi çıxış edir. Bu baxımdan, bir millətin və ya xalqın mənəvi potensialı əsasında təşəkkül tapmış milli ideologiya qeyri-formal komponent kimi milli dövlətin sistematik inkişafını və bütövlüyünü təmin etməklə yanaşı, perspektiv birlik və fəaliyyət konturlarını müəyyənləşdirən amil kimi səciyyələndirilir...

Qeyd etdiyimiz kimi, milli ideoloji sistem həm də milli inkişafın təminatçısı qismində çıxış edir. Çünki milli ənənələrlə müasir mənəvi potensialı uzlaşdıran, rasional prinsipləri özündə ehtiva edən milli ideologiya fərdi və ictimai şüurun bütövlüyünü təmin etməklə yanaşı, insanların sağlam ideoloji oriyentirlərini müəyyənləşdirən və mənəvi şüurda rasional korreksiyalar edən inkişaf mənbəyi kimi səciyyələndirilir. Eyni zamanda, səfərbəredici, inteqrasiya-etdirici, maarifləndirici, tərbiyəedici və təbliğati funksiyaları özündə ehtiva edən ideologiya ümumi ideya-siyasi çağırışlar əsasında ümummilli birliyi-bütövlüyü və həmrəyliyi təmin etməklə yanaşı, ictimai şüura yeni-mütərəqqi dəyərlərin transformasiya olunması, ictimai-siyasi şüurun sağlam komponentlər əsasında formalaşması və dəyərlər sisteminin zənginləşməsi baxımından xüsusi önəm kəsb edir. Bu isə nəticə etibarilə insanların ictimai-siyasi təfəkkürünü gücləndirməklə ümummilli inkişafın mənəvi substratını təşkil etmiş olur.

Beləliklə, sadalananlardan da belə bir nəticə çıxır ki, milli ideologiya öz missiya və funksiyası ilə xalqın, milləti və millin dövləti infoimperializmlə mübarizədə mövcudluğunu qoruyub saxlayan başlıca institusional mexanizm qismində çıxış edir.

Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd

edə bilərik ki, azərbaycançılıq ideologiyası infoimperializmə qarşı mübarizədə ən effektiv institusional vasitələrdən birini təşkil etməkdədir. Bu tezisi isbat etmək üçün azərbaycançılıq ideologiyasının əsasları və əhəmiyyətinə toxunmaq məqsədəmüvafiqdir.

İlk növbədə, universal ideoloji formula olmaq etibarilə azərbaycançılıq ideologiyası zamanın tələblərinə müvafiq olaraq dünya azərbaycanlılarını birləşdirən milli məfkurə, müstəqil Azərbaycan dövlətinin ideya əsası kimi çıxış etməkdədir. Bu, eyni zamanda, ölkədəki bütün dinlərin nümayəndələrinin və etnosların həmrəylik və qarşılıqlı anlaşma içində yaşayışını təmin edən mənəvi mexanizm önəmi kəsb edir. Bununla əlaqədar Ulu öndər Heydər Əliyev bildirirdi ki, **azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir.**

Beləliklə, azərbaycançılıq real tarixi keçmişimizlə, milli mentalitetimizlə və mövcud dəyərlərlə sıx bağlı olduğundan qısa zaman kəsiyində cəmiyyət tərəfindən qəbul olunmuşdur. Digər tərəfdən, bu ideologiya siyasi mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, bütün etnik qrupların, milli azlıqların hüquqlarını paritet əsasda təsbit etdiyindən milli həmrəylik mənbəyinə çevrilib. Başqa sözlə, ictimai şüurun spesifik səviyyəsi kimi müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilən və dünya azərbaycanlılarını birləşdirən milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyası ölkədəki bütün konfessiya və etnosların həmrəylik və qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən mənəvi mexanizm səciyyəsi daşıyır.

Azərbaycançılıq ideologiyasına mənəvi sərvət kimi

yanaşan Ümummilli lider Heydər Əliyev deyirdi: "**Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli, mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan bütün azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlanması, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnməsi və hər bir insanın inkişafının təmin olunması deməkdir**".

Digər tərəfdən, azərbaycançılıq ideologiyası isə özündə ehtiva etdiyi təməl prinsiplərə görə liberalizmlə mühafizəkarlığın bir sıra prinsiplərindən ibarət olan neokonservatizm ilə sıx bağlıdır. Akademik Ramiz Mehdiyev "Yeni siyasət: inkişafa doğru" kitabında yazır ki, azərbaycançılıq coğrafi məkan baxımından neokonservatizmin milli variantı, onun prinsip və ideyalarının Azərbaycanın konkret şəraitində təcəssümüdür: "**Metodoloji prinsip baxımından-ümuminin və xüsusinin, yəni birincinin və ikincinin nisbəti baxımından azərbaycançılıq ikinci kimi çıxış edir. Azərbaycançılıq və neokonservatizm bir-birini zənginləşdirərək vahid tam kimi çıxış edirlər. Buna görə də, azərbaycançılığın milli ideologiya kimi qəbul edilməsi ölkəmizin sivilizasiyalı dövlətlər sırasına daxil olması, ümumdünya oriyentirləri və meyil-**

**ləri kontekstində daha uğurlu inkişafı üçün möhkəm zəmin yaradır. Neokonservatizm və azərbaycançılıq öz ləyaqətini itirməmiş xalqın sağlam düşüncəsinə, zəkasına eyni dərəcədə söykənir. Bu mənada vətənpərvərlik öz vətəninə, ölkəsinə, xalqına məhəbbət deməkdir və onun şovinizm ilə, milli müstəsnalıq və etnoeqoizm ilə heç bir əlaqəsi yoxdur. Əsrlərin, minilliklərin dərinliklərindən gələn ənənəyə mənsubluq bizim mədəniyyətimiz kimi qədim mədəniyyət üçün dövlətçiliyin əsasını, bütün vətəndaşların rifahı naminə dövlətin mövcudluğunun və inkişafının əsasını təşkil edir. Məhz buna görə zəngin keçmişi olan dövlət fərdi və ya qrup mənafelərinin mexaniki məcmusunun ifadəsi deyildir, əksinə, bütün cəmiyyətin ali mənafelərinin təcəssümüdür. O mənafelərin ki, vətəndaş onların naminə təkcə öz mülkiyyətini deyil, həm də həyatını qurban verməyi bacarmalıdır"**

### 6.3. Milli ideologiya vətəndaş həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən vasitədir

Dövlətçilik tarixini öyrənən alim və tədqiqatçıların ortaq qənaəti bundan ibarətdir ki, hər bir dövlətin ərazi, iqtisadi, milli əsasları olduğu kimi, ideoloji əsasları da olmalıdır. İdeoloji əsasları olmayan dövlət tarixi təcrübədə çox nadir hallarda rast gəlinən bir hadisədir. İdeoloji əsasları olmayan dövlətin uzunömürlülüyü və varisliliyi də həmişə şübhə doğurmuşdur. Bu, bir həqiqətdir ki, ideologiyası olmayan dövlətlər tarix səhnəsində müəyyən dövr ərzində funksional vahid kimi mövcud olsalar da, milli maraqları uzunmüddətli təmin edə bilməmiş və tarixin səhnəsindən silinmişlər. Bu mənada, əgər dövlətçilik və milli ideologiyadan, dövlətçilik

və milli maraqlardan danışırıqsa, burada mütləq milli ideologiya olmalıdır. Çünki hər şeydən öncə, milli ideologiya vətəndaş həmrəyliyini, ümummilli həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən başlıca mənəvi substratdır. Eyni zamanda, ideologiya milli-mənəvi identikliyi də təmin edən vasitədir. Əgər ideologiya bu qədər zəruri bir vasitədirsə, onun cəmiyyətdə olmaması cəmiyyətin əsas atributlarından birinin olmaması deməkdir. Bu isə heç şübhəsiz, həmin cəmiyyətin inkişafına əngəl törətməklə, ciddi maneələr yaratmaqla cəmiyyətin üst qurumu adlandırılan və sosial sifarişindən yaranan dövlətin də uzunömürlü və varisli olmasına mənfi təsir edir.

Ona görə də, əgər milli dövlətdən danışırıqsa və milli dövləti beynəlxalq münasibətlər sisteminin əsas aktoru kimi səciyyələndiririksə, eyni zamanda, milli dövləti milli iradənin təmsilçisi kimi təqdim ediriksə, milli dövləti hər bir xalqın, yaxud millətin siyasi təşkilatlanması kimi görürüksə, mütləq milli ideologiyanı da dediyimiz institutlaşmanı təmin edən vasitə kimi görməliyik. Əks təqdirdə, dövlətin yaşaması sadəcə olaraq, mümkün deyil. Ona görə də, tarixən qurulan bütün dövlətlər, ilk növbədə, ideologiya axtarışında olublar.

Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəlində baş verən proseslər zamanı Sovet imperiyasının iqtisadi-siyasi əsasları ilə bərabər, ideoloji dayaqları da çökdü. Ona görə də, həmin dövrdə postsovet məkanında meydana çıxan milli aktorlar yaşamaları üçün hər nə qədər iqtisadi, milli, intellektual əsaslar axtarışına başladılarsa, bir o qədər də ideoloji axtarışlar etməyə başladılar. Çünki xalq intuitiv olaraq, siyasətçilər isə şüurlu olaraq başa düşürdülər ki, əgər milli aktorun mövcud inzibati-siyasi sərhədləri içərisində hegemon bir birləşdirici ideoloji vasitə olmasa, milli

coğrafiyanın, yaxud milli siyasi-inzibati sərhədlərin qorunması olduqca çətin olacaq. Buna görə də, məhz o dövrdə hər bir xalq öz tarixi dəyərlərinə söykənməklə, eyni zamanda, müasir ictimai, siyasi, əxlaqi, mənəvi gerçəklikləri nəzərə almaqla yeni ideologiya axtarışına başladı. Bu ideologiyanı tez tapanlar mənəvi-siyasi böhrandan tez çıxdılar, ideologiya axtarışında uzun müddət ayrı-ayrı istiqamətlərə yönələn, bəzən tərəddüdlərlə üzləşən dövlətlər isə mənəvi-siyasi böhrandan daha gec çıxdılar.

Hesab edirik ki, digər postsovet respublikaları kimi Azərbaycan da bu mərhələni keçdi, öz milli ideologiyasını yaratdı. Yaranmış milli ideologiya Azərbaycanın milli dövlət maraqlarını təmin etməklə bərabər, həm də milli həmrəyliyi təmin edərək ictimai ahəngdarlığı qoruyan mexanizmə çevrildi. Yalnız bundan sonra Azərbaycan müxtəlif növ etnik, siyasi, korporativ, qrup mənafelərindən xilas olmağı bacardı və ümummilli ideologiyanı, azərbaycançılıq ideologiyasını mənimsəyərək inkişaf mərhələsinə qədəm qoymağı bacardı.

Əgər belədirsə və milli ideologiya Azərbaycanda azərbaycançılıq adı altında bərqərar olubsa, bu gün bizə milli ideologiya lazımdırmı sualını vermək nə qədər doğrudur? Hesab edirik ki, bu müstəqil Azərbaycanın 20 illik tarixinin birinci 5 illiyində verilməsi lazım olan sual idi. O dövrdə doğrudan da bu sual bir problem kimi Azərbaycan cəmiyyətində dururdu, sonrakı mərhələdə böyük dövlət xadimi Heydər Əliyev tərəfindən qısa müddətdə həll edildi. Bəziləri bu gün "milli ideologiya lazımdırmı" sualını verməklə, cəmiyyətdə yeni diskussiya, axtarış, yeni istiqamətlənmə meyilləri axtarmağa çalışırlar. Hesab edirik ki, bu, Azərbaycanın içərisində olduğu indiki beynəlxalq şərtlər və daxili münasibətlər müstəvisində həm aktual deyil,

həm də heç lazım da deyil. Çünki milli maraqlar və dövlətçilik maraqları ilə bağlı yuxarıda sadaladığımız əsaslar bizim milli ideologiyamızı təmin etmişdir. Ona görə də, yenidən ideologiya axtarışına çıxmaq bir növ geriyə qayıtmaq deməkdir. Hesab edirik ki, bu gün Azərbaycan irəliyə doğru getməlidir, onun geriyə getməyə vaxtı yoxdur. Ancaq əlbəttə ki, bəzi hallarda ayrı-ayrı adamlar tərəfindən ideologiyalı cəmiyyət tənqid edilir, yaxud ideologiyanın lazım olub-olmaması sual kimi qoyulur. Hesab edirik ki, bu, milli maraqlar baxımından zərərli, dövlətçilik mənafeyi baxımından isə təhlükəli bir sualdır. Əgər biz ideologiyanı, dövlətçiliyi təmin edən əsas vasitələrdən, mənəvi substratlardan biri kimi təqdim ediriksə onda milli ideologiyadan imtina etməklə bağlı olan çağırışlar məntiq etibarilə, əslində dövlətçilik maraqlarına zidd olan çağırışlar kimi qiymətləndirilə, səciyyələndirilə bilər.

Bəzi hallarda milli ideologiyanın yerinə demokratiya, hüquqi dövlət, azadlıq kimi anlayışları milli ideologiya kimi təqdim etməyə çalışırlar. Əlbəttə ki, bu, yeni bir baxış və müstəqil fikir deyil. Bu, zaman-zaman imperialist mərkəzlərin ayrı-ayrı cəmiyyətlərdə anarxist demokratiya, yaxud ziddiyyətli demokratiya qurmaq və beləliklə də, həmin cəmiyyətləri istismar etmək məqsədilə ortaya atdıqları imperialist düşüncə ünsürüdür. Demokratiya heç vaxt milli ideologiya ola bilməz. Demokratiya milli məqsəd ola bilər, milli dəyər ola bilər. Azadlıq məqsəd ola bilər, ideologiya ola bilməz. Ona görə də, imperialist mərkəzlər inkişafda olan dövlətlərə məhz bu dəyərləri ideologiya kimi təqdim etməklə, bir növ həmin dövlətləri ideologiyasızlaşdırırlar. Məqsəd isə aydındır, onlar da bilirlər ki, ideologiyasız dövlət ola bilməz. Müasir imperializmin əsas məqsədlərindən biri də ekspansiya

obyekti kimi gördüyü ölkələri lidersizləşdirmək, ideologiyasızlaşdırmaq və nəhayət, dövlətsizləşdirməkdir. Ona görə də, məhz bu gün Azərbaycan Respublikasının Prezidentinin də qeyd etdiyi kimi, bizim üç düşmənimizdən biri olan müstəmləkəçi ölkələr Azərbaycanda milli həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən milli ideologiyamıza hücumlar təşkil etmək cəhdləri göstərir. Məqsəd də bəllidir. Hesab edirik ki, bu gün Azərbaycan cəmiyyətində belə müzakirələrin açılması və məhz qeyri-peşəkarların və siyasi ambisiyası olanların bu müzakirələri başlaması müstəmləkəçi dövlətlərin maraqlarına xidmət edir. Təəssüf ki, qeyri-professionallar nə ideologiyanı, nə onun cəmiyyətdəki yerini, rolunu, nə onun funksional, eyni zamanda, mənəvi tərəflərini düzgün izah edə bilmirlər. Beləliklə də, ziddiyyətli fikirlərlə ictimai çaşqınlıq yaradırlar. Əgər bu gün Azərbaycanda hüquqi dövlət qurulursa və bu hüquqi dövlətin əsaslarını ümummilli həmrəylik təşkil edirsə və bu bəzi adamlar tərəfindən etiraf olunursa, onda belə bir sual vermək olar: Bəs ümummilli həmrəyliyi təmin edən vasitə nədir? Heç şübhəsiz, bunun bir cavabı var: milli ideologiya. Belə olan halda, onda niyə milli ideologiyaya hücum edirik? Ona görə də, bir məsələni müzakirəyə çıxaran zaman, yaxud hər hansı məsələ barəsində ümummilli kontekstdə dialoqa girmək arzusunda olan zaman ilk növbədə, problemi mənimsəmək lazımdır ki, təqdim etdiyiniz fikirlər sizin özünüzü təkzib etməsin, ziddiyyətli olmasın.

Azərbaycanın bu gün ideologiyasız, lidersiz cəmiyyətə sürüklənməsi, əslində, Azərbaycanın dövlətsizləşdirilməsinə hədəflənən addımlardır ki, bu da əsla milli və dövlətçilik maraqlarımızla üst-üstə düşə bilməz.

Hesab edirik ki, əgər bu gün Azərbaycanda təntənə etmiş milli ideologiyanı xarakterizə etməyə çalışsaq, bu

ideologiya, qeyd etdiyimiz kimi, nüfuz dairəsinə görə milli və ümumbəşəridir, daxili strukturuna görə, dünyəvi, rasional və universaldır, sosial bazasına görə millidir, sosial mənafeyə görə mütərəqqi, mühafizəkar və liberaldır. Vurğuladığımız kimi, əgər bu prinsipləri siyasi, ideoloji cərəyanlarla identifikasiya etməyə çalışsaq, görərik ki, müasir Azərbaycanın milli ideologiyası kimi səciyyələndirilən azərbaycançılıq ideologiyası neokonservativ ideologiyadır. Bu gün inkişaf edən bütün cəmiyyətlərdə demək olar ki, aparıcı ideologiya neokonservativizmdir. Qərb cəmiyyətlərində inkişafın əsasında duran məhz bu ideologiyadır. Neokonservatizm irrasional qərbçilik deyil, irrasional milliyyətçilik də deyil. Nəzərə alsaq ki, neokonservativizmin əsasında liberalizm və konservatizm dayanır, bu ikisinin cəmi neokonservativizmi yaradır. Liberalizm adət-ənənələrə, vərdişlərə münasibətdə tam müstəqil olan, öz müqəddəratını və fəaliyyətini müstəqil surətdə müəyyənləşdirməklə xarakterizə edilən fəaliyyət və düşüncə tərzi kimi səciyyələndirilir. Ümumilikdə isə, liberalizmi səciyyələndirən doktrina və konsepsiyaların mərkəzində fərdin azadlığı ideyası durur. Bu ideoloji cərəyanın əsas struktur elementləri və prinsipləri müxtəlif xarakterli nəzəriyyə və konsepsiyalarda zaman-zaman öz əksini tapmışdır. Hesab edirik ki, indiki şəraitdə Azərbaycanda nəzəriyyəçi olmayan, ümumiyyətlə, bu problemdən anlayışı olmayan adamların yenidən ideoloji məsələlərlə bağlı müzakirə açması o qədər də doğru deyil. Konservatizmin əsasında isə cəmiyyətdə ənənəvi təsisatların mövcudluğuna və fəaliyyətinə geniş şəraitin yaradılması durur. Bundan başqa, ictimai ahəngdarlığın və nizamın təmin olunması üçün həyata keçirilən dəyişikliklər və s. durur.

Və nəhayət neokonservatizm (oxu, azərbaycançılıq) bilinməyənə yox, bilinənə, təcrübədə təsdiq edilməyənə deyil, sınaqdan keçmişə, ehtimal olunana deyil, mövcud olana, uzağa deyil, yaxına, bol olana deyil, kifayət edənə, utopikə deyil, reallığa üstünlük verir. Bu mənada Azərbaycanda mövcud olan azərbaycançılıq ideologiyası və neokonservativizm Azərbaycanın milli və dövlət maraqlarına cavab verən, Azərbaycan cəmiyyətində bərqərar olmuş, kök salmış bir dəyər kimi mənimsənilmiş ideologiyadır. Hesab edirik ki, belə olan halda, yenidən ideologiya axtarışına çıxmaq yersizdir.

## VII FƏSİL

# Azərbaycan və beynəlxalq informasiya şəbəkələri: milli maraqlar və onların müdafiəsi mexanizmləri

### 7.1. Milli enerji, milli güc və milli dövlət: milli enerji pozitiv və neqativ platformada

Bütöv bir sistem olmaq etibarilə hər bir cəmiyyətin təkmil surətdə idarə olunması, müsbət və mənfi meyillərə istiqamətlənməsi və inkişafının təmin edilməsi sosium daxilindəki funksional dinamik güclərlə əlaqədardır. Əlbəttə ki, cəmiyyətin inkişafının əsasında duran fundamental faktorlardan birini sosium daxilindəki funksional dinamik güclərin hansı tip enerji ilə yüklənməsi təşkil edir. Bir çox cəmiyyətlərdə neqativ enerji yükü üstünlük təşkil etdiyindən burada destruktiv meyillər hökm sürür, xaos və institusional problemlər mövcud olur. Bəzi cəmiyyətlərdə isə dinamik güclər pozitiv enerji ilə yükləndiklərindən onların fəaliyyəti ictimai nizam və ahəngdarlığın mühafizəsinə xidmət edir, bunun sayəsində isə sosiumda stabillik və sabit inkişafa nail olmaq mümkün olur.

Təsadüfi deyil ki, modern cəmiyyətlərdə sosial psixoloqları düşündürən başlıca məsələlərdən biri də məhz cəmiyyətdəki neqativ yüklərin neytrallaşdırılması, eyni zamanda, pozitiv enerjinin miqyası və səviyyəsinin artırılmasıdır. Əlbəttə ki, sosium daxilində pozitiv enerjinin bərqərar olunması cəmiyyətin siyasi sisteminin xarakteristikasından, mənəvi dəyərlər və stimullardan, sosial ədalət prinsipinin nə dərəcədə

təşəkkül tapmasından, cəmiyyəti formalaşdıran fərdlərin intellektual və ümumi dünyagörüşü səviyyəsindən və s. asılıdır. Məhz bütün bu ünsürlər modern Qərb cəmiyyətlərində təşəkkül tapdığından bəhs olunan sosiumlarda inkişaf, sabitlik və pozitiv tendensiyalar müşahidə olunur. Bu cür nizamlı və davamlı inkişafın fonunda Qərb cəmiyyətlərində elm, sənaye və digər sahələrdə yüksək tərəqqi meyilləri əldə olunub. Bu isə sosiumda funksional fərdlərin-peşəkar kadrların və intellektual subyektlərin formalaşmasını şərtləndirib ki, bu da birbaşa inkişaf və tərəqqinin qarantı qismində çıxış edən əsas amillərdən biridir.

Əlbəttə ki, cəmiyyət bütöv bir sistemdir və fərdlərin məcmusundan ibarətdir. Deməli, sosiumda təşəkkül tapmış pozitiv və neqativ enerjinin kökünü fərdlərdə axtarmaq lazımdır. Burada isə ilk növbədə, diqqəti ayrı-ayrı fərdlərin şəxsi keyfiyyətlərinə, daha sonra fərdlərin formalaşdırdığı sosial qruplar və kollektivlərin, bunun ardınca isə ictimai-siyasi institutların fəaliyyət mexanizminə yönəltmək lazımdır. Ümumiləşdirsək, deyə bilərik ki, inkişaf etmiş və intellektual əsaslı cəmiyyət üçün inkişaf etmiş və intellektual fərd şərtdir. Çünki cəmiyyət bütöv bir sistem olmaqla yanaşı, həm də funksional vahidlərdən ibarətdir. Odur ki, cəmiyyəti formalaşdıran fərdlərin inkişafı məhz sosiumun inkişafını, cəmiyyət daxilindəki proseslər və tendensiyaların pozitiv xarakter almasını şərtləndirən faktordur. Təbii ki, burada söhbət təkcə fərdlərin intellektual potensialından və inkişaf səviyyəsindən getmir. Ən əsası budur ki, fərdlər özlərinin ümumi dünyagörüşlərinə müvafiq surətdə mənimsədikləri dəyərləri sosial-siyasi müstəvidə reallaşdırmalı və praktik müstəvidə pozitiv enerjinin təşəkkül tapması üçün fəaliyyət göstərməlidirlər.

Əlbəttə ki, ideal cəmiyyət yoxdur. Bu və ya digər sosiumlarda, hətta modern Qərb cəmiyyətlərində belə həm pozitiv, həm də neqativ enerji təşəkkül tapmışdır. Amma bunların proporsiyasına (nisbətinə) müvafiq olaraq bir cəmiyyət digərindən özünün inkişafına və ahəngdarlıq səviyyəsinə görə fərqlənir.

Vurğulanması zəruri olan məqamlardan biri də idarə olunan və olunmayan enerji məsələsidir. Bu gün sosial psixoloqları və cəmiyyətşünasları düşündürən başlıca məsələlərdən biri də neqativ enerjinin necə idarə olunması, həmçinin, onun cəmiyyətdən ixrac olunmasının metod və vasitələrinin tapılmasıdır. Bu istiqamətdə Qərb cəmiyyətlərində artıq müəyyən üsul və vasitələrdən istifadə olunmaqdadır. Eyni zamanda, inkişaf etmiş cəmiyyətlərdə bu yöndə psixoloq xidməti təklif olunmaqdadır. Həmçinin, Qərb cəmiyyətlərində fərdlərin neqativ yüklü enerjidən arınması üçün inanc vasitələri və dini dəyərlər mühüm əhəmiyyət kəsb edir. Məsələn, günah işlətmiş və ya özünü günahkar hesab edən şəxslər dini liderə (məsələn, papaza) müraciət etməklə günahlarını etiraf etmiş olurlar. Günahını etiraf etmiş şəxs özünü təmizlənmiş hesab edir və öz vicdanı qarşısında bir daha günah etməmək kimi öhdəlik götürür. Təbii ki, bu, fərdi müstəvidə neqativ enerjinin cəmiyyətdən zərərsiz olaraq ixrac olunmasının bir formasıdır. Amma təəssüf ki, İslam dinində də bu cür müsbət xüsusiyyət-tövbə ənənəsi olmasına baxmayaraq, nədənsə, müsəlman şərqində mövcud olan cəmiyyətlərdə günahı etiraf etmək, yanlış yoldan dönmək ənənəsinə gündəlik həyatda çox az hallarda rast gəlinir. İnkişaf və tərəqqi isə bu cür sindromların "sındırılması"nı tələb edir.

Bütün bunların fonunda olduqca mühüm əhəmiyyət kəsb edən digər bir məsələ və istiqamətə də toxunmaq məqsə-

dəmüvafiqdir. Belə ki, müasir kibertexnologiyaların, informasiya və kommunikasiya vasitələrinin, yeni təmayüllü sosial medianın yaranması da pozitiv və neqativ enerjinin təşəkkül tapması və müxtəlif sahələrə sirayət etməsinə şərait yaradır. Sosial media özünəməxsus platformadır. O, bütün fərdləri əhatə edəcək qədər kütləvidir, eyni zamanda, ifrat sərbəstlik verəcək qədər azaddır. Belə olan təqdirdə bəhs olunan platformada idarəetməni və rasional nəzarəti necə təşkil etmək lazımdır? İlk növbədə, qeyd etmək lazımdır ki, yuxarıda inkişaf etmiş sosium kimi səciyyələndirdiyimiz cəmiyyətlərdə bu platformadan müsbət enerjinin təşəkkülü və idarəolunması istiqamətində pozitiv surətdə istifadə edilməkdədir. Bu isə özlüyündə cəmiyyətə nizam, ahəngdarlıq, tərəqqi və sabitlik gətirməkdədir. Amma rasional münasibətlər sisteminin formalaşmadığı neqativ yüklü cəmiyyətlərdə bu platforma, bir növ, xaos və destruktiv ziddiyyətlər mənbəyi kimi çıxış edir ki, bu da əlbəttə ki, arzuolunmazdır. Məsələn, "Ərəb baharı" adlandırılan Yaxın Şərq və Şimali Afrika olaylarından sonra bir daha əmin olduq ki, sosial media hər nə qədər inkişaf üçün bir açar əhəmiyyəti daşıyırsa, bir o qədər də tənəzzül mənbəyi və ya vasitəsi kimi də çıxış edir.

Sosial medianın bu gücü və keyfiyyəti, heç şübhəsiz, onu yaradanlar tərəfindən əvvəlcədən nəzərə alınmış və məqsədə uyğun şəkildə sistemləşdirilmişdir. Bu isə sosial mediaya idarəetmə keyfiyyəti gətirməklə konkret sosial-psixoloji silaha çevirmişdir. İdarə edilənlər bu silah vasitəsilə ayrı-ayrı cəmiyyətlərdə ən müxtəlif hadisələr törədə, milli dövlətlərin və xalqların hüquqlarını öz maraqları naminə ciddi zərbə altında qoya bilirlər. Başqa sözlə, sosial media beynəlxalq təzyiq qrupları kimi fəaliyyət göstərir və onu idarə edən transmilli güclərin imperialist maraqlarına xidmət edir.

Məsələn, infoimperialistlər tərəfindən hədəfə alınmış bir ölkənin ictimai auditoriyası üçün ilk baxışda cəlbedici görünən və dəbdə olan bir “demokratiya nəğməsi” düşünülür və bu “nəğmə”yə həmin öz milli maraqlarına qarşı çıxış etmək üçün xüsusi qəzəb və kin notları yüklənir. Bu kin və qəzəb fərdlər tərəfindən mənimsənilməklə vətəndaşı mənsub olduğu dövlətə qarşı istiqamətləndirir. Sosial media vasitəsilə kütləviləşdirilən bu “nəğmə” “xor”a, sonra isə dirijor çubuğu vasitəsilə idarə edilən simfonik orkestrə çevrilir. Dirijor qismində imperialist mərkəzlər çıxış edir. Belə mərkəzlərin maraqları isə əsla milli dövlətlərin mənafeyi ilə üst-üstə düşmür. Dirijorun çubuğu ilə idarə edilən kütlə qeyri-şüuri davranışı mənimsəməklə idarə olunan xaos qismində çıxış edir. Dirijor çubuğu hədəf olaraq milli dövlətləri göstərir və “Ərəb baharı” hazırdır. Bundan sonra yaddaşlarda “demokratiya nəğməsi”, real həyatda isə terror, qarşıdurma, milli faciə və milli dövlətlərin dağılması müşahidə olunur. Böyük bir cəzasızlıq mühiti, bir-birinə kin duyan bir neçə tərəf, xaos cəmiyyəti, viran olmuş ölkə: qazanan isə, əlbəttə ki, imperialist güclərdir.

Neqativ enerji yüklü fərdlərin üstünlük təşkil etdiyi cəmiyyətlərdə, çox təəssüf ki, sosial media üzərindən destruktiv xarakterli fikirlər təbliğ edilir və sosium daxilindəki ictimai ahəngin pozulmasına zəmin yaradılır. Hətta Azərbaycanda da bəzi qüvvələr bilərəkdən və ya bilməyərəkdən sosial media üzərindən neqativ enerji paylaşımı edir ki, bu da cəmiyyət daxilindəki fərdlərin mənfi enerji ilə yüklənməsini şərtləndirir. Təəssüflər olsun ki, həmin qüvvələr bununla imperialist güc mərkəzlərinin transmilli səciyyə daşıyan strateji planlarına xidmət edirlər. Ancaq bəxtimiz onda gətirib ki, cəmiyyətimiz kifayət qədər intellektual və yetkindir. Bir çox fərdlər məsələ-

nin mahiyyətini tam olaraq dərk edir, anlayır, digər bir qisim isə elmi-nəzəri əsasları bilməsə də, intuitiv olaraq, onların məqsədlərini başa düşür və idarəolunan xaosa qarşı dururlar. Ona görə də, ölkəmizdə tərəqqi və inkişaf baş verir və bu proses dövlətimiz tərəfindən milli maraqlarımıza uyğun şəkildə məharətlə idarə olunur.

Qeyd etdiyimiz kimi, "Ərəb baharı" kimi səciyyələndirilən olayların başlanmasında və dinamikasında imperialist güc mərkəzləri sosial mediadan məharətlə istifadə etdilər. Bu zaman isə qeyd etdiyimiz kimi, daha çox "demokratiya nəğmələri"nə istinad edildi. Amma bəhs olunan geostrateji məkanda baş verən destruktiv olaylardan sonra heç kəs iddia edə bilməz ki, "Ərəb baharı" Yaxın Şərq və Şimali Afrikaya demokratiya, tərəqqi və rifah gətirəcək. Məsələ ondadır ki, mövcud proseslərin fonunda ortaya atılan iddia ilə onu təmin etməli və ya mənimsəməli olan resurslar adekvat deyil, hətta ziddiyyətlidir. Yəni, demokratiya, insan hüquqları və azadlıqlar və s. kimi dəyərləri qəbul edəcək insani resurslar onu mənimsəməyə hazır deyillər. Ən azından ona görə ki, – birincisi, belə dəyərlər, birincisi, səmimi niyyətlə ixrac olunmur, – ikincisi, heç ixrac edənin məqsədi də həqiqi demokratiya ixrac etmək deyil, – üçüncüsü, 40 ölçülü ayağa 50 ölçülü ayaqqabı geyindirilməyə çalışılır, üstəlik israrla tələb edilir ki, sağ tay sol ayağa, sol tay isə sağ ayağa geyindirilməlidir. Belə geyinib, yeriyəndə isə adam yıxılaraq gülüş hədəfinə çevrilir. Bir neçə dəfə yıxıldıqdan sonra isə artıq emosiyalar işə düşür, növbəti prosesdə əql iştirak etmir və kütləvi mənfi emosiya inqilab doğurur.

Ümumiyyətlə, inqilab yalnız dağıntı və xaos gətirir. Və yaxud inqilabla tərəqqi, rifah, demokratiya və inkişaf əldə etmək olmaz. Artıq bir neçə ildir ki, dünya miqyasında inqilab-

lar və iğtişaşlarla müşayiət olunan destruktiv olaylar göstərir ki, bu tip inqilablar yalnız milli tənəzzül mənbəyi qismində çıxış edir. Məhz buna görə də, "Ərəb baharı" adlandırılan olayların fonunda iddia edildiyinin əksinə olaraq deyə bilərik ki, inqilab və ya iğtişaşla əsla demokratiya keçidi-demokratik tranziti təmin etmək olmaz. Başqa sözlə, qanunsuzluqla qanun yaratmaq olmaz. "Oğuznamə"də deyildiyi kimi, qanla qanun yaratmaq olmaz!

Məsələ ondadır ki, "Ərəb baharı" kimi səciyyələndirilən olayların fonunda əldə edilən nəticələr nəinki demokratik transformasiyanı təmin etmir, hətta xaos və anarxiya mənbəyi qismində çıxış edir. Məlum olduğu kimi, praktik proseslərin fonunda konseptuallaşdırılmış nəzəri mənbələrdə milli dövlətlər şərti olaraq demokratik, demokratik transformasiya yolunda olan və qeyri-demokratik ölkələr kimi səciyyələndirirlər. Zənnimizcə, bunun əsası hər bir cəmiyyətin xarakteri və fərdlərin şəxsi intellektual və mədəni keyfiyyətləri ilə bağlıdır. Ümumiyyətlə, demokratiyaya ən müxtəlif təriflər verilsə də, əminliklə söyləmək olar ki, demokratiya etalon deyil və yaxud demokratiya etalonu yoxdur. Başqa sözlə desək, hər bir demokratiya modeli digərindən köklü surətdə fərqlənir. Məsələn, Fransa ilə Almaniyanın idarəetmə sisteminin fonunda hər iki ölkənin demokratiya modelləri bir-birindən fərqlənir. Məhz bu kontekstdə qeyd edə bilərik ki, demokratiya əxlaqdır, həyat tərzidir, hüquqdur, azadlıqdır, intellektdir, dünyagörüşüdür və s. Bunları isə haradansa satın almaq mümkün deyil. Gərək, zəhmət çəkib, illərlə qətrə-qətrə əldə edəsən. Özü də, bu cəhd kütləvi olmalıdır.

Yuxarıda da qeyd etdik ki, "Ərəb baharı" kimi səciyyələndirilən olayların başlanmasında və dinamikasında imperialist güc mərkəzləri sosial mediadan məharətlə istifadə etdilər.

Bu zaman isə daha çox "demokratiya nəğmələri"nə istinad edildi. Əlbəttə ki, məhz bu cür yanaşmanın fonunda hazırda "demokratiya" silahından müasir dünya siyasətində imperialist güc mərkəzləri məharətlə istifadə etməkdədirlər.

### 7.2. Milli vətənpərvərlik məsələsi: təmayüllər və istiqamətlər; intellektual patriotizm milli maraqların etibarlı müdafiə vasitəsi kimi

İnfoimperializm çərçivəsində mövcud olması zəruri olan başlıca müdafiə mexanizmlərindən biri də intellektual patriotizmdir. İntellektual patriotizmdən bəhs edərkən, diqqət çəkilməsi zəruri olan başlıca istiqamətlərdən biri də milli gücün keyfiyyət ünsürləri kimi səciyyələndirilən milli xarakter və milli mənəviyyatdır. Şübhəsiz, milli gücün struktur elementi olduğuna görə intellektual patriotizm milli maraqların müdafiəsi vasitəsi və mexanizmi qismində çıxış edir. Bir çox araşdırmaçılar vətənpərvərliyi milli mənəviyyatın və milli xarakterin struktur komponenti kimi səciyyələndirdiklərinə görə milli gücün keyfiyyət ünsürləri sırasında nəzərdən keçirirlər. Məhz buna görə də, radikal və intellektual olmaqla patriotizmin mahiyyətini aşkar etmək üçün milli güc və onun keyfiyyət ünsürləri qismində səciyyələndirilən milli mənəviyyat və milli xarakterə toxunmaq məqsədəmüvafiqdir.

Güc məfhumunu ən çox istifadə edən və onu beynəlxalq münasibətlərin əsas istinad mənbəyi hesab edən Hans Morgentau siyasəti güc mücadiləsi kimi təqdim etsə də, güc anlayışını ayrılıqda təhlil edib izahını vermir.

Morgentauya görə, güc siyasətin təməl məqsədini və hər hansı bir siyasi davranışın təməl marağını təşkil etməklə, həm də əlaqələrin formasını və həyata keçirilməsi vasitəsini müəy-

yən edir. Ayrıca güc mücadiləsi anlayışı həmişə dövlətlər arasındakı siyasi təsiretmə münasibətlərini tam olaraq ifadə etmir, yaxud bəzi dövlətlərarası münasibətlərdə reallığı əks etdirmir.

Güc faktoru yanaşmasına qarşı çıxan Vilson və onun mövqeyində duranlar isə dövlətlərin sosial və siyasi təsisatları ilə xarici siyasət seçimləri arasında bağlılıq olduğuna diqqəti çəkir və bu məsələdə demokratik qüvvələrin güc və əməkdaşlıq seçimi qarşısında qaldıqda ikincini seçəcəklərini bildirir. Buna görə də, demokratik ölkələr xarici siyasətdə ədalət və əxlaq kimi anlayışlara diqqət yetirir, sülh və sabitliyin qorunmasına çalışırlar. Avtokratik rejimlər isə gücü əsas götürür və bir mənada güc və avtokratiya eyni məzmun ifadə edir. Lakin Vilsonçular demokratik ölkələrin gücdən istifadə etmədən öz məqsədlərinə necə çatdıqları məsələsini izah edə bilmədikləri və dövlətlərin necə davrandığından daha çox necə davranmaları lazım olduğu üzərində dayandıqları üçün onların yanaşması realistlər tərəfindən utopik hesab edilir və tənqidə məruz qalır.

Müasir araşdırmaçıların bir çoxu isə güc anlayışını daha formal bir şəkildə qəbul edərək gücü dövlətin sahib olduğu fiziki ünsür olaraq ifadə edir və bunu əsas götürərək, daha çox milli güc və onu meydana gətirən nəsnələr üzərində dayanırlar. Onlar dövlətlər arasındakı həqiqi əlaqələr və gücdən istifadə edərək, milli məqsədləri gerçəkləşdirmə üsullarını görməzlikdən gəlirlər.

Bəzi araşdırmaçılar gücün fiziki tərəfindən daha çox ondan istifadəetmənin formasına diqqəti çəkərək, həqiqi gücün real istifadə mexanizminə sahib olması və başqa ölkələr üzərində təsiretmə imkanları yaradan güc olduğunu ifadə edirlər. Onlar istifadə edilməyən və digər ölkələr

üzərində təsiri olmayan, yaxud bu məqsədə xidmət edəcək mexanizmi mövcud olmayan fiziki ünsürlərin güc kimi qiymətləndirilməsinin doğru olmadığını irəli sürürlər. Bu əsasda, güclü dövlətin məhz sahib olduğu fiziki və intellektual ünsürləri digər dövlətlər üzərində təsir vasitəsi ola biləcək şəkildə istifadə edə bilən, yaxud bu qabiliyyətə sahib olan dövlətin olduğu bildirilir. Beləliklə, A dövlətinin B dövlətinə qarşı istifadə etdiyi və normal şərtlər çərçivəsində B dövlətinin qəbul etməyəcəyi bir şeyin yerinə yetirilməsinə təsir edən vasitəyə güc adı verilir.

Ancaq burada A dövlətinin sahib olduğu üstünlük fiziki nümayişlə müşahidə edilə də bilər, edilməyə də. Başqa sözlə, güc təsir və üstünlük kimi iki əsas ünsürdən ibarətdir. Məsələn, bankı soymaq üçün xəzinəyə doğru yaxınlaşan, silahı olan, lakin onu göstərməyən bir adamın silahını görməyən xəzinədar soyğunçunun istədiyini rədd edə bilər. Amma həmin soyğunçu silahını çəkərək içəri girsə, xəzinədar böyük ehtimalla onun istədiyini yerinə yetirər. Burada hər iki halda silah vardır, amma ondan istifadə edilmədikdə, yaxud o nümayiş etdirilmədikdə heç bir təsiri olmur, ancaq istifadə edildikdə isə dərhal təsiri olur. Başqa sözlə, üstünlüyün arzuolunan təsiri yarada bilməsi üçün ondan istifadə edilməsi və ya istifadə edilmə ehtimalının yüksək olmasının göstərilməsi lazımdır. Bu misalı eynilə dövlətlərin hərbi gücü məsələsinə də aid etmək olar. Bu mövqeyə görə, dövlətin iqtisadi, siyasi beynəlxalq konyuktura və ya hər hansı başqa bir səbəbdən istifadə edilməyən, yaxud istifadəedilmə ehtimalı olmayan bir üstünlüyü güc olaraq qiymətləndirilmir. Ayrıca bu yanaşmaya görə, güc ibrətamiz bir anlayışdır və başqa ünsürü, üstünlüyün istifadə edilməsinin bir ünvanının, bir dövlətin olduğunu və həmin dövlətlə müəyyən əlaqələrin

mövcudluğunu da göstərir. Təbii ki, aralarında heç bir əlaqə olmayan iki ölkənin sahib olduqları üstünlüklərin onların heç biri üçün əhəmiyyəti yoxdur.

Beləliklə, əgər A dövləti B dövlətinə normal şərtlərdə qəbul etdirə bilmədiyi şeyi sonda qəbul etdirə bilirsə və B dövləti A dövlətinin bu istəyinin qarşısını hər hansı vasitə ilə ala bilmirsə, deməli, A dövləti B dövlətindən daha güclüdür. Yox əgər B dövləti bunu rədd edə bilirsə və A dövləti üzərində eyni təsir imkanlarına sahibdirsə, deməli, bu iki dövlətin bir-birilərinə qarşı güclərinin əhəmiyyəti yoxdur. Bu yanaşmaya görə, qısaca olaraq, ibrət anlayışı olan gücün təsir, üstünlük və əlaqə kimi təməl ünsürləri olmalıdır.

Güc sadəcə A dövlətinin B dövlətini bir şeyi etdirməyə məcbur etməsi deyil, həm də bunun mütəmadi olmasını təmin etmək, eyni zamanda, nəyisə etməyə qoymaması da ola bilər. Dolayısıyla, gücün bir mənada davamlılıq ifadə etdiyi də görünür. Bundan başqa, A dövlətinin təsiri ilə onun istədiyi kimi davranan, B dövlətinin vəziyyəti, A dövlətinin davranışını da B dövlətinin mənafeyinə uyğun dəyişə bilər. Beləliklə, təsiretmə birtərəfli olmaqdan çıxaraq qarşılıqlı ola bilər. Ayrıca güc bir dövlətin beynəlxalq nüfuzu ilə də bağlıdır. Bir dövlətin beynəlxalq sistemdə nüfuzunun artdığı qədər digər dövlətlərlə münasibətində də nüfuzu artacaq və başqa dövlətlər üzərində təsiri də artacaqdır. Güc anlayışı ilə əlaqədar başqa bir anlayış da dərketmədir.

Gücün gerçək miqdarının və ondan istifadə edilib edilməyəcəyini dərk etmək olduqca əhəmiyyətlidir. Çünki bəzən şişirdilmiş məlumatlara söykənən rəqəmlər və ya istifadə ediləcəyi hesab olunduğu halda, istifadə edilməyən nüfuz yanlış təsəvvür yarada bilər. Məsələn, oyuncaq tapançanı həqiqi hesab edib xəzinəsini soyduran xəzinədar

tapançanın zahiri görünüşünə aldanaraq onu gerçək hesab edir. Yəni tapançanın yalançı olduğunu dərk etmir və bunun zərərdidəsinə çevrilir.

Frankelə görə, də güc başqalarının davranışlarına təsiretmə vasitəsidir. Güc dedikdə, ilk növbədə, hərbi güc başa düşülsə də, artıq müasir dövrdə hərbi gücün tətbiqedilmə sahəsi məhdudlaşdırıldığından güc anlayışını daha geniş mənada başa düşmək lazımdır. Buna görə də, Frankelə görə güc maddi və maddi olmayan ünsürlərdən ibarətdir. Amma buna baxmayaraq, yenə də güc deyincə, ilk növbədə, maddi hərbi-texniki qüdrət göz önünə gəldiyindən maddi olmayan tərəf o qədər də qəbul edilmir.

K.J.Holsti və Frankel kimi bir çox araşdırmaçılar tərəfindən potensial kimi təhlil edilən, Morgentauya görə isə, bir milləti başqa millətlər qarşısında güc sahibi edən faktorlar və milli potensial olaraq qəbul edilən ünsürlər kəmiyyət və keyfiyyət ünsürlərinin cəmindən ibarətdir.

Burada, kəmiyyət dedikdə coğrafiya, təbii qaynaqlar, sənaye potensialı, hərbi hazırlıq dərəcəsi və əhali sayı, keyfiyyət dedikdə isə milli əxlaq, milli xüsusiyyət diplomatiyanın və hökumətin keyfiyyəti başa düşülür. Ancaq bir dövlətin güc sahibi olması üçün bu ünsürlərə sahib olması Morgentaunun məntiqinə görə yetərli sayılsa da, Holsti və başqaları üçün bunların güc olaraq qəbul edilməsi üçün digər ölkə və ölkələrin davranışlarına təsir edəcək gücdə olduqda, başqa sözlə, dövlətin bunları siyasi məqsədlər üçün istifadə edə biləcəyi təqdirdə potensial hesab edilə bilər. Çünki keçmişdə olduğu kimi, indi də güclü dövlətlərin müəyyənləşdirilməsində dövlətlərin sahib olduqları həqiqi potensialdan çox bu potensialı xarici siyasət məqsədi üçün istifadə edə bilmək bacarığı əsas götürülür.

Frankel potensial anlayışı altında tanıdığı gücün başqa dövlətlərlə müqayisədə məzmun kəsb etdiyini diqqətə çatdırır. Hər hansı bir dövlətin əhalisinin sayının nə qədər olmasını başqa ölkənin əhalisinin sayı ilə müqayisə etdikdə əhəmiyyət kəsb etdiyi kimi.

Ayrıca hərbi potensialı nəzərə alarkən, silahın növləri və sayları əhəmiyyətli olduğu kimi, əhali faktoru nəzərə alındıqda da yaş, cinsiyyət, təhsil kimi faktorlar əhəmiyyət daşıyır.

Başqa bir tərəfdən milli potensialın komponentlərindən hər hansı birinin ayrılıqda güclü olması ümumi potensialın güclü olduğu mənasına gəlmir. Məsələn, sənaye potensialı, texnoloji səviyyə, iqtisadi vəziyyət və əhali sayı kimi komponentlərin aşağı olması halında ayrılıqda hərbi potensialın yüksək olması çox da əhəmiyyət daşımır. Əhali sayı baxımından çox böyük, başqa potensiallar baxımından lazımi səviyyədə olmamaq güclü olmaq hesab edilmir.

Bir dövlətin sahib olduğu potensialı təşkil edən ünsürlərdə zaman içərisində dəyişikliklər ola biləcəyi kimi, bir dövlətin başqa bir dövlətlə müqayisədə üstünlüyünü təmin edən ünsürdə də vaxt geçdikcə dəyişiklik ola bilər. Məsələn, neftin yerini qaz, yaxud uran tutduğu halda, neft istehsal edən ölkələrdən çox urana sahib olan ölkələr daha güclü görünə bilər. Eyni şəkildə nüvə gücünün istifadə edilməsi, yaxud zaman keçdikcə bəzi silahların modernliyini və dəyərini itirməsi ona sahib olan ölkələrin gücünə mənfi təsir göstərə bilər.

Bundan başqa, ölkənin sahib olduğu potensialın istifadəyə hazır olub-olmaması da böyük əhəmiyyət daşıyır. Məsələn, hər hansı bir ölkənin hərbi potensialının dəyəri onun müharibəyə hazır olub-olmaması ilə ölçüldüyü kimi, ölkənin təbii qaynaqlarının və digər resurslarının da qiyməti ondan səmərəli istifadənin təşkili ilə ölçülür.

Ancaq hər hansı bir dövlətin gücünün təkcə fiziki potensialla qiymətləndirilməsi heç də düzgün deyil. Bir dövlətin gücünə təsir edən keyfiyyət ünsürləri sırasında həmin ölkənin liderlik xüsusiyyətləri, imici, dostluqları, ittifaq münasibətləri, adət və ənənələri, başqa ölkələrlə tarixi-etnik əlaqələri, beynəlxalq siyasətdəki yeri və ən əsası, milli xarakter və milli mənəviyyatı kimi məsələlər də yer alır.

Beləliklə, çoxtərəfli beynəlxalq münasibətlər daxilində tək bir əlaqə və ya təsiri əsas götürərək, dövlətin gücünü müəyyənləşdirməyə çalışmaq heç də həqiqəti ortaya çıxara bilməz. Bunun üçün digər bütün faktorları və imkanları kompleks qiymətləndirməyi bacarmaq lazımdır.

Beləliklə, milli gücün nə olması və nə olmaması məsələsini aydınlaşdırdıqdan sonra onun keyfiyyət ünsürləri qismində çıxış edən milli mənəviyyat və milli xarakterə, bunların çərçivəsində isə patriotizmə toxunmaq məqsədəmüvafiqdir.

Tərəddüdsüz söyləmək olar ki, ölkələrin inanc sistemləri, özlərinə məxsus fərqlilikləri, dəyər sistemləri, başqa sözlə, onların siyasi mədəniyyətləri də, kəmiyyət ünsürləri qədər ölkənin güc faktoruna təsir edən amillərdir. Bir xalqın hökumətinin həyata keçirdiyi siyasəti dəstəkləməsi və ya dəstəkləməməsi həmin ölkənin gücünü müəyyənləşdirilərkən nəzərə alınan ünsürlərdən biridir. Bundan başqa, ölkədə birliyin olması və ya ölkənin ərazi bütövlüyü və suverenliyi məsələlərində bütün vətəndaşların həmrəy olması, ölkə daxilində sosial bərabərliyin mövcudluğu vətəndaşlar arasında sosial-iqtisadi baxımdan uçurumun olmaması, onların eyni ideologiyanı mənimsəmiş olması, həmin ölkənin gücü baxımından olduqca əhəmiyyətli hesab edilir. Yuxarıda söylənilənlər olmadıqda hər hansı bir xarici güc (ölkə) asanlıqla belə ölkənin

hökuməti və xalqı arasında nifaq yarada, hökuməti xalqın dəstəyindən məhrum edə bilər. Beləliklə, həmin ölkəni zəiflədərək yaranmış durumdan öz məqsədləri üçün faydalana bilər. Dolayısı ilə, xalqın hökuməti qəbul etməsi və dövlətçiliyi mənimsəməsi, özünü dövlətin bir hissəsi kimi hiss etməsi, öz siyasi iradəsini sərbəst ifadə edə bilməsi həmin ölkənin gücü baxımından üstünlük hesab edilir. Xalqın dövlətdən uzaqlaşdırılması, dövlətin legitimlik mübahisəsinə cəlb edilməsi, ölkə daxilində dərin sinfi və sosial fərqlərin olması həmin ölkənin müstəqil xarici siyasət yeritməsinə mənfi təsir göstərir. Daxildə böyük bir ictimai müxalifətlə üz-üzə qalan, eyni zamanda, etnik, dini və digər sosial-iqtisadi səbəblərə görə bölünmüş müxtəlif sinif və qrupların təzyiqi altında olan siyasi iqtidar, həmişə bir xarici dəstəyə ehtiyac duyduğu üçün həmin dövlət və ya dövlətlərin təsiri altında qaldığından müstəqil siyasət yeridə bilməz.

Milli güc, yaxud potensialın elementlərindən milli xüsusiyyət və milli mənəviyyat qiymətləndirmə baxımından başa düşülməsi ən çətin olanlardır. Milli xüsusiyyət dedikdə, bir millətin xarakterində tez-tez özünü göstərən intellektual və özünəməxsus keyfiyyətlər sahəsi nəzərdə tutulur. Bu keyfiyyətlər bir millətin başqalarından fərqinin göstəricisidir və onlar ən mürəkkəb kataklizmlərdən sonra belə öz mövcudluğunu qorumaq gücünə malikdir. Hər hansı millətin birinin digərindən nə qədər güclü olduğunu müəyyənləşdirmək istəyənlər mütləq milli xarakter fərqini də nəzərə almalıdırlar. Bu, ilk baxışda, bir qədər aldadıcı görünsə də, mütləq lazımdır. Çünki bunu hesaba almadan verilən proqnozlar və həyata keçirilən siyasət nəticə etibarilə səhvlərə gətirib çıxara bilər.

Başqa sözlə, istər müharibə, istərsə də sülh şəraitində millət adından iş görənlər, yəni milli siyasəti formalaşdıran-

lar, onu həyata keçirənlər və dəstəkləyənlər, seçənlər və seçilənlər, ictimai rəyi formalaşdıranlar, istehsalçılar və istehlakçılar və b. – bu insanların hamısı milli xarakteri meydana gətirən intellektual və mənəvi keyfiyyətlərin daşıyıcıları olduqları üçün milli xarakter milli gücün necəliyinə təsir edir. Məsələn, rusların zor işlətməyi sevmələri və inadcıllıqları, amerikalıların fərdiyyətçilikləri və ünsiyyətcillikləri, almanların qanunpərəstliyi və qənaətcilliyi, həmin millətlərin, yaxud onları təmsil edən fərdlərin iştirak etdiyi hər hansı bir tədbirdə mütləq özünü büruzə verən xüsusiyyətlərdir. Beləliklə, təbii ki, milli xarakter həmin millətin dövlət institutlarında da öz əksini tapır. Məsələn, milli xarakterinə uyğun olaraq alman, rus, amerika və ingilis hökumətlərinin həyata keçirdikləri, tutalım ki, xarici siyasət, əlbəttə, keyfiyyətcə mütləq bir-birindən fərqli olacaqdır.

Həmçinin, bəzi araşdırmaçılar tərəfindən siyasi mədəniyyət kimi də qiymətləndirilən və eyni şəkildə aldadıcı, iştirakı olmayan kimi görünən, ancaq milli gücə təsir baxımından heç də digər faktorlardan geri qalmayan başqa bir faktor da milli mənəviyyatdır. Milli mənəviyyat bir millətin xarici siyasətində təzahür edən müharibəpərəst, yaxud sülhpərvər siyasətin həyata keçirilməsinə dəstək olan iradə dərəcəsidir, milli mənəviyyatın varlığı və ya yoxluğu, daha doğrusu, milli mənəviyyatın keyfiyyəti, hər şeydən öncə, millətin ən çətin anlarında, yaxud bir millətin öz varlığını sürdürməklə əlaqədar olan həlledici qərarların qəbul edildiyi məqamlarda fövqəladə əhəmiyyət daşıyır.

Hər bir millətin milli mənəviyyatı, müəyyən bir nöqtəyə qədərdir və o nöqtədən sonra düşkünlüyə məruz qalır. Ancaq düşkünlük nöqtəsi ayrı-ayrı millətlər üçün ayrı-ayrı şərtlər altında olur. Məsələn, bəzi millətlər müharibədə geniş

miqyasda və əhəmiyyətsiz itkilər verdikdə mənəvi düşkünlüyə məruz qalır, bəzi millətlər əhəmiyyətli, lakin müharibənin sadəcə bir mərhələsi olan məqamda milli-mənəvi düşkünlüyə qapılır və s. Bəzi millətlərin mənəviyyatı isə hökumətin pis idarəçiliyi, yoxsulluq, sıxıntı, müharibədə ümidsizlik kimi hallarda düşkünlüyə məruz qalır və ya ancaq müəyyən qədər aşınır.

Ümumilikdə, bir millətin mənəviyyatı daha çox müharibə olduğu zaman özünü qabarıq büruzə versə də, hər hansı bir beynəlxalq problemlə üzləşdikdə də milli mənəviyyat böyük əhəmiyyət qazanır. Tutaq ki, bir millətin müəyyən bir təbəqəsi özünü əhalinin digər təbəqələrindən siyasi, iqtisadi, sosial, hüquqi və s. baxımlardan zəif mövqeyə sıxışdırıldığını düşünür. Belə olan halda, həmin təbəqədə get-gedə milli-mənəvi aşınma başlayacaq və vətənpərvərlik hissi azalacaqdır. Nəticə etibarilə, bu təbəqə milli hökumətin siyasətini dəstəkləməməklə onu zəiflədəcəkdir. Bununla da daxili siyasətdə müəyyən anlaşılmazlıqlara yol açmaqla xarici siyasəti də tələb olunan ümumxalq dəstəyindən məhrum edəcək. Bu isə, əlbəttə, arzuolunmazdır.

Beləliklə, milli mənəviyyatın ilk baxışda fərq edilməsə də, milli gücün formalaşmasında hansı əhəmiyyətə malik olması göz önündədir.

Bütün bunların fonunda milli gücün mənəvi ünsürlərinin qiymətləndirilməsi zamanı patriotizm də xüsusi araşdırma obyektinə çevrilməlidir. Əlbəttə ki, vətənpərvərlik kateqoriyası ümumi anlayışdır. Vətənpərvərliyin mahiyyətini və sərhədlərini müəyyənləşdirmək üçün daha dəqiq anlayış və ifadələrdən istifadə etmək lazımdır. Bu kontekstdə vətənpərvərlik bir xalqın uzun müddət ərzində mənəvi keyfiyyətlərindən doğan, onun davranışlarında müşahidə olunan, normal və

ekstremal vəziyyətlərdə özünü büruzə verən mənəvi xüsusiyyətlər və keyfiyyətlərin məcmusudur.

Vətənpərvərliyi özünün struktur komponentlərinə və təzahür xüsusiyyətlərinə görə iki kateqoriyada təsnif etmək olar. Şərti olaraq patriotizmin radikal və intellektual formalarını müəyyən edə bilərik. Prinsip etibarilə hər iki vətənpərvərlik növü milli-mənəvi keyfiyyət olmaqla strateji baxımdan eyni bir məqsədə xidmət edir. Yalnız taktiki baxımdan məqsədəçatma vasitələri fərqlilik təşkil edir. Radikal vətənpərvərlər məqsədə çatmaq üçün destruktiv vasitə və metodlara istinad edirlər. İntellektual vətənpərvərlər isə strateji məqsədlərə çatmaq üçün  konstruktiv, intellektual vasitə və metodlardan istifadə edirlər.

Bütün bunlarla yanaşı, qəbul edilən ümumi qənaət budur ki, müasir beynəlxalq münasibətlər fonunda milli strateji məqsədlərə çatmaq üçün istinad və istifadə olunması zəruri olan yol intellektual olandır. Bu mənada, Azərbaycan da istisna təşkil etmir. 1991-ci ildə öz müstəqilliyini əldə etmiş Azərbaycanda həmin ərəfədə vətənpərvərliklə bağlı çox ciddi institusional və qeyri-institusional problemlər mövcud idi. Bu da təsadüfi deyildi. Çünki uzun illər müstəkləmə şəraitində olmuş Azərbaycanda vətənpərvərlik anlayışı anormal şəkildə formalaşmışdı. Bu cür patriotizmi milli vətənpərvərlik şəklində xarakterizə etmək olduqca çətin idi. Çar Rusiyası dövründə, ölkəmizdə Ümumrusiya vətənpərvərliyi, SSRİ dövründə Sovet patriotizmi mövcud idi. Məhz buna görə də Azərbaycandakı və digər postsovet ölkələrindəki vətənpərvərliyin milli patriotizm qəlibinə salınması mümkün deyildi. Azərbaycan eyni vətənpərvərlik hissləri ilə I və II Dünya müharibələrində iştirak etdi. Və II Dünya müharibəsi Böyük Vətən Müharibəsi adlandırıldı. Əslində, formalaşmış hisslər və müəy-

yən dərəcədə də istiqamətlər aydın və eyni olsa da, bu cür vətənpərvərliyin milli məqsədlərə nə dərəcədə xidmət etməsi məsələsi aydın və müəyyən deyildi. Əgər ümumbəşəri kontekstdən yanaşsaq, deyə bilərik ki, II Dünya müharibəsi çərçivəsində sərgilənən patriotizm nümunəsini insani vətənpərvərlik kimi səciyyələndirmək olar. Çünki real təhdid mənbəyi kimi dəyərləndirilən, digər xalqları aşağılayan və konkret millətin hegemoniyasını əsaslandırmağa çalışan faşizm ideya-siyasi istiqaməti mövcud idi, ona görə də, buna qarşı mübarizə çərçivəsində sərgilənən patriotizm ümumbəşəri vətənpərvərlik kimi səciyyələndirilə bilərdi. Amma burada da konkret olaraq milli maraqlar nöqteyi-nəzərindən bu cür vətənpərvərliyin nə dərəcədə doğru və məqsədyönlü olduğunu söyləmək bir qədər çətindir.

Bütün bunların fonunda diqqət yetirilməli olan xüsusi məsələ müstəqilliyin əldə olunmasından sonrakı ərəfədə mövcud olan real sosial-siyasi vəziyyət çərçivəsindəki vətənpərvərliyin təzahür xüsusiyyətləridir. Azərbaycanda milli patriotizmin rüşeymləri 1988-ci ildən, daha da dəqiqləşdirsək, siyasi tariximizə "Dirçəliş" hərəkatı kimi daxil olan 17 noyabr 1988-ci il hadisələri ilə öz təcəssümünü tapmış oldu. Belə bir şəraitdə imperiyanın dəstəyi ilə Azərbaycana qarşı qaldırılan ərazi iddialarının daha da güclənməsi, bunun ardınca isə Dağlıq Qarabağda, Əsgəranda ermənilərin törətdikləri hadisələr, 200 mindən çox azərbaycanlının Ermənistandan deportasiya edilməsi, Dağlıq Qarabağdakı təxribat və iğtişaşların şiddətlənməsinin fonunda bütün bunlara qarşı ümumi bir etiraz formalaşdı. Bu etiraz dalğası isə vətənpərvərlik hissi ilə müşayiət olundu. Amma maraqlısı və önəmlisi budur ki, bu vətənpərvərlik Sovet patriotizmini xatırladırdı. Ona görə milli mənəviyyatın struktur elementi qismində çıxış

edən vətənpərvərliyin tam olaraq milli səviyyə və formada təzahür etməsi üçün müəyyən ideoloji-maarifçilik bazasından, institusional resurslardan səmərəli istifadə edilməsi lazım idi. Bu isə patriotizmin milli qəlibə salınmasını təmin edəcəkdi.

Bu mərhələdə təzahür edən vətənpərvərlik, hətta milli birliyin təmin olunmasına və milli məqsədlərə çatmağa mane olurdu. Çünki bu dövrdə radikal meyillər güclənmişdi. Amma dərk olunması vacib olan məqam budur ki, o dövrdə radikal, destruktiv üsullarla milli məqsədlərə çatmaq, ümummilli maraqları təmin etmək nəinki çətin idi, hətta mümkün deyildi. Təəssüf ki, həmin dövrdə baş qaldıran vətənpərvərlik xaotik, nizamsız, radikal və qeyri-müəyyən olmaqla yanaşı, həm də milli məqsədlərə xidmət etməyən patriotizm idi. Məsələ bundadır ki, vətənpərvərlik ümumi anlayış kimi kütləvi səciyyə daşıyırdı, amma eyni zamanda, hərəkatda iştirak edən liderlərdə kütləni yönləndirmə mexanizmində ciddi çatışmazlıqlar mövcud idi. Hətta demək olar ki, həmin ərəfədə milli düşüncədə və idrakda mövcud olan böhran meyilləri intellektual patriotizmin dərk olunmasına mane olurdu. Baxmayaraq ki, o dövrdə ölkəmizdə Azərbaycana qarşı qaldırılan ərazi iddialarının daha da güclənməsinə, Dağlıq Qarabağda, Əsgəranda ermənilərin törətdikləri hadisələrə, 200 mindən çox azərbaycanlının Ermənistandan deportasiya edilməsinə, Dağlıq Qarabağdakı təxribat və iğtişaşların şiddətlənməsinə qarşı duracaq əhəmiyyətli potensial mövcud idi, amma milli məqsədlərin təmin olunması naminə milli enerjidən, vətənpərvərlik amilindən istifadə edəcək liderlər yox idi. Qısacası, həmin ərəfədə ortaya çıxmış milli enerjinin düzgün istiqamətləndirilməməsi vətənpərvərliyin səmərəli milli həmrəylik və inkişaf mənbəyinə çevrilməsinə mane oldu. Beləliklə, xalqların milli azadlıq mücadilələri fonunda ortaya çıxan milli

enerji xalqımızın milli azadlıq, müstəqillik mübarizəsini başladan və sürətləndirən potensial keyfiyyət ünsürü kimi səciyyələndirmək olardı. Belə bir şəraitdə vahid və ümumi amal uğrunda birgə hərəkət edən Azərbaycan xalqı müstəqil dövlətçilik ənənələrini bərpa etmək, eləcə də milli azadlıq, bütövlük və həmrəylik əldə etmək üçün milli mübarizəyə başlamışdı. Ancaq başlıca məsələ rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan liderlərin mövcud olması xalqın təşkilatlanmasını, konkret məqsəd üçün səfərlər edilməsini təmin etmək idi. Müstəqilliyə doğru gedən yolda və müstəqilliyin ilk illərində isə belə bir liderin olmaması, milli məqsədlərdən irəli gələn vəzifələrin həyata keçirilməsini mümkün etməməklə yanaşı, milli vətənpərvərliyin formalaşması və inikasına da mane olan faktor qismində çıxış edirdi. Beləliklə, milli gücün kəmiyyət ünsürü qismində səciyyələndirilən və milli mənəviyyatın struktur elementi kimi çıxış edən milli enerjidən düzgün istiqamətdə istifadə olunmasına nail olmaq mümkün olmadı.

Ümumiyyətlə, milli enerji bir çox nəzəriyyələrdə milli gücün keyfiyyət ünsürü kimi səciyyələndirilməkdədir. Bu, güc məfhumunun keyfiyyət ünsürü kimi xarakterizə edilən milli xarakter və milli mənəviyyatın struktur elementi qismində dəyərləndirilir. Bir çox araşdırmaçılar qeyd edirlər ki, milli enerji millətin, xalqın taleyüklü məsələlərinin meydana çıxdığı və dərin kataklizmlərin müşahidə edildiyi tarixi situasiya və zaman kəsiyində aktiv forma alır. Məhz bundan sonra ideoloji-psixoloji bütövlük və həmrəyliyin təmin olunmasında milli enerji faktoru təməl mexanizm qismində çıxış edir. Milli enerjini ortaya çıxaran və onu aktiv fazaya keçirən təməl mexanizm milli xarakter və milli mənəviyyatdır.

Beləliklə, yuxarıda sadaladıqlarımız bunu deməyə əsas verir ki, milli gücün keyfiyyət ünsürü olan milli xarakter və milli mənəviyyat milli enerjini formalaşdıran və onu aktiv fazaya keçirən potensial faktorlardır. Başqa sözlə, mürəkkəb tarixi situasiyaların fonunda təzahür və təcəssüm edən milli enerji milli hərəkat, inkişaf və bütövlüyün qeyri-maddi əsaslarını təşkil edən amillərdən biri qismində çıxış edir.

Milli enerjinin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd etməliyik ki, "Dirçəliş" hərəkatının fonunda ortaya çıxan və xalqı bir mərkəzdə birləşdirən bu potensial ünsürdən zamanında və məkanında düzgün istifadə edilməməsi əldə edilmiş formal müstəqilliyin ilk illərində yeni cəmiyyət və milli dövlət quruculuğu prosesinin müəyyən qədər gecikməsinə və həmin ərəfədə cəmiyyətdə ciddi kataklizmlər və problemlərin meydana çıxmasına səbəb oldu. Azadlıq və müstəqillik uğrunda gərgin mübarizə aparan Azərbaycan xalqının milli enerjisindən düzgün istifadə edilməməsi bəhs edilən hərəkatın pərakəndə xarakter almasına səbəb olmaqla yanaşı, sonradan ictimai-siyasi mühitdə müəyyən deviasiyaların meydana çıxmasını şərtləndirdi.

Milli enerjidən düzgün istifadə edilməməsinin səbəblərindən biri də həmin ərəfədə milli azadlıq mübarizəsinə təcrübəli, praqmatik, harizmatik və rasional lider siyasətçinin rəhbərlik etməməsi idi. Hərəkatın başlanmasından müstəqilliyin ilk illərinədək ölkəyə rəhbərlik edən şəxslərin irrasional, antimilli mövqe sərgiləmələri və Moskvanın strateji tapşırıqları əsasında hərəkət etmələri milli enerjidən milli birliyi və həmrəyliyi təmin edən resurs qismində istifadə edilməsini mümkün etmədi. Bununla, milli azadlıq mübarizəsində iştirak edən qüvvələrin birliyi və müntəzəm, sistematik fəaliyyət mexanizmi təmin edilmədiyindən proseslər pərakəndə, işti-

rakçıların təmsilçiliyi isə spontan xarakter aldı. Bunun ən ağır nəticəsi müstəqilliyin ilk illərində ölkədə xaotik proseslər, ziddiyyətlər, dissonanslar və antaqonizmlə müşayiət edilən destruktiv durumun və disbalanslı əlaqələr sisteminin hökm sürməsi nəticəsində yeni cəmiyyət və milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilə bilməməsi oldu. Bir sözlə, ölkə tam mənada antaqonist qrupların mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevrildi. Nəticə etibarilə, həm milli enerjidən səmərəli istifadə etmək mümkün olmadı, həm də milli patriotizm formalaşdırıla bilmədi.

Digər tərəfdən, həmin dövrdə cəmiyyətdə mövcud problemləri, eləcə də vətənpərvərlik və milli enerji məsələlərini aktuallaşdıraraq, cəmiyyətin müzakirəsinə təqdim etməyi bacaran, həmçinin, problemlərin həlli istiqamətində elmi-nəzəri, analitik-empirik fəaliyyətə malik olan ictimai-siyasi institutların olmaması da sadalanan mürəkkəb durumu şərtləndirən mühüm neqativ faktor qismində çıxış etdi. Əlbəttə ki, həmin dövrdə cəmiyyətimizdə sadalanan problemlərin mövcudluğunun diaqnozu sosioloqlar, ixtisasyönümlü ictimai institutlar tərəfindən qoyulmalı, daha sonra isə mövcud problemlərin həlli istiqamətində dövlət və qeyri-dövlət strukturları tərəfindən məxsusi tədbirlər görülməli idi. Amma təəssüf ki, həmin ərəfədə Azərbaycan siyasi sistemində, dövlətçilik institutlarında və elmi təsisatlarında həmin problemlərin həllinin nəzəri-empirik əsaslarını müəyyənləşdirəcək və özündə problemlərin həlli yollarını ehtiva edəcək konsepsiya hazırlanmadı. Həmin ərəfədə mövcud olan radikal patriotizm öz milli maraqlarımıza qarşı olan dağıdıcı ünsürə çevrildi.

Bütün bunların fonunda milli enerjidən səmərəli surətdə istifadə edə biləcək, milli maraqların etibarlı müdafiəsi mexanizmini formalaşdıracaq siyasi liderə ehtiyac var idi.

Bu, mütləq bir zərurət idi. Belə bir şəraitdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsi ilə bu problemlərə və məsələlərə yeni yanaşma meydana çıxdı. Əlbəttə ki, Azərbaycan xalqının milli xarakterinə, milli mənəviyyatına və milli keyfiyyətlərinə dərindən bələd olan Heydər Əliyev o dövrdə hələ intellektual milliyyətçiliyin vətənpərvərlər tərəfindən mənimsənilmədiyini görərək, ilkin mərhələdə ümumi patriotizmə istinad etdi və əhəmiyyətli nailiyyətlər əldə etməyi bacardı. Məlum olduğu kimi, 1993-cü ildə baş verən "Qış hücumu" dediyimiz əməliyyat zamanı tankların üzərinə "Vətən üçün", "Heydər Əliyev üçün" yazılmışdı ki, bu da həmin ərəfədə Sovet vətənpərvərliyinin xüsusiyyətlərindən hələ də istifadə olunmasının nümunəsi idi. Bu isə təsadüfi deyildi. Çünki Ümummilli lider Heydər Əliyev yaxşı bilirdi ki, həmin ərəfədə patriotizm nöqteyi-nəzərindən istinad edilməli olan ən uyğun və məqbul model ümumi, Sovet vətənpərvərliyi idi. Ona görə ki, belə bir şəraitdə ictimaiyyət intellektual vətənpərvərliyə transformasiyaya hazır deyildi. Məhz bu nöqteyinəzərdən tətbiq edilən metodlar, istinad edilən yanaşma özünü doğrultdu, 27 kənd və qəsəbəmiz erməni işğalçılarından azad edildi.

Sonrakı mərhələlərdə isə patriotizmin gücləndirilməsi, ümumi vətənpərvərlikdən intellektual patriotizmə transformasiyanın baş tutması istiqamətində strateji səciyyəli fundamental işlər görüldü. Bu istiqamətdə, ilk növbədə, yeni ideyalar ortaya qoyuldu, maarifləndirici işlər həyata keçirildi, vətənpərvərliyin təcəssüm etdiyi başlıca, xüsusi sosial stratanın-gənclərin təşkilatlanması yönündə mühüm addımlar atıldı. Bu istiqamətdə cəmiyyətin dinamik təbəqəsi olan gənclərin

ümummilli həmrəyliyi və bütövlüyü təmin edən milli ideya ətrafında birləşməsi yönündə atılan addımlar xüsusi önəm kəsb etdi. Bu baxımdan, dövlət tərəfindən institusional səciyyə daşıyan strateji addımlar atıldı. İlk növbədə, Ümummilli lider Heydər Əliyevin fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. Bunun ardınca 1995-ci ildə isə Ulu öndər Heydər Əliyev Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda Heydər Əliyev şəxsən iştirak etdi. Bu istiqamətdə sistemli, nizamlı tədbirlər davam etdirildi. 1 fevral 1997-ci il tarixində forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev "2 fevral - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzaladı. Həmin vaxtdan etibarən ənənəvi olaraq, hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Bu isə dinamik strata qismində çıxış edən gənclərin təşkilatlanması, onların işinin səmərəliliyinin təmin olunması istiqamətində əhəmiyyətli töhfə kimi çıxış etdi. Həmçinin, bütün bunlar yeni intellektual vətənpərvərlərin yetişdirilməsi işinə fundamental töhfələr bəxş etmiş oldu.

Bütün bunların fonunda Azərbaycan gəncliyi dərk etdi ki, populist şüarlar və radikal çağırışlar üzərində qurulmuş vətənpərvərliklə milli maraqların təmin olunmasına nail olmaq mümkün deyil. Beləliklə, radikal vətənpərvərlikdən intellektual patriotizmə transformasiya istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilmiş oldu. Eyni zamanda, intellektual vətənpərvərlərin kəmiyyət və keyfiyyət artımına nail olundu.

Beləliklə, milli maraqların etibarlı ifadəçisi və müdafiəçisi qismində çıxış edən intellektual vətənpərvərlər stratası formalaşdı. Məhz bunun fonunda modern cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu uğurla davam etdirildi. Bu prosesdə intellektual vətənpərvərlərin, gənclərin iştirakı, təmsilçiliyi xüsusi rol oynadı. Qısa müddət ərzində gənclərin aktiv surətdə təmsil olunduqları müxtəlif sahələrdə parlaq nailiyyətlər əldə edilmiş oldu. Daha da dəqiqləşdirsək, demokratikləşmə prosesi çərçivəsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması sahəsində, Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminin müstəqil milli aktoru kimi dünya siyasətində suveren şəkildə təmsil olunmasında çox mühüm, fundamental nailiyyətlər əldə edildi. Bütün bunlar həm gənclərin fəaliyyət mexanizminə əlverişli şərait və zəmin yaratdı, həm də onların müxtəlif sahələrdə rasional və uğurlu şəkildə təmsil oluna bilmək potensiallarının mövcud olduğunu sübuta yetirdi. Bununla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fonunda davam edən informasiya müharibəsi çərçivəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, diaspor təşkilatlanmasında, lobbi təsisatının formalaşdırılmasında intellektual vətənpərvərlərin potensialından səmərəli surətdə istifadə olundu. Bu isə milli maraqlarımızın etibarlı müdafiəsi mexanizminin formalaşdırılması demək idi.

Dolayısıyla, qeyd etdiyimiz kimi, Azərbaycanda yeni intellektual vətənpərvərlər stratası formalaşdı və bu, milli maraqlarımızın müdafiə olunmasında xüsusi əhəmiyyət kəsb edən mexanizmin yaranması kimi səciyyələndirilə bilər.

Məhz belə bir mərhələdə, yəni intellektual vətənpərvərlər təbəqəsinin formalaşması ilə müəyyən baza yaradıldıqdan

sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən belə bir tezis səsləndirildi: "**Qara qızıl"ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir**". Məhz bu istiqamətdə müxtəlif dövlət proqramları qəbul və icra edildi.

Bütün bunlar isə milli elitanın keyfiyyət tərkibində əhəmiyyətli dəyişikliklərin edilməsini və milli elitanın transformasiyasını şərtləndirdi. Bu isə strateji nöqteyi-nəzərdən olduqca yüksək səviyyədə dəyərləndirilməlidir. Çünki milli elitanın təşəkkülü və inkişafı hər bir milli dövlətin inkişafının əsasında duran strateji substratdır. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə qeyd edə bilərik ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran başlıca vəzifə və problemlərdən biri də yeni münasibətlər sisteminə müvafiq surətdə milli elitanın formalaşdırılması və bu istiqamətdə milli münasibətlər zəminində təkamül xarakterli yeni keyfiyyət dəyişikliklərinə nail olmaq idi. Milli elitanın formalaşdırılması üçünsə bir sıra strateji səciyyəli zəruri tədbirlər görmək lazım idi ki, bütün bunların fonunda gərəkli şərait və resurslar təmin edilsin:

– İlk növbədə, müstəqillik əldə etmiş dövlətə milli münasibətlər sistemini rasional surətdə tənzimləyəcək, ictimai-siyasi ahəngdarlıq və tərəqqini təmin edəcək və ümummilli inkişaf strategiyasını müəyyənləşdirəcək və tətbiq edə biləcək güclü siyasi hakimiyyət lazım idi. Hakimiyyətin effektivliyi milli tərəqqiyə mane olan mövcud problemlərin həll edilməsi və milli inkişaf strategiyasının müəyyənləşdirilməsini və icra olunmasını mümkün edəcəkdi. Amma müstəqilliyin ilk iki ilində ölkəyə səriştəsiz və irrasional şəxslərin rəhbərlik etməsi nəinki milli inkişaf strategiyasının müəyyən və icra edilməsini mümkün etmədi, eləcə də həmin subyektlərin

disfunksionallığı yeni müstəqillik əldə etmiş ölkə üçün çox ciddi təhdid və risklər yaratmış oldu. Məhz bu cür kəskin situasiyanın fonunda milli elitanın formalaşdırılması mümkün olmadı və institusional aktorların bərqərar oluna bilməməsi ölkə miqyasında kataklizmlərin dərinləşməsini şərtləndirdi. Yalnız 1993-cü ildən-Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə milli resurslardan səmərəli surətdə istifadə edildi. Nəticə etibarilə, bütün bunlar milli elitanın da formalaşmasını təmin etdi və elita transformasiyasının əsası mövcud dəyərlərə, qanunauyğunluqlara və tələblərə müvafiq surətdə qoyuldu. Qısacası, milli elitanın formalaşdırılması və mütəmadi yenilənməsi üçün zəruri şərtlərdən biri olan hakimiyyətin effektivliyi prinsipi məhz 1993-cü ildən sonra-Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyası sayəsində mümkün oldu;

– İkincisi, milli elitanın formalaşdırılması, transformasiyası və yenilənməsi üçün xüsusi əhəmiyyət kəsb edən faktorlardan biri də milli dəyərlərin və maraqların nəzərə alınması ilə həyata keçiriləcək hüquqi və ictimai-siyasi təsisatlanmadır. Hüquqi təsisatlanma dedikdə, subyektlərin fəaliyyət mexanizmini tənzimləyəcək qanunlar və qaydaları sisteminin məcmusundan ibarət bazanın formalaşdırılması (buraya konstitusiyanın və ona müvafiq surətdə sahəvi və funksional səciyyəli normativ hüquqi aktların qəbul olunması və onlara nəzarət edilməsi aiddir) və onun işləkliyinin təmin edilməsi nəzərdə tutulur. Hüquqi təsisatlanmanın təmin edilməsi nəticə etibarilə ictimai-siyasi institutlaşmanı mümkün edir ki, bu da institusional aktorların bərqərar olunmasını və funksionallığını şərtləndirən strateji səciyyəli fundamental faktorlardan bi-

ridir. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, hüquqi və ictimai-siyasi təsisatlanma vəzifəsinə sistematik surətdə Konstitusiyanın qəbul olunmasından sonra (12 noyabr 1995) nail olundu. Ana Qanunun qəbul olunması və ona müvafiq surətdə bütün sahələri əhatə edən qanunvericilik bazasının zənginləşdirilməsi institusional aktorların funksionallığı və fəaliyyət mexanizminə əlverişli zəmin yaratdı. Bu isə siyasi sistemin struktur elementlərini təkmilləşdirməklə yanaşı, milli elitanın transformasiyasını da mümkün etdi;

– Milli elitanın formalaşdırılması üçün sosiomədəni transformasiyaya start verilməsi, buna müvafiq və paralel surətdə struktur islahatlarının həyata keçirilməsi və institusional bazisin formalaşdırılması vəzifələrinin də həyata keçirilməsi strateji səciyyəli fundamental vəzifələr sırasında idi. Sosiomədəni transformasiyaya nail olmaq cəmiyyətdə yetkin stratifikasiyalaşma vəzifəsinin təmin olunmasını mümkün edəcəkdi ki, bu da nəticə etibarilə təkmil sosial-siyasi sistemin bərqərar olunmasını şərtləndirirdi. 1993-cü ildən başlamaq etibarilə Ulu öndər Heydər Əliyevin rasional və praqmatik strateji tədbirləri sayəsində ictimai-siyasi sabitlik təmin edildikdən, bölücü meyillər və mərkəzdənqaçma tendensiyaları neytrallaşdırıldıqdan sonra sosiomədəni transformasiya prosesinin əsası qoyuldu və bütün sahələri əhatə edən partikulyar və universal struktur islahatları həyata keçirildi.

Beləliklə, ölkəmizdə milli elitanın formalaşması, transformasiyası və yenilənməsi Ümummilli lider Heydər Əliyevin milli inkişaf strategiyasının fonunda həyata keçirdiyi kompleks strateji tədbirlərin fonunda mümkün oldu. Ulu öndər Heydər Əliyevin sabitləşdirici mexanizmlərdən məharətlə istifadə edərək "mərkəzdənqaçma" meyillərini neytrallaşdır-

ması və siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər sahələri əhatə edən milli inkişaf strategiyasını həyata keçirməsi, elita transformasiyasının milli maraqlara və dəyərlərə müvafiq surətdə başlanmasını şərtləndirdi. Kadr siyasətində tədrici dəyişikliklər edildi və ümummilli inkişafa fundamental töhfələr bəxş edəcək cəmiyyətdaxili dinamik subyektlərlə xüsusi iş həyata keçirildi. Bu istiqamətdə həyata keçirilən gənclər siyasəti xüsusi əhəmiyyət kəsb etdi. Gənclərə dövlət səviyyəsində yüksək diqqət və qayğının göstərilməsi, onların ölkə həyatının bütün sahələrində iştirakına əlverişli şəraitin yaradılması, müxtəlif sahələr üzrə xarici ölkələrdə təhsil almalarının təmin edilməsi kimi strateji önəm kəsb edən tədbirlər elitanın transformasiyası və yenilənməsi işinə əhəmiyyətli töhfələr verdi. Bu, sosial stratifikasiyalaşma prosesində yeni-daha dinamik intellektual təbəqənin formalaşmasını təmin etməklə yanaşı, cəmiyyətin inkişafının yeni ideya əsaslarının və konseptual substratlarının formalaşmasına və ictimai şüurun yenilənməsinə də yardımçı oldu. Bunlarla yanaşı, ictimai-siyasi və hüquqi təsisatlanma milli aktorların funksionallığına və fəaliyyət mexanizminə əlverişli şərait yaratdı və institusional subyektlərin ictimai-siyasi palitrada normal təmsilçiliyi elita təsisatının transformasiyasına bilavasitə müsbət təsir etdi. Nəticə etibarilə, bütün bunlar milli elitanın formalaşması və transformasiyasını təmin etməklə yanaşı, modern cəmiyyət quruculuğu da sürətləndirmiş oldu. Bununla bağlı Ulu öndər Heydər Əliyev demişdir: “**Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi, başqa bir sərvətimiz-intellektual potensialımız da var. Bunu yaradanlar**

**var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar**”.

Prezident İlham Əliyevin ölkə başçısı kimi fəaliyyətə başlaması ilə milli elitanın transformasiyasında keyfiyyətcə yeni mərhələ başlandı. Prezident İlham Əliyevin bu sahədəki rasional fəaliyyəti özündə Ulu öndər Heydər Əliyevin praqmatik fəaliyyətində əsas tutduğu prinsip və meyarları ehtiva etməklə dövrün və şəraitin qanunauyğunluqlarına və tələblərinə tam adekvat idi və bu gün də həmin kurs uğurla davam etdirilməkdədir. Qeyd etdiyimiz kimi, “**Qara qızıl”ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir**” tezisindən çıxış edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli kadr siyasəti sosiumda yeni keyfiyyət dəyişikliklərini şərtləndirməklə yanaşı, intellektual stratifikasiyalaşma işini də sürətləndirdi. Bunun ardınca bəhs edilən sahədə elitanın transformasiyası işinə mühüm töhfələr bəxş edəcək yeni dövlət proqramları qəbul edildi (“Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı” (2006-2010), “Gənclərin xaricdə təhsil alması, “Avropa təhsil məkanına inteqrasiya”, “Elektron Azərbaycan” və s.) və milli intellektual inkişafın yeni oriyentirləri müəyyənləşdirildi. Nəticə etibarilə, rasional kadr siyasətinin həyata keçirilməsi, milli intellektual təbəqənin formalaşdırılması istiqamətində keyfiyyət etibarilə fundamental strateji tədbirlərin görülməsi milli elitanın transformasiyasına önəmli töhfələr verdi.

Dolayısıyla, milli elitanın transformasiyasının təşkil və təmin olunması intellektual vətənpərvərlər təbəqəsinin işinin səmərəlilik səviyyəsinin artırılmasına mühüm töhfələr bəxş etdi. Bu isə Azərbaycanın milli potensialını və milli gücünü artıran əhəmiyyətli faktor kimi dəyərləndirilməlidir.

## 7.3. Modern informasiya cəmiyyətində milli maraqlar və onların müdafiəsi: Azərbaycan təcrübəsi

Sosial-siyasi proseslər və bu münasibətlər sistemi çərçivəsində istifadə edilən mühüm kateqoriyalardan biri də milli maraq anlayışıdır. Milli maraq anlayışı öz strukturu etibarilə hər nə qədər politoloji səciyyə daşısa da, məhz bir o qədər də sosioloji kateqoriya kimi çıxış edir. Yəni fərdlərin formalaşdırdığı sosium-cəmiyyət bütöv bir sistem səciyyəsi daşıyır və burada təşəkkül tapmış kompleks mənafelər milli maraqlar kimi dəyərləndirilir.

Modern informasiya cəmiyyətində başlıca istinad vasitələrindən biri olan milli maraqların yeri və rolunu müəyyənləşdirmək üçün ilk növbədə, ictimai təfəkkürdə milli maraqlar kateqoriyasına toxunmaq lazımdır. Milli maraqların ictimai təfəkkürdə əks olunması ifadəsi sosioloji xarakter daşıyır, başqa sözlə, ictimai təfəkkürdə milli maraq dedikdə, cəmiyyətin ayrı-ayrı yarımsistemlərində (siyasi, iqtisadi, mədəni, hüquqi, ekoloji və s.) mövcud olan dərk edilmiş kompleks mənafelər sistemi nəzərdə tutulur. Eyni zamanda, milli maraqlar dedikdə, xalqın, sosiumun fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusu nəzərdə tutulur.

Ümumiyyətlə, ictimai təfəkkürdə dərk edilmiş və milli dövlətlərin strateji konsepsiyalarında əks olunmuş milli maraqlar bir neçə istiqamətdə səciyyələndirilir. Belə ki, siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat sahələrində milli maraqlar təşəkkül tapır və ayrı-ayrı sahələrin qanunauyğunluqlarına müvafiq surətdə

onların reallaşdırılması və müdafiəsi mexanizmləri müəyyən edilir.

Bundan başqa, ictimai təfəkkürdə milli maraqlar dedikdə, həm də insanın, cəmiyyətin və dövlətin mənafelərinin rasional surətdə cəmiyyət üzvləri və cəmiyyəti idarə edən subyektlər tərəfindən dərk olunması nəzərdə tutulur. Məhz bu baxımdan, milli maraqların dərk olunması onların müdafiəsi mexanizminin formalaşdırılmasını şərtləndirən mühüm faktor qismində çıxış edir.

Bir çox sosioloji və politoloji mənbələrdə milli maraqlar dövlət maraqları anlayışı ilə eyniləşdirilir. Belə bir arqumental tezisdən istifadə edilir ki, dövlət millətin təsisatlanmış formasıdır, başqa sözlə, milli dövlət öz stukturu, funksionallığı və mahiyyəti etibarilə başlıca sosial-siyasi təsisatdır, məhz buna görə də, milli maraqların müdafiəsi dövlətin funksionallığı çərçivəsindədir. Yəni dövlətin fəaliyyətində rəhbər tutduğu mənafelər sistemi elə milli maraqlar kimi səciyyələndirilməlidir. Amma bunun əksini iddia edən araşdırmaçılar isə qeyd edirlər ki, milli maraqlar anlayışı dövlət maraqları anlayışından daha genişdir və özündə dövlət maraqlarını da ehtiva edir.

Bir sözlə, ictimai təfəkkürdə milli maraqlar dedikdə, sosiumda, cəmiyyətdə dərk edilmiş kompleks mənafelər sistemi nəzərdə tutulur. Qeyd etdiyimiz kimi, milli maraqların dərk edilməsi isə onların reallaşdırılması və mühafizəsini şərtləndirən mühüm mexanizm qismində çıxış edir.

Milli maraq kateqoriyasına toxunarkən, şübhəsiz, milli maraqların müdafiəsi və vətəndaşlıq təşəbbüsü məsələlərinə diqqət yetirmək zərurəti ortaya çıxır. Qeyd etdiyimiz kimi, ictimai təfəkkürdə milli maraq dedikdə, cəmiyyətin ayrı-ayrı yarımsistemlərində mövcud olan dərk edilmiş kompleks

mənafelər sistemi nəzərdə tutulur. Başqa sözlə, siyasi, iqtisadi, mədəni, ekoloji, iqtisadi, elm, mədəniyyət və mənəviyyat sahələrində təşəkkül tapmış kompleks mənafelər sistemi milli maraqları təşkil edir. Milli maraqların dövlət tərəfindən müdafiəsi vasitələri, mexanizmləri və yollarını anlamaq üçün ayrı-ayrı sahələrdə mövcud olan milli maraqların özünə, eləcə də bu istiqamətdə Azərbaycan Respublikasının təcrübəsinə də toxunmaq məqsədə müvafiqdir.

Bunlarla yanaşı, milli maraqların dövlət tərəfindən mühafizəsi məsələsi də strateji problem qismində çıxış edir. Milli maraqların dövlət tərəfindən mühafizəsi dedikdə, yuxarıda sadalanan əsas milli maraqlara qarşı meydana çıxa biləcək real və potensial təhdid ünsürlərinin qarşısının alınması və ya neytrallaşdırılması nəzərdə tutulur.

Digər tərəfdən, milli maraqların təmin və müdafiə olunması məsələsində vətəndaşlıq təşəbbüsü məsələsi də xüsusi önəm kəsb edir. Bu sahədə vətəndaşlıq təşəbbüsü dedikdə, vətəndaşların seçki, referendum və qanunla müəyyən olunmuş digər demokratik vasitələrlə ölkənin milli maraqları və onların müdafiəsinin yolları haqda öz fikir və təkliflərini ifadə və icra edə bilmələri və ya etmələri nəzərdə tutulur. Eyni zamanda, buraya vətəndaşların qanunvericiliklə nəzərdə tutulmuş qaydada ölkənin milli təhlükəsizliyinin təmin olunması məqsədi ilə dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən hazırlanmış tədbirləri könüllü və ya konstitusiya vəzifələrinin yerinə yetirməsi də aid edilir.

Azərbaycan Respublikasının milli maraqlarının etibarlı müdafiəsi milli inkişafın təmin olunması ilə paralel səciyyə daşıyan missiyadır. Daha da dəqiqləşdirsək, milli inkişafın təmin edilməsi üçün həyata keçirilən kurs, eyni zamanda, milli maraqların təmin olunmasına mühüm töhfələr verir.

Milli inkişafın təməl təminatçı komponentlərindən biri intellektual resurslardan səmərəli istifadə olunmasıdır. Burada daha çox diqqət yetirilən məqam intellektual əsaslara söykənərək, müvafiq resurslardan istifadə edərək, inkişafın konseptual əsaslarının və icra mexanizmlərinin yaradılmasıdır. Başqa sözlə, müasir dövlətlərin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri də ümummilli tərəqqinin konseptual əsaslarının hazırlanıb, həyata keçirilməsi təşkil edir. Bu istiqamətdə isə milli dəyərlərə və maraqlara müvafiq surətdə təsbit edilmiş konsepsiyanın müəyyən və icra olunması strateji zərurət qismində çıxış edir.

Əlbəttə ki, hər bir dövlətin milli inkişaf konsepsiyası özündə ümumi və xüsusi məqsədləri ehtiva edir. Daha da dəqiqləşdirsək, milli inkişaf konsepsiyasında milli maraqlardan irəli gələn təməl strateji vəzifələr və məsələlər öz əksini tapır. Təbii ki, başlıca strateji məsələlər qismində siyasi, iqtisadi, sosial, mədəni, hüquqi sahələrdə müəyyənləşdirilmiş prioritetlərə müvafiq surətdə təsbit edilən missiya və vəzifələr çıxış edir. Başqa sözlə, milli inkişaf konsepsiyası konkret zaman müddəti üçün nəzərdə tutulmuş milli məqsəd və vəzifələri özündə ehtiva edən əsas rolunu oynayır. Məhz buna görə də, cəmiyyətin müxtəlif yarımsistemlərində (sosial, siyasi, hüquqi, iqtisadi, mədəni və s.) ayrı-ayrı vəzifələr təsbit edilir və onların yerinə yetirilməsi istiqamətində institusional resurslardan istifadə olunur.

Dünya praktikasında milli inkişafın müxtəlif konseptual modelləri mövcuddur. Milli inkişaf strategiyasının təcrübi nümunələri qismində daha çox ABŞ, Yaponiya və Böyük Britaniya inkişaf modelləri xüsusilə fərqləndirilir. Bu baxımdan, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da milli inkişafın konseptual əsası kimi dəyərləndirilə bilər.

Bəhs olunan konsepsiyasının əhəmiyyəti və fərqi ondan ibarətdir ki, modernləşmə kursuna paralel surətdə müəyyənləşdirilmiş konsepsiyada neokonservativ dəyərlər öz əksini tapmışdır ki, burada da liberalizmin və konservatizmin çulğalaşması müşahidə edilir.

Əlbəttə ki, milli inkişafın təmin olunmasının əsaslarından birini də ayrı-ayrı yarımsistemlərdə milli maraqlara müvafiq surətdə institusional tədbirlərin həyata keçirilməsi təşkil edir.

Siyasi sahədə əsas milli maraqlara dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün, konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğunun təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının, eləcə də ictimai-siyasi sabitliyin təmin edilməsi, kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınması, dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı və s. aid edilir.

Siyasi sahədə milli maraqların etibarlı müdafiəsinin Azərbaycan təcrübəsinə gəldikdə qeyd edə bilərik ki, dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün, konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğunun təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması, hüquqi dövlətin mütləq komponentlərinin bərqərar olunması kimi təməl strateji vəzifələr konstitusion əsasda təsbit edilmişdır.

Eyni zamanda, ölkəmizdə siyasi sahədə milli maraqların təmin olunması üçün institusional islahatların həyata keçirilməsi də vacib şərt qismində çıxış edir. Bu barədə təcrübi

məsələlərə gəldikdə qeyd edə bilərik ki, mütəmadi surətdə həyata keçirilən siyasi-hüquqi islahatlar milli inkişafın təmin edilməsi və ümummilli maraqların qorunmasına əhəmiyyətli töhfələr verir. Yerli və xarici analitiklərin yekdilliklə üzərində durduqları başlıca məsələlərdən biri də budur ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir. Digər tərəfdən, seçki prosesi, reallaşdırılma vasitələri və demokratiklik səviyyəsi baxımından da Azərbaycan olduqca yüksək səviyyədə qiymətləndirilir.

Əlbəttə, bütün bunlar vətəndaşların siyasi həyatda daha azad və layiqli şəkildə iştirakına spesifik töhfələr verməkdədir. Nəticə etibarilə, vətəndaş-dövlət münasibətləri bütün sahə və sektorlarda ən yüksək səviyyədə təmin edilməkdə və arzulanan nəticələri verməkdədir. Siyasi-hüquqi islahatların mütəmadi qaydada və prinsipiallıqla davam etdirilməsi milli təhlükəsizliyin təmin olunmasına önəmli töhfələr verməklə yanaşı, demokratik inkişafı da sürətləndirməkdədir...

Dinamik inkişaf tempi ilə müşahidə olunan ictimai-siyasi sabitlik isə milli inkişafın digər göstəricisi və meyarı qismində çıxış edir. Bəzi araşdırmaçılar tərəfindən buraya rasional idarəetmə strategiyası da aid edilir. Məlum olduğu kimi, siyasi sabitlik və ümummilli inkişaf milli dövlətlərin həyata keçirdiyi rasional, praqmatik daxili və xarici siyasət kursunun qanunauyğun nəticələrindəndir. Təcrübi gerçəklikdir ki, milli

dövlətlərin gücünü müəyyənləşdirən başlıca keyfiyyət ünsürlərindən biri həyata keçirilən idarəetmə strategiyasının, başqa sözlə, daxili və xarici siyasət kursunun səmərəlilik səviyyəsidir (bir çox araşdırmaçılar bunu milli hökumətin keyfiyyəti kimi səciyyələndirir). Bu baxımdan, idarəetmə strategiyasını rasional və praqmatik prinsiplər, meyarlar və substratlar əsasında reallaşdıran milli dövlətlər ictimai-siyasi sabitliyin yüksək səviyyədə təşkil edildiyi və ardıcıl səciyyə daşıdığı subyektlər qismində çıxış edirlər. İdarəetmə strategiyasının səmərəliliyi dedikdə isə, təbii ki, iqtisadi, siyasi, mədəni, sosial, humanitar və digər sahələrdə ümummilli mənafeyin təmin olunmasına istiqamətlənmiş siyasi kursun həyata keçirilməsi sayəsində əldə edilmiş tərəqqi meyilləri və bunun əsasında duran effektiv nəticələr nəzərdə tutulur. Daha da dəqiqləşdirsək, vətəndaşların maddi rifah halının, həyat şəraitinin daim yaxşılaşdırılması istiqamətində görülən fundamental tədbirlər-sosial müdafiə sisteminin gücləndirilməsi və məşğulluq səviyyəsinin artırılması, eləcə də, sosial-siyasi həyatın və təsisatların legitimləşdirilməsi, təsisatlanma prosesinin konstitusion əsasda reallaşdırılması, siyasi-hüquqi islahatların mütəmadi surətdə həyata keçirilməsi kimi təməl faktorlar ictimai-siyasi sabitliyin və ümummilli inkişafın qarantı qismində çıxış edir...

Yuxarıda sadalanan faktorları və meyarları nəzərə alaraq qeyd edə bilərik ki, bu gün Azərbaycan, sözün əsl mənasında, “sabitlik adası” kimi səciyyələndirilə bilər. Bu məsələdə yerli və xarici ekspertlərin ümumi, yekun rəyi odur ki, Azərbaycanda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor hakimiyyətin həyata keçirdiyi siyasi kursun milli maraqlara, ümummilli mənafeyə tam cavab verməsidir. Başqa sözlə, Prezident İlham Əliyevin

rəhbərliyi ilə həyata keçirilən rasional strateji kursun fonunda əhalinin maddi rifah halının mütəmadi olaraq yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin daha da gücləndirilməsi, müxtəlif inkişaf modellərinin tətbiq edilməsi, socialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi kimi fundamental göstəricilər ümummilli inkişafın strateji vəzifələrini təşkil edir. Bütün bunlar isə Azərbaycanı yüksək sürətlə ardıcıl olaraq inkişaf edən ölkəyə çevirməklə yanaşı, mövcud ictimai-siyasi sabitliyin əsaslarının daha da möhkəmlənməsini şərtləndirən əhəmiyyətli faktor qismində çıxış edir.

Bunlarla yanaşı, məqsədini inkişaf və sabitlik, yolunu isə demokratiya və qanunçuluq prinsipləri əsasında müəyyənləşdirən Azərbaycanda möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyi şərtləndirən digər bir faktor mütəmadi surətdə siyasi-hüquqi islahatların həyata keçirilməsidir. Belə ki, insan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir. Digər tərəfdən, seçki prosesi, reallaşdırılma vasitələri və demokratiklik səviyyəsi baxımından da Azərbaycan olduqca yüksək səviyyədə qiymətləndirilir. Bunu sübut edən bariz dəlillərdən biri budur ki, ölkəmizdə həyata keçirilən ümummilli və lokal səciyyəli seçkilər Azərbaycanın demokratik inkişafına mühüm töhfələr bəxş edən fundamental faktor qismində çıxış edir. Bu da nəticə etibarilə, ölkəmizdə vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması və hüquqi dövlətin əsaslarının daha da möhkəmləndirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bir sözlə, dövlət tərəfindən həyata keçiri-

lən siyasi-hüquqi islahatlar birmənalı şəkildə sabitlik mənbəyi qismində çıxış edir...

Beləliklə, sadalananları ümumiləşdirərək qeyd edə bilərik ki, Azərbaycan bu gün ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında avanqard yerlərdən birini tutur. Eyni zamanda, sadalananlar belə bir proqnoz verməyə əsas verir ki, ölkəmizdə hökm sürən ictimai-siyasi sabitlik uzunmüddətli olacaq və perspektiv inkişafın qarantı qismində çıxış edəcək.

Bunlarla yanaşı, ümummilli inkişaf və milli maraqların təmin olunması istiqamətində siyasi iradənin nümayiş etdirilməsi də toxunulması zəruri olan başlıca məsələlərdəndir. Daxili siyasətlə yanaşı, xarici siyasət strategiyasında da milli maraqların etibarlı müdafiəsi siyasi iradədən asılıdır. Eyni zamanda, milli dövlətin xarici siyasət strategiyasının rasionallığı və praqmatikliyi də milli proqresin meyarı kimi səciyyələndirilir. Bu istiqamətdə milli inkişafın Azərbaycan nümunəsinə diqqət yetirsək, qeyd edə bilərik ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Başqa sözlə, həyata keçirilən müstəqil və balanslaşdırılmış xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca istinad mərkəzlərindən və strateji tərəfdaşlarından birinə çevirib. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyası bir neçə istiqamətdə ölkəmizi nəzərə alınan lokomotiv aktorlardan birinə çevirib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları

Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı, inkişaf mənbəyi adlandırırlar.

Beləliklə, ilk növbədə, ölkəmiz tərəfindən reallaşdırılan müstəqil və balanslaşdırılmış enerji siyasəti regionun və regionətrafı coğrafiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanı dünyanın enerji bazarında aparıcı ixracatçılardan birinə çevirib. Bu gün Xəzər hövzəsinin bayraqdarı hesab edilən Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə, beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biri kimi çıxış edir. Ölkəmiz milli dövlətçilik prinsiplərinə müvafiq olaraq, həyata keçirilən praqmatik və rasional əsaslara söykənən siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu qismində çıxış etməkdədir. Təsadüfi deyil ki, Xəzər dənizinə xarici sərmayədarları ilk dəfə dəvət etməklə uzunmüddətli qarşılıqlıfaydalı əməkdaşlığın sağlam təməlini atan Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Bu da transmilli aktor və faktor olmaq etibarilə Azərbaycanın dünya dövlətlərinin enerji planı və strateji əməkdaşlıqlar perspektivində kəsb etdiyi önəmi aydın şəkildə əks etdirir. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə başlıca aktorların – dünyanın aparıcı dövlətləri və transmilli şirkətlərinin uzunmüddətli perspektivdə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir.

Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası Cənubi Qafqazın hərbi-siyasi və iqtisadi təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfələr verməkdədir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və

təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji əməkdaşlıq platforması gerçəkləşdirilmir. Gerçəkləşdirilən bütün regional layihələrin mərkəzi oyunçusu qismində məhz Azərbaycan çıxış edir və sözügedən layihə Cənubi Qafqazın təhlükəsizlik sisteminin strateji korreksiyasında əhəmiyyətli faktor kimi dəyərləndirilir. Eyni zamanda, məhz bu cür layihələr ölkəmizin milli maraqlarına adekvat olmaqla bərabər, Azərbaycanın suverenlik səviyyəsini, heç kimdən asılı olmadığını da təsdiq edir...

Beləliklə, sadalananlardan belə bir qanunauyğun və məntiqi nəticəyə gəlmək olur ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış edən və müstəqil xarici siyasət yürüdən milli dövlətlərin etibarlı strateji tərəfdaşına çevirib.

İqtisadi sahədə milli maraqlara isə iqtisadi potensialın artırılması, bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması, iqtisadiyyatın inkişafı üçün daxili və xarici investisiyalardan ötrü əlverişli şəraitin yaradılması, təbii və maddi sərvətlərin qorunması və səmərəli istifadə edilməsi, regional və dünya bazarlarının formalaşdırılmasında və fəaliyyət göstərməsində azad və bərabərhüquqlu iştirakın təmin edilməsi və s. daxildir.

Bununla yanaşı, iqtisadi inkişaf strategiyasının effektivliyi də milli tərəqqinin növbəti komponenti kimi çıxış edir. Faktdır ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu

inkişafın əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü ümummilli inkişafın fundamental təminatçı faktorunu təşkil edir. Reallaşdırılan rasional iqtisadi strategiyanın fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, kompleks səciyyəli iqtisadi islahatların həyata keçirilməsi, iqtisadi subyektlərin fəaliyyət mexanizminə əlverişli şəraitin yaradılması, digər bu kimi istiqamətlər dövlətimizin qarşısında duran prinsipial öhdəlikləri təşkil edir. Eləcə də Azərbaycan dövləti bütün bu vəzifələrin öhdəsindən layiqincə gələrək, ümummilli inkişafı ən yüksək səviyyədə təmin edir.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional iqtisadi strategiya özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Məhz bunun qanunauyğun nəticəsidir ki, hər bir sahədə müşahidə edilən mütəmadi və sürətli inkişaf tendensiyası keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi kimi konkret faktlar ümummilli inkişafın təcrübi gerçəkliklərini təşkil edir. Qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi kimi zəruri və təxirəsalınmaz tədbirlər də milli inkişafa təkan verməkdədir.

Əlbəttə ki, bütün bunlar ona dəlalət edir ki, Azərbaycanın müstəqil iqtisadi inkişaf strategiyası rasional səciyyə daşıyır. Ölkəmiz heç bir qurumdan, milli dövlətdən asılı olma-

yan iqtisadi siyasət yürüdür ki, bu da inkişafın fundamental komponenti kimi çıxış edir. Bunun başlıca göstəricisidir ki, güclü iqtisadiyyata malik olan inkişaf etmiş dövlətlərin əksəriyyətinin ciddi itkilərə məruz qaldığı bir dövrdə-beynəlxalq böhran şəraitində Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını qorudu. Belə ki, statistik göstəricilərə nəzər yetirdikdə məlum olur ki, dünya iqtisadiyyatının resessiya, bəzən isə "slump" adlandırılan işgüzar aktivliyin kəskin azalması və daralması ilə müşayiət olunan böhran dövründə Azərbaycan iqtisadiyyatı krizisin fəsadlarından çox cüzi təsirlənib. Bu da səbəbsiz deyil. Dünyanın iqtisadi nəhənglərinin çox ciddi itkilərlə üzləşdiyi bir mərhələdə Azərbaycan hökumətinin operativ antiböhran tədbirləri sayəsində ölkəmiz qlobal maliyyə böhranına qarşı yüksək dayanıqlılıq nümayiş etdirdi. Düzdür, Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata açıq olması və inteqrasiyası dünya maliyyə böhranının ölkəmizin iqtisadiyyatına da müəyyən qədər təsir etməsinə səbəb olub. Amma neft gəlirlərinin səmərəli idarə edilməsi və strateji valyuta ehtiyatlarının formalaşdırılması, həmçinin, konservativ xarici borclanma strategiyası, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sahələrinin inkişafı, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi kimi fundamental tədbirlər ölkəmizdə iqtisadiyyatın sabit artım tempinin davam etməsini şərtləndirib. Bu isə nəticə etibarilə ÜDM-in, xarici ticarət dövriyyəsinin müsbət saldosunun, əhalinin gəlirlərinin və investisiya qoyuluşlarının artmasını təmin edib.

Yuxarıda sadalanan fundamental tədbirlərlə yanaşı, dövlətin maliyyə-büdcə siyasətinin effektiv səviyyədə təmin olunması, valyutanın sabitliyi, strateji valyuta ehtiyatlarından səmərəli istifadə, inflyasiyanın idarə olunan səviyyədə

saxlanılması, büdcə kəsirinin minimum səviyyədə saxlanılması, uçot dərəcəsinin azaldılması, əmanətlərin sığortalanması, vergi yükünün azaldılması kimi vəzifələrin də yüksək səviyyədə yerinə yetirilməsi ölkəmizin beynəlxalq iqtisadi münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsini təmin edib.

Beləliklə, iqtisadi siyasətin rasionallığı və praqmatikliyi də milli maraqların etibarlı müdafiə vasitəsi kimi çıxış edir.

Elm, mədəniyyət və mənəviyyat sahəsində isə milli maraqlara xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması və ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi, elmi potensialdan səmərəli istifadə olunması və onun artırılması aid edilir. Faktdır ki, milli inkişafın təməl təminatçı komponentlərindən biri intellektual resurslardan səmərəli istifadə olunmasıdır. Burada daha çox diqqət yetirilən məqam intellektual əsaslara söykənərək, müvafiq resurslardan istifadə edərək, inkişafın konseptual əsaslarının və icra mexanizmlərinin yaradılmasıdır. Başqa sözlə, müasir dövlətlərin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri də ümummilli tərəqqinin konseptual əsaslarının hazırlanıb, həyata keçirilməsi təşkil edir. Bu istiqamətdə isə milli dəyərlərə və maraqlara müvafiq surətdə təsbit edilmiş konsepsiyanın müəyyən və icra olunması strateji zərurət qismində çıxış edir.

İntellektual potensialdan istifadə edərək milli maraqların müdafiəsi və ümummilli inkişafın təmin olunması da Azərbaycan dövlətinin prioritetlərindən biri kimi çıxış edir. Bununla bağlı Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev demişdir: “Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz

müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi, başqa bir sərvətimiz-intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar”.

“Qara qızıl”ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir” tezisindən çıxış edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional kurs da intellektual resurslardan səmərəli istifadə olunmasını təmin etmişdir. İntellektual resurslardan səmərəli istifadə mexanizminin formalaşdırılması elitanın transformasiyasına da mühüm töhfələr bəxş edir.

Ölkəmizdə rasional elita siyasətinin fonunda tarixi önəm kəsb edən əsas amil cəmiyyətin strukturunda kardinal keyfiyyət dəyişikliyi kimi səciyyələndirilən “kratiya transformasiyası”nın baş verməsi olmuşdur.

Belə ki, 1990-cı illərin əvvəllərində ictimai-siyasi münasibətlər sistemində hakim təbəqə statusunda çıxış edən oliqarxiya tədricən öz yerini aristokratik təbəqəyə verməyə başladı. Bu isə həm yeni cəmiyyət quruculuğu prosesində kardinal keyfiyyət dəyişikliyi, həm də milli münasibətlər sistemində tarixi dönüş kimi səciyyələndirilməlidir. Çünki nəzəri və təcrübi baxımdan bəllidir ki, oliqarxiya bir qrup hakim şəxslərin müəyyən milli resursları (maddi resurslar, hakimiyyət resursları, güc resursları və s.) öz əllərində cəmləşdirmələri fonunda ortaya çıxan təbəqədir. Sözügedən təbəqə “ilkin kapital sahibi” qismində çıxış etməklə ya istismarçı mövqedə durur, ya da ümummilli inkişaf konsepsiyası və məramına zidd olan “qrup mənafeyi” prinsipindən çıxış etməklə fəaliyyət göstərir. Bu isə nəticə etibarilə mütəmadi və ardıcıl səciyyə daşıyan cəmiyyət quruculuğu prosesinin əsaslarını sarsı-

dan və ümummilli inkişafın qarşısında duran destruktiv faktor qismində çıxış edir. Məhz buna görə də, oliqarxiya "özündə nəcib keyfiyyətləri və xüsusiyyətləri ehtiva edən, cəmləşdirən hakim zümrə" kimi deyil, "maliyyə resurslarının sahibi olan, qrup mənafeyinin təmin olunmasını fəaliyyət fəlsəfəsi kimi qəbul edən və assimmetrik münasibətlərin hakimi qismində çıxış edən" təbəqə kimi səciyyələndirilir... Amma "ən yaxşıların hakimiyyəti" kimi səciyyələndirilən aristokratiya sözün əsl mənasında milli inkişaf və tərəqqinin mənbəyi, qarantı qismində çıxış edir. Çünki sözügedən təbəqə yalnız "maliyyə hakimləri" mövqeyində durmurlar, onlar mənəvi-mədəni müstəvidə ən nəcib keyfiyyətləri və xüsusiyyətləri özlərində cəmləşdirirlər. Bunun da qanunauyğun nəticəsi kimi, "nəciblər" cəmiyyətin mütəşəkkilliyi, həmrəyliyi, bütövlüyü və inkişafına xüsusi töhfələr verən islahatlar və dəyişikliklər simvolu qismində çıxış edirlər...

Beləliklə, bütün bu sadalananların fonunda qeyd edə bilərik ki, Ulu öndər Heydər Əliyevin yeni cəmiyyət quruculuğu prosesi çərçivəsində həyata keçirdiyi konstruktiv strategiyanın qanunauyğun nəticəsi kimi, oliqarxiyanın aristokratiyaya transfer olunması missiyasının reallaşdırılması bir neçə nöqteyi-nəzərdən xüsusi önəm kəsb edir.

Bu, ilk növbədə, imkanlar və qabiliyyətlərin iyerarxik dəyərləndirilməsi prinsipi əsasında sosial ədalətin təmin olunması və onun davamlı xarakter alması missiyasının təmin olunmasına xüsusi təkan və töhfə verir. Çünki ölkənin və dövlətin nəcib xüsusiyyətlərə malik olan, milli mənafeyi təməl faktor kimi əsas tutan elit zümrə tərəfindən idarə edilməsi təbəqələrarası münasibətlərin və onun balansının sağlam inteqrativ dəyərlər və substratlar əsasında formalaşması və inkişafını təmin edir. Bu isə nəticə etibarilə cəmiyyətin ahəng-

darlığını təmin edən ümumi mexanizm rolunu oynamaqla, eyni zamanda, milli dövlətimizin milli maraqlar və dəyərlər əsasında inkişafını təmin etdi. Məlum olduğu kimi, oliqarxiyanın hakim zümrə olduğu milli dövlətlərin sahələrarası hormoniyaya əsaslanan inkişafından bəhs etmək olmaz. Görüntü səciyyəsi daşıyan "inkişaf" isə qrup mənafeyinin və "hakimlərin transmilli maraqlarının təmin olunması" fonunda ortaya çıxan təzahürdür. Daha da dəqiqləşdirsək, deyə bilərik ki, "kapital maşını" qismində çıxış edən oliqarxlar (təsadüfi deyil ki, bu zümrə bəzən "maliyyə oliqarxiyası" adlandırılır) milli zəmində ümummilli sərvətlərin inhisarçısı qismində çıxış edir və assimmetrik əlaqələrin daha da dərinləşməsinə şərait yaradan fəaliyyət mexanizminə malik olurlar. Amma aristokratiyanın "nəcib siyasət"i sayəsində əldə edilən inkişaf ümummilli səciyyə daşıyır və xalqın, millətin milli sərvəti kimi dəyərləndirilir. Bütün bunların fonunda qeyd etmək mümkündür ki, Azərbaycanda aristokratik təbəqənin mütləq mənada təşəkkül tapmasının ideoloji, mədəni, sosial, hüquqi, siyasi sahələrdə hormoniyaya əsaslanan əlaqələr balansının formalaşmasına və tərəqqinin qeydə alınmasına gətirib çıxarması nəticə etibarilə milli zəmində yüksəlişin daha operativ və effektiv xarakter almasını şərtləndirmişdir. Belə ki, həyata keçirilən iqtisadi, siyasi, hüquqi islahatların cəmiyyət quruculuğu prosesində effektiv nəticələr verməsi və ictimai münasibətlər sisteminin əsasını daha da gücləndirməsi yuxarıda əks olunan tezisin əsaslılığını növbəti dəfə sübut edir.

Nəticə etibarilə sadalanan faktlarda təsbit edildiyi kimi, Azərbaycanda oliqarxiyadan milli sərvət kimi dəyərləndirilən aristokratiyaya, yaxud milli elitaya transformasiya olunması missiyasının operativ və effektiv surətdə reallaşdırılması ümummilli inkişafa xidmət edən tarixi hadisədir. Bu, eyni

zamanda, yeni cəmiyyət quruculuğu prosesinin fundamental vəzifəsinin yerinə yetirilməsinə və milli maraqların etibarlı müdafiəsinə dəlalət edən göstəricidir...

Bunlarla yanaşı, XXI yüzillik informasiya əsri kimi səciyyələndirildiyindən informasiya sahəsində milli maraqların rasional müdafiə olunması, informasiya təhlükəsizliyinin təmin edilməsi hər bir milli dövlətin siyasi strategiyasında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilir. Bunun üçün ilk növbədə, konseptual əsaslar formalaşdırılır, müəyyənləşdirilmiş məqsəd və hədəflərə çatmaq üçün resurslar səfərbər edilir. Formalaşdırılmış konseptual mənbələrdə, ilk növbədə, informasiya sahəsindəki maraqlar müəyyən edilir, eyni zamanda, informasiya təhlükəsizliyinin təmin olunması yolları əks olunur. İnformasiya təhlükəsizliyi sahəsində əsas milli maraqlara əsasən məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi, informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi, informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi və dünya rabitə və informasiya sisteminə daxil olması aid edilir.

İnformasiya təhlükəsizliyinin təmin olunmasının və bu sahədə maraqların müdafiə edilməsinin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, qloballaşma və beynəlxalq inteqrasiya şəraitində Azərbaycan informasiya təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirir. Dövlət siyasətində prioritet kimi müəyyənləşdirilən informasiya maraqlarının və təhlükəsizliyinin təmin edilməsi konseptual əsasda strateji məqsəd kimi müəyyən edilmişdir. Əlbəttə, bu, informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi sayəsində mümkün olur ki, bu istiqamətdə də sürətli tərəqqini şərtləndirən əhəmiyyətli tədbirlər görülməkdədir. "Azərbay-

can Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" qəbul edilib və burada inkişafın əsas strateji istiqamətləri təsbit olunub.

İnformasiya təhlükəsizliyinin əsas istiqaməti kimi beynəlxalq arenada informasiya hücumlarının qarşısının alınması, informasiya vasitəsilə və xüsusilə də virtual platformada təxribat və neqativ təbliğatların neytrallaşdırılması, bütövlükdə, informasiya mübarizəsinin rasional və praqmatik surətdə təşkil edilməsi başlıca strateji vəzifələr qismində çıxış edir. Bununla bağlı, Prezident İlham Əliyev qeyd etmişdir: "İnformasiya mübarizəsi indiki şəraitdə hesab edirəm ki, prioritet məsələlərdən biridir. Biz internet və qloballaşma dövründə yaşayırıq və bütün müasir imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Onu da qeyd etməliyəm ki, Azərbaycanla bağlı olan bəzi informasiyalar, biz onu yaxşı bilirik, həqiqətə uyğun deyildir. Bəzi hallarda bəzi dairələr, - onların adını çəkmək bəlkə də mənim üçün yaxşı olmaz, onsuz da onları hamımız yaxşı tanıyırıq, - Azərbaycana qarşı böhtan, iftira kampaniyası aparırlar. Bunun da səbəbi var və burada, əlbəttə ki, təkcə erməni lobbisindən söhbət getmir, halbuki bu kampaniyanın arxasında daha çox onların qulaqları görsənir. Ancaq bütövlükdə biz bilirik, kim nə üçün nəyi yazır, hansı məqsədlə və nə vaxt. Əgər ölkəmizin həyatında və ətrafda gedən proseslərə nəzər salsaq, görərik ki, artıq Azərbaycanla bağlı olan mənfi məlumat bölgədə gedən müəyyən vacib hadisələrlə uzlaşır. Bunu biz bilirik, görürük və buna qarşı mübarizə aparmalıyıq".

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI

## Azərbaycan dilində


1. Ramiz Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: "Şərq-Qərb", 2008.

2. Ramiz Mehdiyev. Milli məfkurə, milli dövlətçilik, müstəqillik yolu ilə (II hissə). Bakı: "XXI-Yeni Nəşrlər Evi", 2007.

3. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, "Yeni Nəşrlər Evi", 2003. 248 səh. 30.

4. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik – Bakı: «Azərbaycan» nəşriyyatı, 2005.

5. Hikmət Babaoğlu. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı: Elm, 2007.

6. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: "Çinar-çap", 2010.

7. Hikmət Babaoğlu. İnsan hüquqları və azadlıqları (tarixi təkamülü, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi). Bakı: "Elm", 2006.

8. Hikmət Babaoğlu. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: "Aypara-3", 2009.


## Türk dilində


1. Arı Tayyar. «Sovyetlər Birliyi Sonrasında Avrasiya: Din, Etnik Yapı, Ekonomi ve Dış Politika», Avrasiya Dergisi. Cilt 3. Sayı. 4 (Kış 1996).s.27-44.

2. Arı Önder. Uluslararası İlişkiler. İstanbul: Der Yay,. 1987.

3. Ataöv Türkkaya. «Milletlerarası Münasibetlerde Küvvet Muvazenesi», Ankara Universiteti SBF Dergisi. No.4. (Aralık, 1960 s.)

4. Çam Esat. Siyaset Bilimine Giriş. İstanbul Üniv. Yay., 1977.
5. Ergin Feridun. Uluslararası Politika Stratejileri. İstanbul: İstanbul Üniv, Yay., No. 2008.ty.
6. Gönlübol Mehmet. Uluslararası Politika. 3 b. Ankara. SBF Yay. 1985.
7. Sönmezoğlu Faruk. Uluslararası Politika ve Dış Politika Analizi, İstanbul: Filiz Kitabevi,1989.

## Rus dilində

1. А.А.Дегтерев. «Теории политики». Москва: 1998
2. А.С. Панарин. «Политология»(учебник). Москва: 1998
3. К.С.Гаджиев. «Политическая наука». Москва: 1996
4. «Геополитические теория и практика» . Москва: 1993
5. «Дипломатический словарь». В 3 томах. Редколлеги: И.И.Минц, Ю.А.Поляков,З.В.Удальцова и другие. Москва: 1985
6. Н.А.Косолапова. «Субьекты мировой политики и международных отношений»// «Мировая экономика и международные отношения». 1998, № 12
7. В.Кулагин. «Современные теории международных отношений» // «Международная жизнь». 1998 , № 1
8. С.А.Ланцев . «Мировая политика и международные отношения»: Конспект лекций. СП6. 2000
9. «Современные международные отношения»: Учебник под редакции А.В.Торкунова, Москва, 1999.

## İngilis dilində

1. Clande, Jr L. Power And İnternational Relations. New York: Random House,1954.
2. Crane, Diana. «Transnational Networks in Basic Science» Robert O. Keohane and Joseph S. Jr. ed. Transnational Relations and World Politics. Cambridge: Harward University Press. 1972, p.235-51.

3. Diamond L. Developing Democraty: Toward Consolidation. Baltimore, London: The Johns Hopkins University Press, 1999.

4. Diamond L. Economik Development and Democraty Reconsidered // Newbury Park, London, New Delhe, Sage Publications, 1992.

5. Hoffman, Stanley. Theory and İnternational Relations, James N.Rosenau, ed.İnternational Politics and Foreign Policy, a reader in research and theory. New York: The Free Press. 1969, p.30-40

6. James N.Rosemai et al.ed. The Analysis of İnternational Politics (New York,The Free Press, 1972), p.166-74.

7. Lopez, George A. and Michael S.Stohl, İnternational Relations, Contemporary Theory and Practice. Washington, D.C. Conqressional Quarterly İnc., 1989

8. Rosecrance, Richard N. Action and Reaction in World Politics. Boston: Little, Brown, 1963.

9. Walts, Kenneth N. «İnternational Structure, National Force and Balance of World Power». James N.Rosenau ed. İnternational Politics and Foreign Policy, a reader in research and theory. New York: The Free Press, 1969, p.304-314.

10. What is democracy? United states information Agency. UCA, 1991.

## Dövri mətbuat

1. Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika. “Yeni Azərbaycan” № 060 (3485). 08 aprel 2011

2. Qloballaşmanın gətirdiyi təhlükələrdən qorunmalıyıq, “Xalq Cəbhəsi” № 102(2270) 09 iyun 2011.

3. Kollektiv qeyri-şüuru davranış, Ömər Muxtarın eynəyi, işğal və mənəviyyat, “Yeni Azərbaycan” № 200 (3625) 29 oktyabr 2011.

4. Panideyalar, mondializm və beşinci kolon, “Yeni Azərbaycan” № 087 (3754) 17 may 2012.

5. Milli ideologiya vətəndaş həmrəyliyi və ictimai ahəngdarlığı təmin edən vasitədir. “Yeni Azərbaycan” № 214 (3881) 22 noyabr 2012.

# İSTİFADƏ EDİLMİŞ TERMİNLƏRİN İZAHLI ŞƏRHİ

**Aktor** – siyasi proseslərin iştirakçısı qismində çıxış edən, qəbul və icra etdiyi qərarlarla digər subyektlərin fəaliyyəti istiqaməti və mexanizminə təsir edən subyekt (**H.B**.).

**Aktor** – qəbul etdiyi qərarlarla digər qərar qəbul edənlərin qərarına təsir edən subyekt (**H.B**.).

**Aktor** – öz fəaliyyəti ilə baş verən proseslərə (beynəlxalq aləmdə və ölkə daxilində cərəyan edən siyasi proseslərə) təsir etmək gücündə olan hüquqi, qeyri-hüquqi, leqal, yaxud illeqal təşkilat, siyasi qrup və ya fərd (**H.B**.).

**Anarxizm -** hakimiyyətin və hakimiyyət strukturlarının mövcud olmamasını, könüllü idarəetmənin təşəkkül tapmasını əsas tutan radikal ideoloji baxışlar sistemi. Radikalizmin sol qanadının təzahür formalarından və ideoloji xətlərindən biri olan anarxizm cəmiyyətdə ümumi həmrəyliyə mənfi təsir edən, dağıdıcı meyillərə səbəb olan, xaos və destabilliyin yaranmasına təkan verən sosial bəla qismində çıxış edir. "Suveren milli dövlətlərin sıradan çıxması" və "ümumi normalarla təsbit edilmiş qanunların ləğv edilməsi" prinsiplərindən çıxış edən anarxistlər sadalanan məqsədlərin həyata keçirilməsi naminə inqilab etməyə və müxtəlif stratifikasiyalar arasında antaqonizm yaratmağa cəhd edirlər. Onların ən çox istifadə və istinad etdiyi vasitə isə sui-qəsd metodudur. Peter Kropotkin, Emman Goldman, Aleksandr Berkman, Pier-Cozef Prudon, Benjamin Tuker, Uilyam Grin kimi anarxizm cərəyanının tərəfdarları da etiraf edirlər ki, anarxistlərin təməl prinsipi "sərhədsizlik"dir və onlar qanunların qəsdində durmağı təməl vəzifə hesab edirlər. Onlar bildirirlər ki, ümumi normalarla təsbit edilmiş qanunlardan hər bir fərd və cəmiyyət imtina etməlidir və dövlət onlar üçün başlıca tənəzzül və təhlükə mənbəyidir.

**Antaqonizm -** barışmaz ziddiyyətlər. Antaqonizm anlayışı siyasi-hüquqi leksikonda mövcud olan ziddiyyətlərin ifrat forma alaraq dağıdıcı səciyyə daşıdığını ifadə etmək üçün işlədilməkdədir.

**Aristokratiya -** özündə nəcib xüsusiyyətləri, zəngin intellektual potensialı və idarəetmə təcrübəsini cəmləşdirən idarəetmə subyektləri və ya hakimiyyət daşıyıcıları. Aristokratiyanın "nəcib siyasət"i sayəsində əldə edilən inkişaf ümummilli səciyyə daşıyır və xalqın, millətin milli sərvəti kimi dəyərləndirilir. Ölkənin və dövlətin nəcib xüsusiyyətlərə malik olan, milli mənafeyi təməl faktor kimi əsas tutan elit zümrə tərəfindən idarə edilməsi təbəqələrarası münasibətlərin və onun balansının sağlam inteqrativ dəyərlər və substratlar əsasında formalaşması və inkişafını təmin edir. Bu isə nəticə etibarilə cəmiyyətin ahəngdarlığını təmin edən ümumi mexanizm rolunu oynamaqla, eyni zamanda, milli dövlətin milli maraqlar və dəyərlər əsasında inkişafını təmin edir.

**Empirik -** təcrübi proseslər və hadisələrdən alınmış və faktlarla təsbit edilmiş.

**Homoinformatikus** - informasiya ilə idarə edilən yeni insan tipi. Bu tipi təmsil edən insanlar bir-birilərindən dini, milli-etnik kimliklərinə, ideologiyalarına görə yox, sırf informasiyaya və bu resurs əsasında formalaşmış təfəkkürlərinə görə fərqlənirlər və yaxud bir-birilərilə eyniyyət təşkil edirlər.

**İdeologiya** - sosial qrupların və ya bütün cəmiyyətin mənafelərini müdafiə və ifadə edən, sosial reallığı bu mənafelər prizmasından izah edən və əməli fəaliyyət direktivləri, oriyentasiyaları olan nəzəriyyələr, ideyalar və məlumatlar sistemi kimi müəyyənləşdirilir.

**İnfoelita** – informasiya resursları vasitəsilə infokratiya yaratmış xüsusi hakimiyyət elitası (**H.B.**).

**İnfoimperializm** - informasiya resursları və idarəetməsi üzərində qurulan, idarəetmə və istismarın ənənəvi hərbi, iqtisadi, mədəni vasitələrlə deyil, məhz informasiya vasitəsilə həyata keçirildiyi siyasət növü. Bu siyasət növü modern kibertexnologiyaların yaratdığı imkanlardan maksimum istifadə edilməsi ilə səciyyələndirilir. İnfoimperializmin silahı qismində sosial media, "facebook", "twitter" kimi sosial şəbəkələr, transmilli medianın digər resursları və bütün növ manipulyativ

internet mənbələri çıxış edir (**H.B**.).

**İnfogen təsir** – şəxsiyyətin formalaşmasına təsir edən, ənənəvi biogen, sosiogen, psixogen təsirlər səviyyəsində olan informasiya əsaslı yeni komponent (**H.B.**).

**İnfoidentiklik** – milli-etnik və dini-mədəni identikliyi sıradan çıxaran informasiya resurslarından istifadə nəticəsində yaranan və məhz əldə olunan informasiya əsasında formalaşan dəyərlərin yaratdığı identiklikdir (**H.B**.).

**İnfokratiya** - bu, elə bir hakimiyyətdir ki, burada hakimiyyətin mənbəyi qismində insanlar yox, virtual platformada dövriyyəyə buraxılan informasiya çıxış edir. Bu hakimiyyət növü informasiyaya institusional forma verilərək təsis edilmişdir (**H.B**.).

**İnfokulturoloji piramida** – bu sosial piramida cəmiyyətin klassik sosio-mədəni və milli-etnik strukturunu dağıdan və informasiya vasitəsilə mənimsənilən dəyərlər əsasında yeni cəmiyyətdaxili struktur formalaşdıran özünəməxsus sistemdir. İnfokulturoloji piramidanın formalaşdığı cəmiyyətlərdə milli-mədəni dəyərlər, demək olar ki, iştirak etmir (**H.B**.).

**İrrasional** – rasional (məntiqi) düşüncəyə əsaslanmayan, daha çox mülahizə və hisslər vasitəsilə təzahür olunan təfəkkür forması (düşüncə tərzi) kimi səciyyələndirilir. Burada məntiqi və analitik düşüncəyə yer verilmir.

**Kataklizm -** dəyişikliklər dövründə dağıdıcı, aşındırıcı proseslər.

**Konfrantasiya -** subyektlərarası qarşıdurma və toqquşmalar formasında səciyyələndirilən dinamik proses.

**Maksimalizm -** obyektə (və ya subyektə) xas ifrat meyil və mövqe ilə təzahür olunan statik və dinamik durum.

**Marionetka -** müstəqil kursa və istiqamətə malik olmayan, konkret aktorların diktəsi və göstərişləri ilə fəaliyyət göstərən subyekt.

**Milli identiklik -** milli kimliyin daşıyıcısı qismində çıxış edən və cəmiyyətdə müəyyən status daşıyıcısı olan fərdlərin milli dəyərlər əsasında özünü milli birliyə aid edilməsi, milli eyniliyin tanınması.

**Netokratiya -** "şəbəkə hakimiyyəti" adlanan bu təsisat informasiya axını vasitəsilə yeni lokal və qlobal informasiya şəbəkələri formalaşdırmağa, ən yeni dövrdə informasiyanı əsas resursa çevirməyə çalışmaqla dünyanın idarə olunması missiyasını informasiya silahı vasitəsilə virtual platformada həyata keçirir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, modern texnoloji yeniliklərin meydana çıxması, elmi-texniki tərəqqinin sürətlənməsi, lokal və qlobal informasiya şəbəkələrinin mexaniki tərəqqisi, informasiya cəmiyyətinin təşəkkül tapması, internetin imkanlarının genişlənməsi netokratiyanın meydana çıxmasını şərtləndirən faktorlar qismində çıxış edir.

**Oliqarxiya -** güclü maliyyə imkanlarını özündə cəmləşdirən müəyyən qrupun hakimiyyəti. Oliqarxiyanın hakim zümrə olduğu milli dövlətlərin sahələrarası hormoniyaya əsaslanan inkişafından bəhs etmək olmaz. Görüntü səciyyəsi daşıyan "inkişaf" isə qrup mənafeyinin və "hakimlərin transmilli maraqlarının təmin olunması" fonunda ortaya çıxan təzahürdür. Daha da dəqiqləşdirsək, deyə bilərik ki, "kapital maşını" qismində çıxış edən oliqarxlar (təsadüfi deyil ki, bu zümrə bəzən "maliyyə oliqarxiyası" adlandırılır) milli zəmində ümummilli sərvətlərin inhisarçısı qismində çıxış edir və assimmetrik əlaqələrin daha da dərinləşməsinə şərait yaradan fəaliyyət mexanizminə malik olurlar.

**Rasional davranış modeli -** məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, real faktlar və göstəriciləri əsas götürülməsi fonunda istinad edilən davranış forması.

**Siyasi manipulyasiya -** şüurların gizli surətdə idarə edilməsi metodu kimi təsvir edilir. Bunun fonunda siyasi manipulyasiyanın iki başlıca forması (modeli) fərqləndirilir. Bunlardan birincisi, sensitiv modeldir. Manipulyasiyanın sensitiv modeli dedikdə, obyekt kimi seçilən qruplara qarşı müxtəlif stimul mexanizmlərindən istifadə edilməsi və müvafiq reaksiyanın alınması nəzərdə tutulur. Nəticə etibarilə, müvafiq reaksiyaların alınması ilə sosial obyektlərin şüuru idarə olunur və yönləndirmə mexanizminin işləkliyi təmin edilir. Manipulyasiyanın rasional modelində daha çox aldadıcı in-

formasiya resurslarından istifadə edilir. Ya tamamilə qara piar səciyyəli yalan məlumatlardan istifadə edilir, ya da doğru informasiyaların təhrif olunması ilə şüurlar manipulyasiya edilir. Rasional manipulyasiya metodunun struktur komponentlərinə bunlar aiddir: informasiyaların konkret maraqlara müvafiq surətdə təhrif edilməsi, informasiyanın qərəzli və yönləndirici detallarla doldurulması, rasional nəticəyə gəlməyə imkan verən informasiya elementlərinin sıradan çıxarılması və məlumata faktları pərdələyən komponentlərin daxil edilməsi və s.

**Siyasi modernləşmə -** Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqamətlərindən biri kimi səciyyələndirilir. Siyasi modernləşmə prosesi dedikdə, siyasi sistemin yeni dəyərlər əsasında formalaşdırılması və struktur elementlərinin təkmilləşdirilməsi ilə ənənəvi sistemdən müasir sistemə keçidlə səciyyələnən sosial-siyasi transformasiya nəzərdə tutulur.

**Siyasi praqmatizm -** müəyyən edilmiş məqsəd və hədəf uğrunda həyata keçirilən və hədəflənmiş nailiyyət və dividendlərin əldə edilməsini təmin edən siyasi fəaliyyət forması.

**Stratifikasiya -** sosiumda status və rollarla təsbit edilmiş təbəqələr.

**Substrat -** obyektə daxilən xas olan, hadisələrin mahiyyətini əks etdirən şərtləndirici və təminedici faktor.

**Qeyd**: *"infoimperializm", "infoidentiklik", "infokratiya", "infoelita", "infokulturoloji piramida" və* **"***infogen təsir" anlayışları elmi leksikona ilk dəfə Hikmət Babaoğlu tərəfindən gətirilmişdir.*

Sosial şəbəkələr və manipulyativ transmilli media infoimperializmin ağırlıq mərkəzi dəyişdirilmiş güllələridir. Saplandığı hər şeyi içəridən dağıdaraq məhv edir.

**H.Babaoğlu**

HİKMƏT BABAOĞLU
*(Məmmədov Hikmət Baba oğlu)*

# İNFOİMPERİALİZM VƏ MEDİA

NƏŞRİYYAT REDAKTORU
*Asəf Novruz*

TEXNİKİ REDAKTORU
*Zahid İlhamoğlu*

KORREKTORU
*Aytən Qurbanova*

OPERATORU
*Şəfiqə Mansurova*

ÇAPA MƏSUL
*Bilal Əliyev*

*Müəlliflə əlaqə*
**E-mail:** hbg66@mail.ru

*çapa imzalanmış 10.06.2013,*
*formatı 60x90 1/16,*
*fiziki ç.v 12, tayms qarnituru,*
*sifariş 23. Sayı 300.*

*Kitab*
*"**MSA"-da***
*nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*